**Cild: 16 Say: 2**
**2012**

**ISSN 2218 – 0346**

# AZƏRBAYCAN ARXEOLOGİYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş Redaktor**
Qüdrət İsmayılzadə

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev
Bəhlul İbrahimli

**Məsul katib**
Sevda Hüseynova
Günel Məmmədova
Mərziyə Əlizadə

**Redaksiya heyəti**
Alp Arslan (Türkiyə)
İsmayıl Hacıyev (Azərbaycan)
Bertyill Lyonnet (Fransa)
Rauf Munçayev (Rusiya)
Mehmet Ösdoğan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Otar Caparidze (Gürcüstan)
Övez Gündoğdiyev (Türkmənistan)
Maya Rəhimova (Azərbaycan)
Mehmet İşıqlı (Türkiyə)
Viktor Sarianidi (Rusiya)
Lauren Listven (ABŞ)
Andreas Şaxner (Almaniya)

**Volume: 16 Number: 2** **ISSN 2218-0346**
**2012**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Editorial Assistants**
Roza Arazova
Tarikh Dostiyev
Bahlul Ibrahimli

**Deputy Editors**
Sevda Huseynova
Gunel Mammadova
Marziya Alizade

**Editorial Board**
Alp Arslan (Turkey)
İsmail Haciyev (Azerbaijan)
Bertille Lyonnet (France)
Rauf Munchayev (Russia)
Mehmet Ozdoghan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Otar Japaridzeh (Georgian)
Ovez Gundoghdiyev (Turkmenistan)
Maya Rahimova (Azerbaijan)
Mehmet Ishikli (Turkey)
Viktor Sarianidi (Russia)
Lauren Listvest (USA)
Andreas Schachner (Germany)

© COPYRIGHT©1999 BY KHAZAR UNIVERSITY PRESS
ALL RIGHTS RESERVED

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 11
Xəzər Universitəsi

Khazar University 11 Mehseti str.,
Baku AZ1096 Republic of
Azerbaijan

Üz qabığında: Maral təsviri (Qobustan)

Cover page depicts: Description of deer (Gobustan)

На обложке: Изображение оленя (Гобустан)

Telefon: (99412) 4217927 (219)
Faks: (99412) 4989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



*Kim bilir neçədir dünyanın yaşı,*

*Tarixin nə qədər yazısı vardır.*

*Hər saxsı parçası, hər məzar daşı,*

*Nəsildən nəsilə bir yadigardır.*

Səməd Vurğun

*Who knows the age of the Earth*

*History manuscripts' birth?*

*A piece of ceramics, a stone in the cemetery,*

*Heritage of ancient times' memory.*

Samad Vurghun

## MÜNDƏRİCAT


**TƏDQİQATLAR**

***Roza Arazova*** – Əliköməktəpə eneolit yaşayış yerindən tapılmış daş məmulatının öyrənilməsinə dair ........................................................................9
***Elnur İmanov*** – Qobustanın qayaüstü təsvirlərində heyvanat aləmi ......................21
***İlahə Xantəmirova*** – Qobustanın qayaüstü incəsənətində maral təsvirləri............30
***Fidan Sadıqova*** - Alyaska və Azərbaycanın qayaüstü təsvirlərində ümumilik və fərdi xüsusiyyətlər......................................................................43
***Rüxsarə Quliyeva*** – Arxeoloji mənbələrə əsasən antik Albaniyanın etnogenez məsələsinə dair .......................................................................52
***Laçın Mustafayev*** – Qafqaz Albaniyasının təsərrüfatı yazılı və arxeoloji mənbələr kontekstində...........................................................................64
***İlhamə Məmmədova*** – Təbrizin Əlişah məscidi və ya Ərk qalası..........................75
***Aidə İsmayılova*** – Orta əsr işıqlandırma vasitələrinə dair (AMEA Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji materiallari əsasında)..................83
***Nurlana Həmzəyeva*** - Gəncə şəhərinin formalaşması tarixindən...........................91
***Afaq Quluzadə*** – Xaraba Gilandan tapılan kitabəli parça fraqmenti .....................99

**MARAQLI TAPINTILAR**

***Vəfa Quliyeva, Qənirə Pirquliyeva*** - Şamaxıdan tapılan “Daş babalar” haqqında .........................................................................................109

**ELM TARİXİ**

***Azad Zeynalov*** - Məmmədəli Hüseynov - Azərbaycanda paleolitşünaslığın banisi ...............................................................................................113

**TƏLƏBƏLƏRƏ KÖMƏK**

***Tarix Dostiyev*** – Arxeoloji lüğətin tərtibinə dair (bölmə: dəfn adətləri və qəbirlər) ........................................................................................122

**XRONİKA, RƏYLƏR, MƏLUMATLAR** ...................................................**132**

## CONTENTS

**RESEARCH**
***Roza Arazova* –** Stone Artifacts of Alikemektepe Eneolithic Settlement ................9
***Elnur Imanov* -** Animal World of Gobustan in Petroglyphs Images ......................21
***Ilaha Khantamirova* -** Deer Descriptions in the Rock Art of Gobustan.................30
***Fidan Sadigov* -** Petroglyphic Art of Alaska and Azerbaijan and their Common and Specific features ..................................................................43
***Rukhsara Guliyeva* –** The Ethnogenetic Problems of Ancient Albania According to Archaeological Data Sources..............................................52

***Lachin Mustafayev* -** The Economy of Caucasian Albania in the Context of Ancient Sources and Archaeological Findings ..........................................64
***Ilhama Mammadova* -** Alishah Mosque or Erk Castle of Tabriz ...........................75
***Aida İsmailova* –** Things used for Illumination of Homes in the Towns of Medieval Azerbaijan.........................................................................................83
***Nurlana Hamzayeva* -** From the History of Ganja Growth ....................................91
***Afag Guluzadeh* -** A Cloth Fragment with the Inscription Found in Kharaba Gilan ..............................................................................................................99

**INTERESTING FINDINGS**
***Vafa Guliyeva, Ganira Pirgulieva* –** The "Stone Idols" of Shamakhi.................109

**SCIENTIFIC HISTORY**
***Azad Zeynalov* -** Mamedali Huseynov- the Founder of the Paleolithic Archeology in Azerbaijan...........................................................................113

**FOR STUDENTS**
***Tarikh Dostiyev* –** To Archeological Dictionary Compilation ("Burial tombs and customs") ..........................................................................................122

**CHRONICLES, REVIEWS, INFORMATIONS ...........................................132**

## СОДЕРЖАНИЕ


**ИССЛЕДОВАНИЯ**

***Роза Аразова*** **-** К изучению каменных орудий из энеолитического поселения Аликемектепе ....................9

***Эльнур Иманов*** **-** Животный мир Гобустана в наскальных изображениях .....21

***Илаха Хантамирова*** **-** Изображения оленей в наскальном искусстве Гобустана....................30

***Фидан Садыгова*** **-** Общие и местные особенности в наскальных изображениях Аляски и Азербайджана....................43

***Рухсара Гулиева*** **–** Проблемы этногенеза античной Албании по данным археологических источников ....................52

***Лачын Мустафаев*** **-** Хозяйство Кавказской Албании в контексте античных источников и археологических находок....................64

***Ильхама Мамедова*** **-** Мечеть Алишаха или крепость Арк в Тебризе ............75

***Аида Исмаилова*** **-** Предметы освещения жилищ средневековых городов Азербайджана (по материалам археологической коллекции Музея Истории Азербайджана НАНА)....................83

***Нурлана Гамзаева*** **-** Из истории формирования города Гянджи ....................91

***Афаг Гулузаде*** **-** О фрагменте ткани с надписью, найденной в Хараба Гилане....................99

**ИНТЕРЕСНЫЕ НАХОДКИ**

***Вафа Гулиева, Ганира Пиргулиева*** – О «Каменных баб» из Шемахи **.........**109

**ИСТОРИЯ НАУКИ**

***Азад Зейналов*** **-** Мамедали Гусейнов – Основатель палеолитоведения в Азербайджане ....................113

**ПОМОЩЬ СТУДЕНТАМ**

***Тарих Достиев*** **–** К составлению археологического словаря (раздел: погребалъные обряды и памятники)....................122

**ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ ....................132**

TƏDQİQATLAR
RESARCHES
ИССЛЕДОВАНИЯ

# К ИЗУЧЕНИЮ КАМЕННЫХ ОРУДИЙ ИЗ ЭНЕОЛИТИЧЕСКОГО ПОСЕЛЕНИЯ АЛИКЕМЕКТЕПЕ

**Роза Аразова**
**rarazova@khazar.org**
(Университет Хазар)

**Ключевые слова: Мугань, обсидиан, кремень, зернотерки, долотовидные, скребки, вкладыши серпов с блеском.**

В Муганской степи на территории Азербайджана зафиксировано значительное количество остатков поселений эпохи энеолита, сохранившихся в виде холмов – тепе. Они, главным образом, расположены в Джалилабадском районе (1, с.88-96). Одно из таких тепе – поселение Аликемектепе находится на правом берегу реки Инджачай, в восточной части села Учтепе (2, с.480-481). Оно вытянутой вдоль русла формы, длиной 150 и шириной около 70 м.

У восточного края поселения, на северном склоне тепе в 1971 году были начаты археологические исследования этого памятника, продолжавшиеся до 1979, и после определённого перерыва – в 1991-92 годах.

В результате исследований выяснилось, что верхняя, околометровая толща культурных отложений тепе представляет более поздние исторические периоды, которые были перемешаны впускными погребениями исламского времени. Ниже находился нетронутый энеолитический слой мощностью 4 м, состоящий из нескольких строительных горизонтов.

В результате проведённых раскопочных работ на поселении Аликемектепе была собрана богатая коллекция материалов различных категорий. К сожалению, результаты исследований изданы лишь фрагментарно (3, с.64; 4, с.25-27; 5, с.8-13) и многие материалы, полученные с него, неизвестны специалистам. Предлагаемая статья посвя-

щена сравнительному типологическому изучению каменных орудий из верхней пачки отложений энеолитического слоя этого поселения, полученных при его исследовании в 1971-72 годах, до настоящего времени не введённых в научный оборот.

ЗЕРНОТЁРКИ. Многочисленную группу изученных орудий представляют зернотёрки. Среди находок имеются как целые образцы, так и фрагменты изделий. Они изготовлены из песчаника, плотного известняка, базальта, кварцита и других пород камня, имеющихся в горах прилегающего к Мугани горного Талыша.

Зернотерки морфологически делятся на три группы. В первую количественно наиболее значимую группу входят овальные зернотерки с двумя плоско обработанными поверхностями (рис. 1, 3-4). Вторую группу составляют овальные зернотерки с одной плоско обработанной поверхностью и естественно выпуклым основанием (рис.1, 1-2).

Третья, небольшая группа состоит из зернотерок ладьевидной формы. Их рабочая поверхность сильно обработана, концы резко приподняты в виде бортиков (рис.1, 5).

СТУПКИ И ПЕСТЫ. Ступки с небольшой «чашечкой» изготавливались из относительно мягких пород камня (рис. 1,6). Постоянным «спутником» ступок в культурном отложении поселения были пестики удлинённой формы со сработанными концами, изготовленные из небольших удлинённых булыжников (рис.1,8). Обычно, сравнительно крупные камни, подходящие под форму пестиков, из-за их тяжести или величины сломаны (рис.1,7).

ТОПОРЫ. Небольшую группу находок образуют плоские тесловидные топоры из гальки с хорошо оформленным симметричным заполированным лезвием.

Отмеченные выше группы каменных макроорудий – обычный набор энеолитических памятников Южного Кавказа. Исключение составляют ладьевидные зернотерки, впервые встреченные на энеолитическом слое Аликемектепе.

ЧАША. Одной находкой представлен хорошо обработанный каменный сосуд в форме чаши с плоским днищем и симметрично расширенным вверх корпусом. Эта находка оригинальна тем, что имеет прямой боковой выступ (часть сломана) взамен ручки.

ГРУЗИЛО. В одном экземпляре найден плоский дискообразный камень с обработанным по периметру краем и двухсторонне сверлён-

ным отверстием, что наводит на мысль использования его в качестве грузила (рис.1,9).

ИЗДЕЛИЯ ИЗ КРЕМНЯ И ОБСИДИАНА. Помимо описанных каменных находок, на поселении собрано 205 кремневых и обсидиановых предметов. Из них 70 представляют орудия, 8 - нуклеусы и 127 - отщепы и обломки.

Основным сырьём для изготовления орудий на поселении Аликемектепе служил кремень. Он хорошего качества, матовый с блеком, дающий в изломе острые режущие края. Наиболее часто использован кремень светлых от сероватого до желтоватого оттенков. Но применялся и кремень более темных цветов – темносерый (почти черный), табачный, бордовый. Для выделки боковых скребков использован прозрачный коричневый кремень. Из яшмовидной породы изготовлено два экземпляра ножа. Частично использован и халцедон.

По сравнению с кремнем, обсидиан в качестве сырья для изготовления орудий на поселении Аликемектепе использовался редко. Он по цвету и качеству неоднородный – от прозрачного до темночерного. В коллекции нет ни одного обсидианового образца с желвачной коркой. Очевидно, первичная обработка его происходила вне поселения и на поселение приносили уже подготовленные к расщеплению ядрища, которые здесь только раскалывали и дорабатывали.

В тоже время, наличие в культурном слое поселения нуклеусов из кремня и различных отщепов с коркой на поверхности, а также обломков, чешуек и т.д. свидетельствует о его обработке и изготовлении орудий из него на месте.

Производственный отход, главным образом из кремня состоит из обломков и отщепов. Они различны по форме и представлены круглыми, четырехугольными, неправильными, нуклевидными образцами. Отходы обсидиана в форме пластинчатых отщепов среднего размера и только 3 экземпляра из черного обсидиана крупные и массивные.

НУКЛЕУСЫ (8 экз.), от которых скалывались заготовки (отщепы и пластины), предствалены ядрищами аморфного типа, небольшой величины. Они грубые, с многочисленными сколами, как правило, не имеют специально подправленных площадок. Негативы сколов короткие, глубокие или крупные, то есть дают отщепы различных размеров.

Имеется лишь один экземпляр небольшого нуклеуса конусовидной формы из кремня бордового цвета. Высота его 5 см, диаметр удар-

ной площади– 4,5 см. Площадка овальной формы, с неровной поверхностью тщательна подправлена. Ядрище находится на начальной стадии сработанности. Большая часть его сохраняет желвачную корку (рис.III, 11).

Как видно, многие орудия из кремня и обсидиана на поселении Аликемектепе использовались почти без всякой вторичной подправки. Ретушь наблюдается лишь на отдельных орудиях. Она, в основном, небрежная и крупная, хотя немало и образцов с тщательной и мелкой ретушью.

ВКЛАДЫШИ. Типологический анализ коллекции каменных орудий из поселения Аликемектепе показал, что самую большую группу в ней составляют кремневые вкладыши – 37 экз. (рис.II, 4-7, 9).

Основными заготовками для вкладышей серпов на этом памятнике были широкие правильные призматические пластины и их обломки. Встречаются вкладыши и на небольших отщепах листовидной формы. Среди вкладышей имеются лишь 3 экземпляра, сделанных на обсидиановых пластинах.

Размеры заготовок варьируют. Для пластин длина их 3,2 – 8,4 см, ширина 1,6-3,2 см, для отщепов - длина 2,6 – 4,4 см, ширина в средней части 1,9-2,2 см.

Большая группа вкладышей (24 экз.) не имеет никаких следов предварительной обработки лезвия. Рабочий край на них неровный, в виде ломанной линии со следами многочисленных выщерблин и выкрошенности. На некоторых вкладышах в работе использованы два края. На абсолютно всех образцах прослеживаются следы интенсивной сработанности, о чем свидетельствуют их сглаженность, затупленность. На орудиях прослеживается заполированность, которая тянется по всей длине лезвия как с брюшка, так и со спинки.

В эту группу входят и 5 экземпляров вкладышей, сделанных на небольших отщепах листовидной формы. Рабочее лезвие их прямое или неровное, без ретуши. На двух экземплярах рабочая часть расположена на ударной площадке. Среди них по размерам выделяется концевой вкладыш на маленьком отщепе кремня табачного цвета (длина 2,6 см, ширина 1,9 см). Лезвие его очень тонкое и острое, со следами зеркальной заполировки, расположенной на углу орудия. Такие вкладыши обычно находились на конце обоймы серпа (рис.II,9).

Вкладыши с краевой подправкой составляют 13 экз. (рис.II,7,8). Их рабочее лезвие расположено на одной или двух продольных сторонах и предварительно ретушировано. Ретушь на одних орудиях нанесена по всей длине лезвия, на других лишь непосредственно на отдельный участок, главным образом, с брюшка, реже – одновременно со спинки и брюшка навстречу друг другу. Ретушь крупная, приостряющая, небрежная, реже мелкая, тщательная, притупляющая рабочий край. Все образцы носят следы интенсивного использования, которые характеризуются теми же признаками, что и выше отмеченные.

Два экземпляра вкладышей на пластинках из прозрачного обсидиана имеют по два лезвия со следами ретуши, нанесенной при их подправке после использования (рис.II,8). Сильная изношенность на них представлена в виде двухсторонней сглаженности, затупленности и заполированности продольного края. Такие вкладыши с двумя лезвиям, по-видимому, использовались, в съемной рукоятке попеременно.

Интересными в этой группе являются два экземпляра зубчатых вкладышей. Они выделяются тщательной обработкой лезвия (рис.II,5). Один из них на пластине длиной 7,3, шириной 2,2 см., второй – на обломке пластины кремня серовато-белого цвета сегментовидный формы. Его массивный край, входящий в обойму, благодаря подправке несколькими крупными сколами, дугообразный. Вдоль прямого края рабочего лезвия-ретушь мелкая, тщательная в виде коротких фасеток, придающих ему пилообразный контур. Вкладыш носит следы сильной сработанности. Сглаженность и зеркальная заполированность прослеживаются равномерно по всей длине лезвия, как с брюшка так и со спинки. Это свидетельство прямой формы рукоятки, в которую вкладыш вставлялся параллельно оси. Следы скрепляющей массы – битума на поверхности орудия указывают на границу раздела рабочей и вкладываемой части вкладыша.

Подобные серпы (6, с. 30-36) широко распространены в каменных индустриях Кавказа. Известны они и земледельцам Восточной и Центральной Европы, сходство обнаруживают также с серпами Ближнего Востока.

Как видим, характерным для всех вкладышей Аликемектепе является предельная изношенность абсолютно всех экземпляров, что свидетельствует о длительном использовании их в работе. Очевидно, данными орудиями пользовались не один полевой сезон. Благодаря

следам сработанности на вкладышах можно установить их положение в обойме. Почти во всех случаях зубцы-вкладыши вставлялись горизонтально. Только три вкладыша на отщепе вставлялись под углом к продольной оси рукоятки. Закреплялись пластинки при помощи смолистого вещества - битума, остатки которого сохранились на поверхности многих орудий. Кстати, в слое были найдены целые куски его.

СКОБЛЯЩИЕ ОРУДИЯ. Они в описываемой коллекции поселения Аликемектепе по количеству занимают второе место. Это скребки для обработки шкур животных и скобели для обработки дерева или кости. Небольшую серию составляют долотовидные орудия, характерные почти для всех энеолитических памятников Азербайджана.

*Скребки* представлены 13 экземплярами. Имеются образцы боковой формы (3 экз.) и скребки на отщепах (10 экз.). Боковые скребки (рис.III, 3,4), представленные фрагментами, изготовлены на очень узких пластинках с прямыми продольными краями. Они, как правило, имеют два лезвия, тщательно оформленные очень мелкой приостряющей ретушью. Ретушь на всех образцах нанесена со спинки. Среди них имеется 1 экземпляр концевого скребка длиной 2,7 см и шириной 3 см. Его прямой рабочий край, как и продольные края, оформлены ретушью.

Скребков на отщепах в коллекции 5 экземпляров (рис.III, 1,2,5, 7,8). Они различных очертаний и форм, имеют один или два рабочих участка, тщательно оформленных приостряющей и притупляющей ретушью. Исключение составляет один скребок треугольной формы с округлым рабочим краем на узком конце подправленным несколькими мелкими фасетками, со следами сглаженности (рис.III, 8).

Имеются 2 экземпляра скребков с выемкой, сделенных на отщепах из обсидиана. Один из них на краевом сколе нуклеуса, с пологой выемкой без ретуши, использовался в работе, вследствие чего на выемке образовались мельчайшие выщерблины. Длина его 5,8 см. Второй экземпляр на небольшом коротком поперечном отщепе. Глубокая выемка оформленная на конце, образует клювовидный выступ. Орудие, вероятно, использовалось в качестве резца. Следы сработанности имеются не только на выемке, но и на кончике острия (рис. III,5).

И, наконец, среди орудий данного типа выделяются 3 экземпляра высоких скребков из кремня, с почти круговым интенсивно сработанным лезвием (рис.III, 1). Заготовками служили небольшие короткие

массивные в сечении отщепы округлой формы, длиной 2,7 - 3,1 см и шириной 2,8 - 3,3 см.

*Скобели* в коллекции поселения Аликемектепе представлены 7 экземплярами, среди которых отсутствуют образцы на пластинках. Почти на всех образцах рабочие края использовались без предварительной обработки. Они изготовлены на отщепах кремня (5 экз.) и обломках обсидиана (2 экз.). Выделяются 3 экземпляра крупных дисковидных отщепа из кремня темносерого цвета с массивной ударной площадкой, слегка подправленной двумя – тремя сколами. Рабочие лезвия имеют выпуклую форму, без всяких следов ретуши (за исключением одного экземпляра, который с брюшка подправлен снятием мелких фасок для уплощения). Длина их от 8 до 8,4см, ширина в средней части от 4,7 до 6,5 см. На орудиях хорошо выражены следы изношенности в виде сильной выкрошенности и затупленности, свидетельствующих о работе по твердому материалу (рис. III, 10).

Интересен один образец со скоблящим лезвием и со следами выкрошенности на продольной стороне, который, возможно, использовался и как концевой скребок.Его рабочий край сформирован на прямом поперечном крае заготовки (рис. III, 9). Оба рабочих участка, использовались без предварительной обработки. Длина орудия 4,8 см, ширина 4,3 см.

ДОЛОТОВИДНЫЕ ОРУДИЯ. В коллекции имеется 8 экземпляров долотовидных орудий, сделанных исключительно из обсидиана (рис. II,1, III, 6). Они спользовались для стёсывания по дереву. Это – пластинчатые обломки, длиной 2,7 - 3,2 см и шириной 2,2 – 2,8 см. Их рабочее лезвие со следами выкрошенности на всех образцах расположено на конце (лишь 1 экз. с двойным лезвием) и образовано путем подправки с двух сторон мелкой подтёской. Имеются 2 экземпляра на маленьких отщепах длиной 2 см.

НОЖИ. Заготовками для ножей на поселении Аликемектепе (3 экз.) служили призматические пластины из кремня и реберчатая пластина из яшмовидной породы. Рабочие края орудий прямые, острые, лишенные дополнительной обработки. Исключение 1 предмет с двумя лезвиями, обработанными приостряющей ретушью. Размеры этих орудий - длина 5,3-6 см, ширина 2,5-2,8 см.

Рассматриваемые орудия обладают рядом признаков сработанности. Это, во-первых, сильная сглаженность выступающих краев, во-

вторых, легкая заполированность, распространяющаяся по обеим сторонам лезвия. Перечисленные признаки, вероятно, указывают на то, что данные пластины использовались в работе по мягкому материалу.

Помимо отмеченных орудий, в коллекции с поселения Аликемектепе также имеются один экземпляр срединного резца, сделанного на небольшом отщепе черного обсидиана длиной 3 см (рис.II, 2) и одна проколка на отщепе кремня треугольной формы, длиной 5,6 см, шириной 4,3 см. На его, естественно заостренном конце, трудно установить следы использования.

Такова характеристика найденных на поселении Аликемектепе каменных орудий труда. Из описания видно, что наиболее характерными типами кремневых и обсидиановых орудий были вкладыши серпов вместе с зернотерками и ступками, документирующие прочное оседлое земледелие. Затем следуют скоблящие орудия для обработки шкур на разной стадии их выделки, кости и дерева.

## ЛИТЕРАТУРА

1. Нариманов И.Г., Махмудов Ф.Р. Энеолитические памятники на Мугани. Изв. АН Азерб.ССР, 1967, № 2.
2. См. Махмудов Ф.Р., Нариманов И.Г. О раскопках на поселении Аликемектепе. Сб. «Археологические открытия 1971 года», Москва, 1972.
3. Махмудов Ф.Р. Первые итоги археологического изучения Аликемектепеси. – В сб. Каменный век и энеолит в Азербайджане. Баку, 1984.
4. Аразова Р.Б. Прогресс в развитии хозяйства поселения Аликемектепеси (по данным трасологического изучения каменной индустрии). – Технологический и культурный прогресс в раннеземледельческую эпоху. Тезисы докладов Республиканского совещания. Ашхабад, 1987;
5. Аразова Р.Б. Трасологическое изучение костяных орудий труда раннеземледельческого поселения Аликемектепеси. – Проблемы древней и средневековой истории Азербайджана. Баку, 1992.
6. См. Роза Аразова. Древнейшие жатвенные орудия Азербайджана (по данным экспериментально-трасологического исследования). Azərbaycan Arxeologiyası, №3-4, 1999.

# ƏLİKÖMƏKTƏPƏ ENEOLİT YAŞAYIŞ YERİNDƏN TAPILMIŞ DAŞ MƏMULATLARIN ÖYRƏNİLMƏSİNƏ DAİR

***Roza Arazova***

***Xülasə***

**Açar sözlər: Muğan, obsidian, çaxmaqdaşı, iskənə, qaşov, parıltılı oraq dişləri**

Məqalə 1971-72-ci illərdə eneolit dövrünə aid olan Əliköməktəpədə aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış daş məmulatların tipoloji klassifikasiyasına həsr olunub. Tapıntılar arasında dən daşı, iskənə, qaşov kimi məmulatlarının adlarını çəkmək olar. Çaxmaqdaşından parıltılı oraq dişləri xüsusi yer tutur. Obsidian məmulatı az tapılıb. Bu kolleksiyanın ilkin öyrənilməsi adı çəkilən tapıntıların qərbi Azərbaycan ərazisində aşkarlanmış digər daş məmulatlardan fərqli olduğunu müəyyən etmişdir.

# STONE ARTIFACTS OF ALIKEMEKTEPE ENEOLITHIC SETTLEMENT

***Roza Arazova***

***Summary***

**Keywords: Mugan, obsidian, flint, scrapers, chisel, gouge blades, sickle blades with gloss**

The article gives a typological classification of stone implements discovered from Eneolithic settlement Alikemektepe during archaeological excavations in 1971-1972. The author distinguishes pestles, worn out blades, scrapers and celts. Flint sickle blades with gloss take the main place among findings. Only few findings of obsidian goods were found. The preliminary study reveals the difference of this collection from the stone implements found in monuments of west part of Azerbaijan.




Рис.I. Каменные изделия поселения Аликемектепе
1-5 - зернотерки
6-8 – ступки и песты
8 – чаша
9 – грузило



Рис.II.
1 – долотовидное орудие,
2 – резец,
4-7, 9 – кремневые вкладыши,
8 – обсидиановый вкладыш



Рис III.
Кремневые орудия поселения Аликемектепе 1,2,5,7,8 – скребки на отщепах, 3-4 – боковые скребки, 6 – долотовидное орудие, 9 – скобель-скребок, 10- скобель, 11 –нуклеус

# QOBUSTANIN QAYAÜSTÜ TƏSVİRLƏRİNDƏ HEYVANAT ALƏMİ

**Elnur İmanov**
**elnurimanov@mail.ru**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Qobu, təsvir, qaya, sığınacaq, ovçuluq, öküz, maral, keçi**

Azərbaycanın çoxsaylı və rəngarəng abidələri içərisində qədim qayaüstü təsvirlər xüsusi yer tutur. Uzaq keçmişin adət və ənənələrinin, məişət və təsərrüfatının, dünyagörüşünün və mədəniyyətinin öyrənilməsində qayaüstü təsvirlər fövqəl əhəmiyyət daşıyır. Qayaüstü təsvirlər ibtidai icma quruluşunun ən mükəmməl mənbələri hesab olunur.

İnsan həyata göz açdığı gündən ətrafında baş verən hadisələri, onu əhatə edən aləmi maraqla seyr etmiş, keçirdiyi hiss və duyğularını, gördüklərini nəyinsə üzərinə həkk etməyə çalışmışdır. İri qaya parçaları, mağara divarları bu cəhətdən çox əlverişli olmuşdur.

Qayaüstü təsvirlərə və rəsmlərə ibtidai insanların məskunlaşdığı bütün yerlərdə təsadüf olunmuşdur. Azərbaycan ərazisi də diqqətdən kənarda qalmamışdır. Hazırda Azərbaycan qədim qayaüstü təsvirlərin yayıldığı mühüm regionlarından biri hesab olunur. Qobustan, Abşeron, Naxçıvan ərazisindəki Gəmiqaya və Tərtərçayın yuxarı axarındakı Dəlidağ yaylasında aşkar olunmuş qədim qayaüstü təsvirlər dediklərimizə əyani sübutdur.

Azərbaycanın qədim qayaüstü incəsənət nümunələri içərisində tarixi-bədii dəyərinə və geniş xronoloji çərçivəsinə görə Qobustan təsvirləri xüsusi yer tutur. Qobustan Bakı şəhərindən azca cənubda, Xəzərin qərb sahilini əhatə edən daşlı, qayalı və yarğanlarla dolu bir yerdir. Öyrənilmişdir ki, uzaq keçmişdə Qobustanda indikinə nisbətən rütubətli iqlim, zəngin bitki örtüyü, bəzi yerlərdə isə hətta meşəliklər olmuşdur. Ərazidə təbii bol yem örtüyünə uyğun zəngin heyvanat aləmi də geniş yayılmışdır. Qobustanın adına gəlincə güman edilir ki, mövcud ad onun relyefinin xüsusiyyəti ilə bağlıdır. Belə ki, orta və yuxarı pliosen süxurlarından ibarət olan ərazi sürətli yuyulma və təbii aşınma xassəsinə malik olduğundan çoxlu yarğanlara və dərin dərələrə malikdir. Yerli əhali tərəfindən bunlar “Qobu” adlandırıldığından bu ad ümumi əraziyə də şamil edilmişdir.











Qobustanda qədim təsvirlər ilk dəfə ötən əsrin 30-cu illərində qeydə alınmışdır. Lakin onların əsaslı tədqiqi yalnız müharibədən sonrakı illərə

aiddir. Qobustanın elmi tədqiqi Azərbaycanın görkəmli arxeoloq alimi İshaq Məmmədrza oğlu Cəfərzadənin adı ilə bağlıdır. Müharibədən sonrakı illərdə İshaq Cəfərzadə Qobustan ərazisində geniş miqyaslı axtarışlara başlamış və az vaxt içərisində burada mezolit dövründən tutmuş orta əsrlərədək geniş bir dövrə aid minlərlə qədim təsvirlər üzə çıxarmış və öyrənmişdir. Yorulmaq bilməyən alim az vaxt içərisində üzərində qədim təsvirlər olan Qobustanda bir neçə yer aşkar etmişdir. Bunlar Böyükdaş, Kiçikdaş və Yingirdağ adlı geniş qayalıqlardan ibarət olmuşdur. Alim həmin qayalıqlarda mezolit, neolit, tunc dövrlərinə, eləcə də orta əsrlərə aid müxtəlif təsvirlər, o cümlədən heyvan rəsmləri qeydə almışdır.

İshaq Cəfərzadə Qobustan təsvirlərinə aid indiyədək qiymətini itirməyən bir neçə sanballı əsər həsr etmişdir. Qeyd etmək lazımdır ki, böyük alim təkcə Azərbaycanda yox, onun hüdudlarından çox-çox uzaqlarda da qədim qayaüstü rəsmlər problemi üzrə ən kamil mütəxəssis kimi tanınmış və şöhrət tapmışdır.

Ötən əsrin 60-70-ci illərində İshaq Cəfərzadənin axtarışları onun tələbələri Cəfərqulu Namaz oğlu Rüstəmov və Firuzə Məmməd qızı Muradova tərəfindən uğurla davam etdirilmişdir. Onların səyi və bacarığı nəticəsində Qobustanda qədim qayaüstü təsvirlərin yayıldığı bir neçə əlavə yer aşkar olunmuş və öyrənilmişdir. Diqqətəlayiq haldır ki, onların axtarışları ilə Qobustanın qədim təsvirlərinin sayı bir neçə min artmışdır. Bunların içərisində Kənizədağ, Şonqardağ, Şıxqaya və Daşlıqaya adlı yerlər xüsusilə əhəmiyyətli olmuşdur.

Onu da diqqətə çatdırmaq lazımdır ki, Rüstəmov C.N. və Muradova F.M. keçən əsrin 60-cı illərində Qobustanda ilk dəfə arxeoloji qazıntılara başlamış və bu qazıntılarla burada mezolit və neolit dövrlərinə aid qəbirlər və qayaaltı sığınacaqlar, tunc dövrünə məxsus yaşayış yerinin qalıqlarını və zəngin kurqanlar aşkara çıxarmışlar.

Sevindirici haldır ki, Qobustanın qayaüstü təsvirləri öz yüksək bədii dəyərinə və elmi əhəmiyyətinə görə 2007-ci ildə YUNESKO-nun ümumbəşəri mədəni irs siyahısına salınmışdır. Hal-hazırda Qobustan bədii tarixi qoruq geniş fəaliyyət göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, Qobustan təsvirlərinin böyük bir hissəsini müxtəlif dövrlərə aid heyvan təsvirləri təşkil edir. Bu cəhətdən Qobustanı Azərbaycanın qədim heyvanat aləmi haqqında ensiklopediya kimi qiymətləndirmək olar.

Heyvan təsvirləri sürtmə, döymə üsulu ilə çəkilmişlər. Bəziləri isə boyalarla və cızmalarla çəkilmişdir. Heyvan təsvirləri əsasən kontur xətlərlə verilmişdir. Təsvirlər realistik üslubda çəkilmiş, mütənasiblik qorunmuşdur. Bu qədim təsvirlər içərisində ən qədim və əhəmiyyətliləri öküz təsvirləri hesab olunur. Öküz təsvirlərinə daha çox Böyükdaş, Şonqardağ, Kiçikdaş və qədim insanların daş dövrü düşərgələri yaxınlığında rast gəlinir. Onlar qayalarda əsasən qazma üsulu ilə çəkilmişdir. Öküzlər qayalarda çəkilmə səbəbindən, məqsədindən asılı olaraq müxtəlif ölçülərdə təsvir edilmişdilər. Onların nisbətən qədim hesab edilənləri böyük ölçüdə və real təsvir edilmişdilər. Öküzün rəsmini canlı və real təsvir etmək üçün rəsmin kontur xətti yan yana olmaqla qazılmış nöqtələrlə ayrılmış, sonra onların araları birləşdirilərək xəttə çevrilmiş və içərisi sürtülüb hamarlanmışdır. Öküz rəsmlərinin bu cür texnika ilə çəkildiyini Ovçular mağarasında, qazıntı zamanı tapılmış daş üzərində və 159 saylı daş üzərində yarımçıq öküz təsvirlərində də müşahidə etmək olar. Qobustan rəssamlarının belə ustalıqla təsvirlər yarada bilmələrindən görünür ki, onlar bu heyvanı uzun müddət müşahidə edə bilmiş, ovladıqları heyvanların yerişinə, duruşuna yaxından bələd olmuşlar.

Qədim Qobustan əhalisinin heyvanların həyatına, onların xassələrinə yaxından bələd olmaları Yazılıtəpədə 9 saylı daşdakı nəhəng maral, 42 saylı daşdakı Şir, Böyükdaş dağının yuxarı səki sahəsində 42 saylı daşda öküz, 168 saylı daşda at, 7 və 23 saylı daşda öküz, 259 saylı daşlarda tülkü və s. heyvan təsvirlərinin dinamikliyi və rəsmlərdəki kompozisiyalı səhnələr aydın göstərir.

Qobustanda heyvan təsvirlərinin ən çoxu keçi rəsmləridir. Onlar əsasən Yazılıtəpədə, Böyükdaşda dağın aşağı düzən sahəsində, Kiçikdaş dağının yenə düzən sahəsində qeydə alınmışdır. Böyükdaş və Kiçikdaş ətrafındakı ən qədim düşərgələr ətafında onlara az təsadüf olunur. Keçi təsvirləri Qobustan qayaüstü təsvirləri arasında ceyran, qaban nisbətən cavan mövzudur. Onların çoxu Yazılıtəpədə pirə qurban kimi təsvir olunmuşdur. Qobustanda keçi rəsmləri müxtəlif ölçülü, müxtəlif görünüşlüdür. Ən qədim keçi təsvirlərini İshaq Cəfərzadə IV – III minilliklərə aid etmişdir. Bu rəsmlərin hamısı yandan görünüşdə təsvir edilmişdir. Keçilərin dal ayaqlarının əyrisi real çəkilmiş, bəzən bədən ortada nazilib beli qarnına yaxınlaşır. Onlar üçün daha bir xüsusi əlamət isə döş hissəsinin irəli və keçinin təkbuynuzlu göstərilməsidir. Yalnız 45 saylı daşda çəkilmiş iri keçi qoşabuynuzlu təsvir edilmişdir, baxmayaraq ki, tapılmış sümük nümunələrinin əksəriyyəti ceyrana aiddir.

Qobustan təsvirlərində digər diqqət çəkən heyvan maraldır. İlkin axtarışlar zamanı açılan Maral təsvirlərinin ümumi sayı 100 – dən çoxdur. Onların çoxu Yazılıtəpə, Böyükdaş və Daşqışlaq sahəsində qeydə alınmışdır. Onların yandan görünən bədəni – baldır çıxıntıları, budun dolğunluğu, quyruq çıxıntısı, şaxəli buynuz aydın təsvir olunmuşdur. Yazılıtəpədə 4, 9, 13, 33, Böyükdaşda 138, Daşqışlaqda 16, 17 və s. daşlardakı maral təsvirləri buna misaldır. Arxeoloq İshaq Cəfərzadə bu təsvirləri e.ə. III – II minilliyə aid edir.

Qobustanda ceyran təsvirlərinə də rast gəlinir. Böyükdaş, Kənizə, Ceyranlar, Qayaaltı sahələrində ceyran təsvirləri müşahidə etmək mümkündür. Göstərilən ərazidəki təsvirlərin real çəkilməsi hesabına çətinliklə də olsa ceyran təsvirlərini keçi təsvirlərində seçmək olur.

Qobustanda say cəhətdən at təsvirləri də çoxluq təşkil edir. Bu rəsmlərin dörddə üç hissəsi süjetlidir. Tək çəkilmiş atların dinamik duruşu, bədən üzvlərinin ifadəsi elə verilmişdir ki onların at olmasına şübhə yeri qalmır. Qobustanda at təsvirləri müxtəlif dövrlərdə çəkilmişdir. At təsvirlərindən danışdıqda qeyd etmək lazımdır ki, bir çox tədqiqatçıların fikrincə, Azərbaycan atın ilk əhilləşdirilmə yerlərindən biridir. Eneolit dövrünə aid Əliköməktəpədən əhilləşdirilmiş at sümükləri tapılması buna sübutdur. Qobustanda nizə və üçdişli yaba ilə ov edən atlılar atı yəhərsiz mindiyi onun yalmanından tutulmuş formada təsvir edilmişdir.

Qobustan qayalarında həmçinin müxtəlif yırtıcı heyvan təsvirləri də qeydə alınıb. Bu təsvirlər də daha çox realist üslubda çəkilmişdir. Yazılıtəpədə şir təsvirlərinin mütənasibliyi heyvanın davranışını özünəməxsus səciyyədə göstərilməsi qədim ovçunun və ya ibtidai rəssamın dəqiq müşahidə bacarığını heyvan fizonomiyası, xarakterik xüsusiyyətlərini gözəl bilməsini göstərir.

Burada yırtıcı heyvan təsvirləri arasında şir təsvirləri çoxluq təşkil edir. Şirlərin başı iri, boyun hissəsi yoğun, getdikcə nazilən uzun quyruğunun ucu yumru tüklü, pəncələri iri, caynaqları, beli nazik , dişləri görünməsi ilə ağzı açıq verilmişdir. Şir təsvirlərinə əsasən Yazılıtəpədə rast gəlinir. Görünür bu ərazi vaxtıilə şirlər üçün əlverişli məskən olmuşdur. Qobustan bölgəsinin yaşlı sakinləri sonuncu dəfə XX əsrin əvvəllərində bu yerlərdə şir, bəbir görüldüyünü demişdilər. Qayalarda təsvir edilmiş başqa heyvanlar - pələng, canavar, bəbir, tülkü, pişik və it təsvirləri var.

24 a və 30 nömrəli daşlarda xallı pələng və ya bəbirin marallara hücum etməsi, səhnəsi təsvir edilib. Onlardan birincisi, Qobustanda yeganə

rəngli şəkildir. Burada xallı bəbir var gücü ilə qaçan maralı az qalır ki, arxadan tutsun, ikinci səhnədə çox kiçik ölçülü pələng və maral təsvirləri bıçağın ucu ilə cızılmış xəttlərlə təsvir edilmişlər. Bu səhnədə də həyatı, heyvanların hərəkət və xarakterlərini qədim insanların necə gözəl bilmələri əks olunur. Səhnədə pələng qabaq ayaqları üstə əyilərək qulaqlarını qabağa şəkləmiş, ağzı açıq maralın üstünə atılmaq üçün hazır vəziyyətdədir. Onun qarşısında dayanmış və çox real təsvir edilmiş maral, özünü yırtıcıdan müdafiə etmək üçün qabaq ayaqlarını irəli uzadıb başını yuxarı qaldıraraq və buynuzlarını qabağa verməklə, bütün bədəninin vəziyyəti ilə yırtıcının onun üstünə atılacağı təqdirdə ona zərər vurmağa hazır vəziyyətdə təsvir edilib. Qədim rəssam bu səhnəni elə verib ki, yaxşı-yaxşı baxıb düşünəndə hiss edirsən ki, bu səhnədə yaranmış vəziyyətdə maralın qaçmaq üçün arxaya dönməsinə itirəcəyi vaxt pələngin onun üstünə atılmasına bəs edər. Bu səhnədə maralın özünü buynuzu ilə müdafiə etməkdən başqa çarəsi yoxdur. 90 nömrəli daşda boynuna xalta keçirilmiş it başqa yırtıcının (ehtimal ki, şirin) qabağını kəsib.

Dağın aşağı səki sahəsindəki 201 a saylı daşda itin canavarı boğması səhnəsi verilib, 239 nömrəli daşda iki yırtıcı qarşı qarşıya qoyulub. Biri şir, digəri isə pişikkimilər qəbiləsindən çox iri heyvanın təsviridir. O başı və boynunun iriliyi, ayaqlarının dırnaqlı olması kimi əlamətləri ilə şiri xatırladır. Lakin quyruğu nisbətən qısa və ucu nazikdir. Bir də ki və ən əsası, ağzından qabağa heyvana görə çox iri ölçülü, dimdikvari çıxıntı uzanır və bu yırtıcıya əcayib görkəm verir. Bu daşdakı şəkillər qayada sürtmə yolu ilə çəkilmişlər.

Yazılıtəpədə 59 nömrəli daşın üstündə iki şirin keçilərə hücumu səhnəsi verilib. Bu səhnədə şirlərdən biri keçinin başından tutub. İkinci şirin qabağında başqa keçinin arxa hissəsi, dal ayaqları yuxarı olmaqla göstərilmişdir. Bu o deməkdir ki şir keçinin qabaq hissəsini artıq yemişdir. Bəs belə niyə? Axı hər hansı heyvanın dal budları daha ətlidir. Sən demə hər canlını özünəməxsus xüsusiyyəti var şirlər üçün də ovladığı heyvanı başdan yemək kimi xüsusiyyəti var. Onlar heç vaxt, deyək ki, canavar kimi ovunun budundan, qarnından yapışmır. O, əvvəl ovunun başından yapışır , başından başlayıb yeyir.

Qobustanda cəmi 4 ədəd quş təsviri qeydə alınmışdır. Onlardan biri Böyükdaş dağı, yuxarı səki sahəsində 63 saylı qaya üzərindədir. Burada təsvir olunmuş quş çox güman ki, su quşudur. Onun ayaqları, boynu və quyruğu çox uzundur. Ayağında barmaqları göstərilib. Ağzı açıqdır. Qalan üç quş şəkli dağın aşağı səki sahəsində qeydə alınıb. Onlardan ikisi öyrədilmiş

ov quşlarıdır. Biri süvarinin əlində təsvir edilib. O biri keçinin buynuzunda çəkilmişdir. Dövrü orta əsrlərdən əvvələ getmir. 4 – cü quş təsviri 330 nömrəli daşda qeydə alınıb. O çox sxematikdir. Elə bil qarşısındakı Qobustan üçün yeganə olan ağac təsvirinə tərəf uçur. Quşların heç birinin dövrünün dəqiq müəyyənləşdirmək mümkün deyil. İ.Cəfərzadə onlardan su quşunu e.ə. I minniliyə, onlardan keçinin buynuzundakı oturmuş quşu isə e.ə III – II minilliklərə aid etmişdir. Söz yox süvarinin əlindəki quş şahin tipli ov quşudur. Etnoqrafik məlumatlar göstərir ki öyrədilmiş qartalın keçinin buynuzuna oturub qanadları ilə onun gözünü örtməklə sahibinin heyvanı ovlamasına kömək etdiyi məlumdur.

Qobustanda heyvan təsvirlərinin mövzu genişliyi, onu başqa oxşar kolleksiyalar arasında üstünlüyünü təsdiq edir. Bunu xüsusi ilə qeyd etmək lazımdır. Qobustan qayaüstü təsvirlərinin bir çoxu haqda bəhs etsək də bütün bunları tam sadalamaq çətindir. Qobustanda bütün heyvan şəkilləri eyni dərəcədə çoxluq təşkil etmir. Buraya pişik, tülkü, balıq, tısbağa, hörümçək və s. heyvan və həşərat şəkillərini daxil etmək olar. Bunlardan balıq təsvirləri digərlərinə nisbətən çox və diqqət cəlb edəndir. Çünki balıq da başqa ev heyvanları ilə yanaşı ibtidai insanların həyatında eləcədə sonrakı dövrlərdə də məişətdə mühüm rol oynamışdır. Qobustanda 6 ədəd balıq təsviri qeydə alınıb. Onlardan 4 Böyükdaş dağı yuxarı səki sahəsinin 104-105 saylı daşlarında (hərəsində 2 balıq), biri Kiçikdaş dağı 49 saylı daşın aşağı hissəsində ceyranlar düşərgəsində qazıntı nəticəsində mədəni təpənin altı səviyyəsində, biri isə Qayaaltı kolleksiyasının 5 saylı daşında aşkar edilmişdir. Balıq şəkillərinin hamısı xarici görünüşcə bədən quruluşunun əlamətlərinə görə nərə balığı cinsindəndir. Hamısında burun hissə küt verilmiş, quyruq üzgəclərindən üstəkiləri xeyli uzundur. 2 balığın (104-105) saylı daşlar arxa hissəsi, 49 saylı daşda isə başı silinmiş, saxlanılmamışdır. Hər üçü nisbətən kiçik ölçülüdür. Onların uzunluqları qalmış hissədə 50 sm-ə qədərdir. Qalan 3 bütöv balıq şəklində 104 saylı daşdakının uzunluğu 115 sm, 105 saylı daşdakınınkı 150 sm, Qayaaltı kolleksiyasındakı 5 saylı daşdakı balıq şəklin uzunluğu isə 430 sm-dir. Ehtimal olunur ki, sonuncu balıq bölgə balığıdır. Qalan 2 iri ölçülü balıqlar da bəlkə bölgədir. Hər halda hər 3 nərə cinsli balıqlardır. Belə çıxır ki, qədim Qobustanda daha çox nərə ovlayıblar. Hal halda Ana zağada çox iri nərə balığının üzgəcinin qalıqları tapılmışdır. Nərə balığından başqa sümük olmadığını nəzərə alsaq bu fikrin doğru olduğunu söyləyə bilərik.

104 saylı daşdakı balıq şəkli bir növ ovlanma vəziyyətində çəkilmişdir. Qobustanda yuxarı səki sahəsi üzrə 33 və 35, aşağı səki üzrə isə 9 saylı

daşda tor şəkilləri var və çox güman ki, balıqçı torlarıdır. Qazıntılar zamanı çay daşından iki tərəfindən deşik açılmış balıqçılıq toru üçün ağırlıq daşı kimi işlədilmiş çoxlu nümunələr tapılmışdır. Bütün bunlar qədim Qobustanda balıqçılığın əsas həyat mənbələrindən olduğunu göstərir. Qədim Qobustanlılar balıqla yanaşı dənizdə suiti, su tısbağası da ovlamışlar. Qazıntılar zamanı Ana zağadan suiti sümüyü də aşkar edilmişdir. Aşağı səki sahəsində çoxlu qayıq şəkilləri ilə yanaşı qarmağa düşmüş tısbağa təsvirləri də vardır. Bu baxımdan Qobustan qayalarındakı qayıq təsvirlərinin çoxluğu da qədim qobustanlıların təsərrüfatında balıqçılığın nə qədər geniş inkişaf etdiyinə sübutdur.

Göründüyü kimi, Qobustanın əlverişli təbii-coğrafi şəraiti burada müxtəlif növ vəhşi və yırtıcı heyvanları geniş yayılmasına səbəb olmuşdur. Şübhəsiz, onların böyük qismi ibtidai icma cəmiyyətlərin ilkin iqtisadiyyatının əsasını təşkil etmişdir.

## ƏDƏBİYYAT

1. Ъяфярзадя И.М. Гобустан гайаларында тясвирляр. // Азярбайъан Тарихи Музейинин ясярляри, ЫЫ ъилд, Бакы, 1957.
2. Джафарзаде И.М. Наскальные изображения Гобустана. Сборник статей. - Археологические исследования Азербайджана. Баку, 1965.
3. Джафарзаде И.М. Гобустан. – Наскальные изображения. Баку, 1973.
4. Мурадова Ф.М. Гобустан тунъ дюврцндя. Бакы, 1979.
5. Рцстямов Ъ.Н. Гобустан дцнйасы. Бакы, 1994.
6. Рустамов Дж.Н. Гобустан – очаг древней культуры Азербайджана. Баку, 2000.
7. Рцстямов Ъ.Н., Мурадова Ф.М. Гобустанын петроглифляри. Бакы, 2003.
8. Мурадова Ф.М. Наскальные рисунки Гобустана. Журн. Ирс-Наследие. Баку-Москва, 2006, № 6.
9. Алиев В.Г. Петроглифы Гемигайа. Баку, 1985.
10. Ялийев В.Щ. Эямигайа абидяляри. Бакы, 1993.
11. Museyibli N.Ə. Gəmiqaya. Bakı, 2004.
12. Исмаилзаде Г.С. Исследование наскальных изображений в верховьях р. Тертер. АО, 1976, Москва, 1977.
13. Исмаилзаде Г.С. Петроглифы Азербайджана как составная часть древнейшего искусства Евразии. Сб. Кавказ в контексте всемирной истории. Тбилиси, 1996.
14. Исмаилзаде Г.С. Шедевры наскального искусства Азербайджана. Журнал Мирас. Ашхабад, 2008, № 1.

15. Исмаилзаде Г.С.Историко-художественный музей под открытом небом. Журнал Ирс-Наследие. Баку, 2008, № 6.
16. Фараджева М.Н К вопросу датироваки наскальных изображений археологического комплекса Гобустан. Журн. Ирс-Наследие. Баку-Москва, 2008, № 6, с. 34-44.
17. Фараджева М.Н. Наскальное искусство Азербайджана. Баку, 2009.
18. Fərəcova M.N. Azərbaycan qayaüstü incəsənəti. Bakı, 2009.

## ANIMAL WORLD OF GOBUSTAN IN PETROGLYPHS IMAGES

***Elnur Imanov***

***Summary***

**Keywords: Gobustan, petroglyphs, rocks, shelter, hunt, bull, deer, goat.**

Ancient petroglyphs reflected domestic life, household, culture, and arts of the past take the essential place among the archaeological monuments. Amounts of hearth of an ancient petroglyphys were revealed in Azerbaijan. Significant place is Gobustan, where detected thousand ancients petroglyphs. In these monuments there are represented creation of inhabitants and wealthy of animal world. Particular animal world, expressed in petroglyphs such as bull, goat, deer, leopard, lion, ect, ares confirmed as the wealth fauna of Gobustan.

## ЖИВОТНЫЙ МИР ГОБУСТАНА В НАСКАЛЬНЫХ ИЗОБРАЖЕНИЯХ

***Эльнур Иманов***

***Резюме***

**Ключевые слова: Гобу, изображения, скала, убежище, охота, бык, олень, коза**

Среди археологических памятников особое место занимают древние наскальные изображения, отражающие быт, хозяйство, культуру и искусство прошлого. На территории Азербайджана выявлено несколько очагов древних наскальных изображений. Среди них особое место занимает Гобустан, где зафиксировано десятки тысяч древних изображений. В них отразилась деятельность древних обитателей местности и богатый животный мир. Животный мир в частности, выражен в изображениях быка, козы, оленя, кабана, леопарда, льва, лошади и т.д., которые подтверждают богатую фауну Гоустана.

# QOBUSTAN QAYAÜSTÜ İNCƏSƏNƏTİNDƏ MARAL TƏSVİRLƏRİ

**İlahə Xantəmirova**
**ilaha5@mail.ru**
(Milli Azərbaycan Tarixi Muzeyi)

**Açar sözlər: qayüstü təsvirlər, maral, incəsənət, Qobustan, İshaq Cəfərzadə, Cəfərqulu Rüstəmov**

Qayaüstü incəsənət dedikdə dünya incəsənətinin ən qədim və zəngin nümunəsi başa düşülür. Uzun bir tarixi dövr keçmiş qayaüstü nümunələr qədim tarixi öyrənmək üçün ən yaxşı vasitələrdən hesab olunur.

Dünya arxeologiyasında qayaüstü incəsənət dedikdə təbii daşlar üzərində insanlar tərəfindən həkk edilən təsvirlər nəzərdə tutulur. Buna həm də parietal incəsənət deyilir. Belə incəsənət işinin iki forması var: petroqlif - qayanın içinə oyma üsulu ilə naxışların təsviri. Belə təsvirlər yalnız oyma deyil, cızma, həkketmə, zərbə üsulları da ola bilərdi. Bu söz yunan sözü olub, petro – daş və glyhein –oymaq sözlərinin birləşməsindən meydana gəlmişdir. Bundan fərqli olaraq isə piktogram – qaya üzərində boya ilə rəsmlərin çəkilməsinə deyilirdi.

Qayaüstü təsvirlərin çəkilmə səbəblərinə gəldikdə isə bu haqda fikirlər müxtəlifdir. Alimlər hesab edir ki, bu ibtidai incəsənət növü qədim insanların dini inancları ilə bağlı yarana bilərdi. Məlumdur ki, qədim insanlar hələ çox dünya sirlərindən xəbərsiz idilər. Onlar dünyada baş verən bir çox hadisələri anlaya bilmir və çox vaxt təbiət qüvvələri qarşısında aciz qalırdılar. Bəzi alimlərin fikrincə qayaüstü incəsənət elə bununla bağlı yaranmışdır. Təsir edə bilmədikləri və ya etməkdə çətinlik çəkdikləri varlıqların rəsmlərini qayalar üzərində həkk edərək sanki bu təsvirlərə sehrkar məna verirdilər. Məsələn, ovçular ova çıxmazdan əvvəl ovlayacaqları heyvanın rəsmini öz təbii ölçüsündə qaya üzərinə həkk edir, sonra elə qaya üzərindəcə sanki onu ovlayırdılar. Və onların inancına görə qaya üzərindəki heyvan təsvirinin vurulması ovun həqiqətdə də uğurlu keçəcəyinə işarə imiş. Qeyd etmək lazımdır ki, bu inam daha ilkin dövrlərə aid edilmişdir. Qayaüstü təsvirlərin yalnız heyvan rəsmləri ilə bitmədiyini, yəni burada gəmi, insan, yazı, simvol təsvirlərinə də rast gəlindiyini nəzərə alsaq bu fikrin bütün təsvirlər üçün keçərli olmadığını görə bilərik. Belə ki, qədim insan gündəlik həyatda gördükləri hadisələri, canlıları, əşyaları da qayalar üzərində həkk edirdi. Bu təsvir-

lər vasitəsilə biz onların gündəlik həyat tərzi haqqında məlumat əldə etməklə yanaşı həm də qədim insanın ibtidai rəssamlıqla da məşğul olduğunu müəyyənləşdiririk. Qeyd etmək lazımdır ki, bir çox rəsmlər o qədər aydın və gözəl təsvir olunmuşdur ki, bu rəsmlərin ibtidai rəssam tərəfindən çəkildiyinə belə inanmaq çətindir.

Qayaüstü təsvirlər ilk dəfə XIX əsrin ortalarından elmə məlum olmuşdur. Daş üzərində qədim şəklə ilk dəfə K. Qrevink 1848-ci ildə Oneqa gölü sahilində rast gəlmişdir. Palitra tipli qədim rəngli şəkil isə keçən əsrin 70-ci illərində İspaniyada Altamira kəndi yaxınlığındakı Altamira mağarasında tapılmışdır.

Ən qədim qayaüstü təsvir Üst Paleolit dövrünə aiddir ki, bunlara Avropa, Avstraliya və Afrikada rast gəlinmişdir. Dünyada belə təsvirlərdən Fransada Çauvet və Laskauks, İspaniyada Altamira, Argentinada Çueva de las Manos və başqa mağaralardakı təsvirləri göstərmək olar. Bu mağaralarda qayaüstü mağara təsvirləri primitiv olmamışdır. Belə qayaüstü təsvirlər çəkilərkən çox vaxt heyrətamiz rəng çalarlarından istifadə edilirdi. Qədim insanların belə heyrətamiz əl işləri bizdə bugün də maraq və heyrət doğurur.

Bundan başqa Uralda Kap mağarasında, Kareliyada Oneqa gölü ətrafında, Orta Asiyada, Afrikada – Əlcəzair və Liviyada, Skandinaviyada, Sibirdə Anqarada qədim qayaüstü təsvirlərə rast gəlmək olar.

Azərbaycan da qayaüstü incəsənət nümunələri ilə zəngin ölkədir. Azərbaycanın bir çox bölgələrində belə nümunələrə rast gəlmək olar. Bunlara misal olaraq Qobustan qayaüstü təsvirlərini, Naxçıvanda Gəmiqaya təsvirlərini, Abşeron və Kəlbəcərdəki təsvirləri göstərmək olar.

Azərbaycanda isə ilk qayaüstü təsvirlər Qobustanda, 1969-cu ildə Abşeron yarımadasında, 1970-ci ildə Kəlbəcər rayonunda, Naxçıvanda Gəmiqayada, son illərdə isə Cənubi Azərbaycanda –Qaradağ bölgəsində aşkar edilib öyrənilmişdir.

Azərbaycanda qayaüstü təsvirlərin tədqiqi ilə İshaq Cəfərzadə, Cəfərqulu Rüstəmov, Qüdrət İsmayılzadə, Qardaşxan Aslanov, Vəli Əliyev kimi arxeoloqlar məşğul olmuşlar.

Bunlar arasında qədimliyinə və böyüklüyünə görə əsas yeri Qobustan qayaüstü təsvirləri tutur. Qobustan təpəli dağlıq ərazidir. Böyük Qafqaz sıra dağlarının cənub-şərq qurtaracağında, Ceyrankeçməz çayı hövzəsinin orta və aşağı hissəsində yerləşir. Pirsaat çayı və Abşeron yarımadası ilə həmsərhəddir. Şimalda Sumqayıt çayı, cənubda isə Qaradağ və Ələt dəmiryol stansiyaları ilə əhatələnib. Qobustan Xəzər sahilində yerləşdiyi üçün çox da-

ğıntıya məruz qalmışdır. Bu da onun ərazisində çoxlu sayda çökəklikərin yaranmasına səbəb olmuşdur. Elə Qobustan sözü də buradan meydana gəlmişdir.

Qobustanda qayaüstü təsvirlər ilk dəfə 1939 -40-cı illərdə Bakının 60-70 km-də Sanqaçal-Duvannı dəmiryol stansiyası yaxınlığında Böyükdaş, Kiçikdaş və Cingirdağ-Yazılıtəpədə aşkar edilmişdir. Müharibənin başlaması ilə əlaqədar abidənin öyrənilməsi işi təxirə salınmışdır. Qayaüstü təsvirlərin sistematik öyrənilməsinə isə 1947-ci ildə başlanılmışdır. On minə qədər qayadan 750-nin üzərində müəyyən təsvirlər var. Ümumilikdə 3500-ə qədər təsvir üzə çıxarılıb. Bu təsvirlər əsasən qaya üzərinə oyma, döymə, sürtmə, çapma, cızma üsulu ilə təsvir edilmişdir. Şəkillərin kontur xətlərinin dərinliyi 1-dən 30 mm-ə qədərdir. Güclə görünən təsvirlər də olmuş lakin əsrlər boyunca onlar silinmişdir. Siluet şəkillər 2-10 mm-ə qədər oyulmuşdur. Burada 20-30 mm dərinliyə qədər yonulan insan təsvirlərinə də rast gəlinir. Qobustan qayaüstü təsvirləri 15-20 minillik bir dövrü əhatə edir.

Qobustan qayaüstü təsvirlərin tədqiqi ilə əsasən İshaq Cəfərzadə, Cəfərqulu Rüstəmov və Firuzə Muradova məşğul olmuşlar.

Qobustan təsvirləri içində çoxlu sayda qadın və kişi təsvirləri, vəhşi öküz, keçi, maral, şir, ceyran, vəhşi at, it, canavar, donuz və formaca məlum olmayan heyvan rəsmlərinə rast gəlmək olar. Həmçinin, burada ikitəkərli araba, böyük ölçülü balıq təsvirləri, insan ayaq izlərinin təsvirləri, silahlı döyüşçü, dəvə karvanları, həmçinin ərəb əlifbası ilə yazılmış yazılara da rast gəlinir ki, bu da Azərbaycanın Orta əsrlər tarixinə aid edilir. Burada ilan, kərtənkələ, günəş, ulduz, svastika və başqa simvollara da rast gəlinmişdir. Həmçinin XII Roma legionunun burada olması haqqında da yazılı məlumat var.

Qədim qayaüstü təsvirlərin ovçuluq əməlləri olmasının tərəfdarları hesab edirlər ki, qayalar üzərində heyvan şəkilləri ovçular tərəfindən ov edəcəyi heyvanı ovlamaq, ovun uğurlu olması məqsədilə çəkilirdi. Əgər bunu nəzərə alsaq və nəzərə alsaq ki, Qobustandakı şəkillərin çoxu öküz və maral təsviridir, belə bir fikir yarana bilər ki, burada ən çox ovlanan heyvan maral və öküz olmuşdur. Lakin, burada aparılan arxeoloji tədqiqatlar zamanı aşkar edilmişdir ki, Qobustanda maral ovlanmamışdır. Qazıntılar nəticəsində on minlərlə sümük qalığı içərisində maral sümüyü tapılmamışdır. Yalnız maral buynuzundan hazırlanmış əşya və alətlər aşkar edilmişdir. İshaq Cəfərzadə və Cəfərqulu Rüstəmovun tədqiqatlarına əsasən müəyyən edilmişdir ki, maral təsvirləri daha çox sonuncu minilliklərə aid olmuşdur. Bu mini--lliklərdə isə Qobustanın təbii şəraiti elə indiki kimi olmuşdur. Məlumdur ki,

belə şoran, səhra, meşəsiz yerlər maralın yaşaması üçün münasib deyildir. Elə buna görə də Cəfərqulu Rüstəmov maralın qədim insanların təsəvvürlərində totem heyvan və gözəllik rəmzi olmasını qeyd etmişdir. Qobustan rəsmləri ovsun deyil, real həyatın rəmzi olmuşdur. Maral rəsmi gözəllik rəmzi kimi qayalar üzərinə təsvir edilmişdir.

Maral təsvirləri nəinki Azərbaycanda, eləcə də bütün dünya qayaüstü incəsənətində mühüm yer tutmaqdadır. Ümumiyyətlə maral qədim dövrlərdən insanların ovladığı əsas heyvan olmuşdur. Bundan əlavə maralın həm də simvolik mənası da məlumdur. Öz incəliyi, gözəlliyi ilə qədimdən əcdadlarımızın diqqətini cəlb etmişdir. Öz zərif görkəminə görə maral qədim Kelt əfsanələrində incəsənət, ədəbiyyat və musiqi ilə əlaqələndirilirdi. Həmçinin keltlər maralların pərilərlə əlaqəsi olduğuna və pəri qoşunlarına rəhbərlik etdiklərinə inanırdılar. Qədim Çinlilərə görə isə maral gözəllik, gözəl tale simvolu idi. Ümumiyyətlə isə maral sevgi, gözəllik, incəlik, sülh, məhsuldarlıq simvolu hesab olunurdu.

Lakin nəzərə alsaq ki, Qobustanda maral təsvirləri həm tək, həm də ovlanan vəziyyətdə təsvir olunmuşdur buradan belə nəticə çıxara bilərik ki, insanların ola bilsin ki, maral ovu haqqında məlumatları olmuş, ya da əvvəlki dövrlərdə maral ovu ilə məşğul olmuşlar.

Maral təsvirləri Qobustanda diqqəti cəlb edən və göz oxşayan təsvirlərdəndir. Maral təsvirlərinin ümumi sayı 100-dən çoxdur. Onların çoxu Yazılıtəpə, Böyükdaş dağı və Daşqışlaq sahəsində qeydə alınmışdır. Maral təsvirlərinin çoxu yarıreal, lakin mütənasib və sxematik şəkillərdir.

Maral təsvirlərindən 10-dan çoxunda ov səhnəsi təsvir olunmuşdur. Bu səhnədə marallar nizə, üçdişli yaba və yay-oxla ovlanırdılar. Belə ki, buradakı ən qədim təsvirləri e.ə IV-III minilliyə, bir qədər sonrakı təsvirləri isə e.ə II-I minilliyə aid etmək olar.

Maral təsvirləri dövrünə, formasına və çəkildiyi əraziyə görə bir-birindən fərqlidir.

İri maral təsvirlərinə əsasən Cingirdağda Yazılı təpəsində rast gəlinir və bunlar daha qədim dövrə aiddir.

Eneolitin ilk dövründə və e.ə. IV-III minilliklərdə maral təsvirləri daha böyük ölçüdə və profildən oyulmuşdur. Təsvirlər ölçülər baxımından nöqsansızdır. Maral təsvirləri çox vaxt bədəni güclü və düzgün, sinəsi enli, səlis şəkildə irəli hərəkət edən formada əks olunmuşdur. Gözəl, incə boyun və bəzi hallarda əyilmiş şəkildə, böyük buynuz ön hissədən təsvir edilmişdir. Təsvir xəttləri səliqəliliyi və dəqiqliyi ilə seçilir.

Bəzən düz xətlərlə çəkilmiş maral təsvirlərində korlanmaya, zədələrə rast gəlinir. Belə xətlər bəzən gövdəni parçalayır. Bəzən baş, bəzən isə başqa hissə parçalanmış şəkildə təsvir olunurdu. Bir qədər erkən dövrün rəsmlərində xətlər nalşəkilli dairə formasındadır və zərbə izlərini xatırladır. Belə zərbə izləri bellə vurula bilərdi və ola bilsin ki, çox zaman bunlar magik xarakter daşıyaraq uğurlu ovu xarakterizə edirdi. Belə zədələrə öküz təsvirlərində çox rast gəlinir. Maral təsvirlərində isə nisbətən azdır.

Dəmir dövründə - e.ə. II-I minilliklərdə qayaüstü təsvirlərin ölçüləri kiçilməyə başlayır. Maral təsvirləri Qobustanda daha zəngindir. İshaq Cəfərzadənin tədqiqatlarına əsasən deyə bilərik ki, burada daşların bəzilərində Cingirdağda Yazılıtəpədə 4, 9, 13, 14, 24, 33, 66, 92, 100, 134 nömrəli daşlarda, Böyükdaşda 22, 34, 59, 101, 103, 118 nömrəli, Böyükdaşın aşağı terrasında isə 151 nömrəli daşda maral təsvirlərinə rast gəlinir. Bu təsvirlər bir-birlərindən həm formasına həm də yaşına görə fərqlənir. Maral bu təsvirlərin bəzisində tək, bəzisində ovlanan formada təsvir olunmuşdur.

Maral təsvirlərini analiz etsək daha qədim dövrə aid olanlar daha iri ölçülü və real təsvir edildiyini zaman keçdikcə təsvirlərin primitivləşdiyi müşahidə olunur.

Bununla yanaşı Qobustandakı bütün daşları müqayisə etsək görərik ki, maral təsvirlərinin ən qədimləri Cingirdağ-Yazılıtəpədə təsvir olunmuşdur. Bunlar əsasən e.ə. IV-III minilliklərə aidir. Nə qədər qədim olmasına baxmayaraq bu rəsmləri öz dövrünün şedevri hesab etmək olar. Bu şəkillər o qədər təbii təsvir olunub ki, sanki canlıdırlar və sanki indicə hərəkət edəcəklər. Bu təsvirlər Erkən və Orta Tunc dövrü insanlarının rəssamlıq qabiliyyətinə malik olduğunun bariz göstəricisidir. İshaq Cəfərzadənin tədqiqatlarına əsasən rəsmlərə nəzər yetirək. Qeyd etdiyimiz kimi, Qobustanda ən qədim maral təsvirlərinə Cingirdağ –Yazılıtəpədə rast gəlinir. Burada həm tək maral, həm də maralın ovlanma səhnəsi təsvir olunmuşdur. Diqqət yetirdikdə daha qədim şəkillərin daha mükəmməl, sonrakı dövrdə çəkilən rəsmlərin isə o qədər də mükəmməl olmadığı müşahidə edilir. İshaq Cəfərzadə bu rəsmlərin hamısını ayrılıqda təhlil etmişdir.

**Daş 4, şəkil 1** : Maral daşın yuxarı mərkəz hissəsində, demək olar ki, öz təbii ölçüsündə təsvir edilib. Uzunluğu 165 sm, çiyninin hündürlüyü 110 sm, buynuzları arasındakı məsafə 187 sm-dir. Şəklin xətləri güclə görünür. Xətlərin dərinliyi 1-2 mm, eni isə 10-15 mm-dir. Şəkil çətinliklə, daşın üzərini şibyə otlarından təmizlədikdən sonra üzə çıxmışdır. Heyvan qaçan for-

mada, sağ istiqamətə, profildən təsvir edilmişdir. Maralın fiqurası dinamik, plastikdir, bədənin proporsiyası möhkəmdir. Şəklin xəttləri aydındır.

Maralın boynu incə, yuxarı qalxmış vəziyyətdədir və anfas vəziyyətdə olan buynuz birləşib. Baş kiçikdir və üzün son hissəsi bir qədər ikiləşmiş vəziyyətdədir. Boğazın altında çıxıntı var, ola bilər ki saqqaldır. Sinəsi irəli çıxmış vəziyyətdədir. Ön ayaqlarının dirsəyi və arxa ayaqlarda topuqlar aydın nəzərə çarpır. Cingirdağ və Yazılı təpələrində olan heyvan təsvirləri üçün təsadüfi olmasına baxmayaraq bunun kişi cinsinə aid olduğunu açıq görmək olar. Quyruq çox qısa olub bir qədər yuxarı qalxmış vəziyyətdədir. Sözsüz ki, öz dövrünün şedevri olan əsər maralın təkcə təbiətini deyil, həm də xasiyyətini gözəl bilən insan tərəfindən çəkilib. Aydınlığına,çəkilməsinə, şəklin ölçüsünə görə rəsmi e.ə. IV-III minilliklərə aid etmək olar **(şəkil 1)**.

**Daş 9: şəkil: 1.** Dayanaraq sanki nəyisə dinləyən maral silueti təsvir olunub. Rəsm profildəndir və sağ tərəfə əks olunub. Gövdənin iriliyinə baxmayaraq həm də zərif təsir bağışlayır. Boynu zərif şəkildə qalxmış vəziyyətdədir, başı düz şəkildə təsvir edilib, ağzı bir qədər açıqdır, üst dodağı aydın təsvir olunub. Buynuzu şaxəlidir. Çiynində böyük çıxıntı var ki, bu da onun köklüyünün göstəricisidir. Quyruğu qısadır. Ayaqları aralanmış vəziyyətdədir. Rəsmi qədim dövrün şah əsəri hesab etmək olar. E.ə IV-III minilliklərə aid etmək olar **(şəkil 2)**.

**Daş 33, şəki l:**. Sol istiqamət doğru dayanmış vəziyyətdə, sol istiqamətdə, profildən, sanki nəyisə dinləyən formada əks olunan maral şəkli daşın yuxarı cənub hissəsində təsvir edilib. Bədən quruluşu mütənasib, gövdəsi həcmlidir. Boynu qalın və yuxarı qalxmış vəziyyətdədir. Buynuzu anfasdan çəkilərək darağı xatırladır və horizantaldır. Quyruğu kiçik və kök olub horizontal formadadır. Sinənin aşağı hissəsi çıxıntılı şəkildədir. Ayaqlar gövdəyə perpendikulyar formadadır. E.ə. III-II minilliyə aid edilə bilər **(şəkil 3)**.

**Daş 66, şəkil 1:** Maral təsviri sanki nəyisə dinləyən şəkildə təsvir olunub. Dayanmış vəziyyətdə, profildən, sol istiqamətdədir. Bədən quruluşu aydın və canlı təsvir olunub, plastikdir. Gözəl boynu hündürə qalxmış, başı düz, ağzı açılı, geniş sinəsi irəli çıxmış vəziyyətdə təsvir olunub. Gövdəsi ortada bir qədər incəlir. Omba dairəvi formadadır. Quyruq qısa, kök və vertikal, arxa ayaqları bir-birinə birləşmiş şəkildədir. Şəklin xəttləri aydındır. Rəsm çox gözəl təsvir olunub və öz dövrünün şah əsəri sayıla bilər. Təxminən e.ə III minilliyə aiddir **(şəkil 4).**

**Daş 66, şəkil 2:** Real şəkldə təsvir olunmuş maral sanki qaçışdan son-

ra dayanıb. Bunu maralın ayaqları və ombasının forması sübut edir. Bədən quruluşu aydın təsvir olunub. İncə boynu arxaya çevrilmiş şəkildədir. Başı kiçikdir və boyundan demək olar ki, ayrılmayıb. Böyük şaxəli buynuzu yarıanfas vəziyyətdədir. Qarnı yuxarıya doğru incəlmiş şəkildədir. Təsvirin xətləri aydın şəkildədir. E.ə. III minillin sonlarına aid edilir **(şəkil 5).**

**Daş 92, şəkil 1,2,3:** Boynu incə, irəliyə doğru buynuzu şaxəli və çıxıntılı və şaxəli olan maral qaçan şəkildə təsvir olunub. Sinəsi geniş və həcmlidir və irəliyə çıxmış şəkildədir. Gövdəsi aşağı hissədən yuxarıya doğru incəlmiş şəkildədir. Omba dairəvi şəkildədir. Quyruq qısa, kök, qalxmış şəkildədir. Ön və arxa ayaqlarında dirsək aydın təsvir edilib. E.ə. III minilliyin ortalarına aiddir.

Onun ön tərəfindəki rəsm dayanmış şəkildə, profildən, sağ istiqamətə yönəlib. Şəkil tam çəkilməyib. Çiyni üzərində çıxıntı var ki, bu da onun köklüyünə dəlalət edir. Ayaqlarından biri və quyruq təsvir edilməyib. Ön ayağı bədənə perpendikulyar şəkildə birləşib. Boynu genişdir, qalxmış vəziyyətdə, başı kiçikdir. Buynuzu orta ölçülü, şaxələnmiş şəkildədir. Buynuzda üç çıxıntı var. E.ə. III minilliyin sonlarına aiddir.

Üçüncü şəkildəki maral isə kobud şəkildə təsvir olunmuşdur. Sol tərəfə istiqamətlənib, profildəndir, dayanmış vəziyyətdədir. Buynuz qalxmış vəziyyətdədir. Başı maili şəkildə çəkilmiş xəttlə təsvir edilib. Gövdəsi uzun formadadır. Quyruğu iki qısa xətlə göstərilib. Omba dairəvi şəkildədir. Ayaqları bədənə perpendikulyar şəkildə birləşib. Bizim eraya aid edilir **(şəkil6).**

Qeyd etdiyimiz kimi Cingirdağda maral yalnız gözəllik rəmzi kimi deyil, həm də ov ovlayan zaman təsvir olunmuşdur.

**Daş 9:** Daşın yuxarı sağ hissəsində atlının maralı ovlaması səhnəsi təsvir olunub.

Dəqiq tədqiqatlara əsasən müəyyənləşdirilmişdir ki, burada ilk öncə böyük maral təsvir olunmuşdur. Maral demək olar ki, öz təbii ölçüsündə – uzunluğu 110 sm, çiyin hündürlüyü 88 sm. Kontur xəttinin eni 3-5 sm, dərinliyi 3 sm-dir. Rəsm mükəmməlliyi, plastikliyi, dinamikliyi ilə ilkin mədəniyyətin ən yaxşı təsvirinə aid edilə bilər. Heyvanın gövdəsi güclüdür və ortadan naziklәşmiş şəkildədir. Gözəl boynu boğazının altında azacıq saqqalı başına birləşir. Buynuzları arasındakı məsafə 140 sm-dir. Sinəsi enli olub sanki irəliyə çıxıntılı şəkildədir. On ayaqlarında dirsək oynağı, arxa ayaqlarında isə daban aydın nəzərə çarpır. Heyvanın fiqurası düzgün proporsiyaya malikdir. Şəkli xarakterinə, stil və həkk etmə texnikasına görə e.ə IV-III minilliyə aid etmək olar. Təsvir olunduğu kimi boğazına yaba istiqa-

mətlənib. Atlı maralı təqib edir. Atlının qalxmış əlində nizə var. Nizənin tutacaq hissəsinin sonu 8 hissəyə ayrılan dördbucaqlıya birləşir. Bunu səma kimi simvolizə etmək olar. Ovçu at üzərində yəhərsiz oturub. Yüyən sonradan təsvir olunub çünki atlı atın saçından tutub. Yüyən atın sinəsinə düşür bu da onun istifadəsinin yararsızlığını göstərir. Atlının ayağında sarğı var. Çox güman ki, bu çəkmədir. Atlı rəsmi isə e.ə. II minilliyə aid edilir **(şəkil 7).**

**Daş 100, şəkil 1,2:** Bu şəkildə atlının maralı ovlaması təsvir olunub. Şəkil zəif xətlə çəkilib. Atlı təsviri kobuddur, profildən sol istiqamətə təsvir olunub. At üzərində çiyinə yaxın əyləşib və at yəhərsizdir. Atlının bir ayağı təsvir olunub. Bir əlində yaba, sağ əli ilə isə atın yalından tutub. Yuxarı qaldırılmış şəkildə hücum edən formada təsvir olunub. Atın bədəni uzundur. Qarşıda isə qaçan formada maral təsvir olunub. Boynu yuxarı qalxmış , yuxarı qalxdıqca daralmış vəziyyətdədir. Göz və ağız hissə açıq təsvir olunub. Buynuzu böyük və şaxələnmiş vəziyyətdədir. Gövdəsi uzundur. Omba dairəvi şəkildədir. Quyruğu qısadır. Gövdənin ön hissəsi və sinəsi dalğalı və düz xətlərlə kəsilib. Maralın sinəsində və belində işarə var . Bununla ibtidai rəssam yəqin ki, qan damcılarını təsvir etmək istəyib. E.ə. II minilliyin ortalarına aid edilir **(şəkil 8).**

**Daş 134, şəkil 1:** Qədim rəssam ov səhnəsini çox aydın və bütün hərəkətlərini dəqiqliklə təsvir edə bilib. Şəkil profildən sol istiqamətə təsvir olunub. Ovçu at üzərində yəhərsiz oturub. Hər iki ayağı bir tərəfdən təsvir olunub. Bir əli ilə atın yalından tutub, digərini isə yuxarı qaldırıb.Maral ovçudan qaçan vəziyyətdə təsvir olunub. Maralın və atın ombası dairəvi formadadır. Maral və atın sinəsindən görünür ki, irəli hərəkət edirlər. Qulaqları aydın təsvir edilib. Maralın quyruğu qısadır və iki qısa xətt formasında təsvir edilib. Ov səhnəsi təxminən e.ə. III-II minilliyə aid edilir **(şəkil 9).**

Rəsmlərdən də göründüyü kimi bu şəkillər aydın, hətta həqiqi rəssam tərəfindən çəkilmiş kimi canlı rəsmlərdir. Amma eramızdan əvvəl sonuncu minilliklər və bizim erada şəkilən şəkillərə diqqət yetirsək bu şəkillərin daha kiçik ölçülü və tələsik və o qədər də gözəl olmadığını görə bilərik.

**Daş 4, şəkil 2:** İkinci şəkil profildən, dayanmış vəziyyətdə, sağ tərəfə doğru həkk olunub. Lakin bu iş kobuddur və savadsızdır. Bədəni gərilmiş vəziyyətdədir, bud hissəsi uzadılmış olduğu üçün heyvan arıq görünür. Buynuzu heyvanın üzünün son hissəsində təsvir edilib. Çiyni vertikal xətlə kəsilir. Şəkil e.ə. I minilliyin ortalarına ya da bir qədər sonrakı dövrə aid edilə bilər **(şəkil 10).**

**Daş 13, şəkil 41, 42:** 41-ci şəkildə gəzən maral təsvir olunub. Profildəndir. Sağ istiqamətə təsvir olunub. Gövdə həcmlidir, boynu yuxarı qalxmış vəziyyətdədir. Başı kiçik ölçülüdür. Buynuz yuxarı qalxmış vəziyyətdə çəngəlşəkillidir. Çıxıntıları sol tərəfədir. Sağrı hissə dairəvi formada, bir qədər yuxarı qalxmış vəziyyətdədir. E.ə. I əsrə aid edilir.






Şəkil 1 Şəkil 2 Şəkil 3






Şəkil 4 Şəkil 5 Şəkil 6





Şəkil 7 Şəkil 8 Şəkil 9

42-ci şəkildə təsvir olunmuş maralın gövdəsi uzundur. Dayanmış vəziyyətdə, profildən, sol istiqamətə təsvir olunub. Boğazı irəli uzadılmış şəkildədir. Başı çox kiçik, buynuzu yuxarı qalxmış vəziyyətdə və çəngəlşəkillidir. Quyruğu qısadır. Ayaqları bədənə perpendikulyar şəkildə birləşib. Gövdə və boyunun nazik hissəsində vertikal xəttlər çəkilib. E.ə. I minilliyin ortalarına aiddir **(şəkil 11, 12).**

**Daş 14, şəkil 6:** Dayanmış vəziyyətdə olan maralın silueti çəkilib. Sanki nəyisə dinləyir. Profildən çəkilib. Sol istiqamətə doğrudur. Qarın hissəsi və boynu yuxarı qalxmış vəziyyətdədir. Başı kiçik, ağzı açılı vəziyyət-

dədir. Quyruq qısadır. Ön ayaqlarından biri haçalanıb. Bizim eraya aiddir **(şəkil 13).**

**Daş 14, şəkil 12:** Çox böyük olmayan gəzən formada olan maral təsvir olunub. Profildən və sol istiqamətədir. Sanki heyvan arxaya baxır. Çiyinləri üzərində böyük çıxıntı var. Qarnı bir qədər aşağı əyilmiş vəziyyətdədir. Boynu yuxarı qalxmış vəziyyətdədir. Və başı balacadır. Buynuzu şaxəli və yuxarı qalxmış şəkildədir. Omba bir qədər dairəvidir. E.ə. I minilliyin ortalarına aid edilir **(şəkil 14).**

Qeyd edildiyi kimi Qobustanda Böyükdaşda da qayaüstü təsvirlərə rast gəlinib. Lakin, XIX əsrin 80-ci illərinin əvvəllərində Bakı-Tbilisi dəmir yolunun tikintisi ilə əlaqədar Böyükdaş dağı yarıb tikintidə onun daşlarından istifadə edirlər və nəticədə 1946-50-ci illərdə bura daşyonma məntəqəsinə çevrilir. 1951-ci ildə isə hökumətin qərarı ilə tikinti işləri dayandırılır. Tikintinin dayandırılmasına baxmayaraq abidə ciddi şəkildə korlanır. Bunu rəsmlərin azlığından da görə bilirik. Böyükdaşda təsvirli daşlara rast gəlinib. Yuxarı terrasda 167, aşağı terrasda 323 təsvirə rast gəlinib.



Şəkil 10



Şəkil 11



Şəkil 12

**Daş 59, şəkil 1,3,4:** Maral silueti qaçan formada eyni horizantal xətt üzərində təsvir edilib. Real təsvir olunub, marallar dinamikdir. Boyunları qalxmış şəkildədir, başı kiçikdir, üzü sağ istiqamətə yönəlib. Buynuzları şaxələnib, 3 və 4-cü maralların buynuzları qövsşəkillidir. Quyruğu balacadır, bir az da yuxarı qalxmış vəziyyətdədir. Sadə çəkilmiş rəsmlərdir. Çox güman ki, e.ə. II-I minilliyə aiddir **(şəkil 15).**

**Daş 103, şəkil 1:** Qaçan maral təsvir olunub. Profildən, sağ istiqamətədir, gövdəsi daralmış və uzanmış vəziyyətdədir. Boynu incədir başı aydın təsvir olunub. Buynuzu qalxmış şəkildə şaxəlidir. Qulaqları da aydın nəzərə çarpır. Ağzından iki xətt vasitəsilə köpük təsvir olunub. Quyruq kiçikdir, bir qədər yuxarı qatlanmış şəkildədir. Ayaqları bir-birindən aralı vəziyyətdədir. V-VI əsrlərə aid edilir **(şəkil 16).**

**Daş 118, şəkil 2:** Maral təsviri kobud xətlə çəkilib. Boynu uzundur həm də kökdür. Düz qalxıb. Başı aydın görünür. Buynuzları böyük buynuz-varidir və çıxıntıları var. Quyruğu kiçik və yuxarı qalxmış vəziyyətdədir. Ayaqları üçbucaq formasındadır. VIII-IX əsrlərə aid edilir **(şəkil 17).**




Şəkil 13




Şəkil 14




Şəkil 15




Şəkil 16




Şəkil 17




Şəkil 18



Şəkil 19

**Daş 151, şəkil 1:** Böyükdaşın aşağı terrasında yerləşir. Maral rəsmi profildən sağ istiqamətə təsvir olunub. Böyük, şaxəli buynuzları vertikal şəkildədir. İçəridən çıxıntıları var. Boynu uzun irəliyə əyilmiş formadadır. Başı kiçikdir. Ağız hissəsi yarıqla təsvir olunub. Omba bir qədər dairəvidir. Quyruğu qısa və yuxarıya qatlanmış formadadır. Gövdəsinin ortasında vertikal xətt var. E.ə. I minilliyə aid edilir **(şəkil 19).**

Bütün bu rəsmlər bir daha Azərbaycanın necə qədim və zəngin tarixə malik olduğunu sübut edir. Qobustan qayaüstü təsvirləri qədim əcdadların həyatı, məişəti, dini dünya görüşü, mədəniyyəti haqqında bizdə tam fikir formalaşdırmağa qadirdir. Yüksək bədii xüsusiyyətlərə malik olan maral təsvirləri isə Qobustanın qədim sakinlərinin estetik zövqünün bariz göstəricisidir.

## ƏDƏBİYYAT

1. Джафарзаде И.М. Гобустан. Наскальные изображения. Баку, Элм, 1973
2. Rüstəmov C.N. Qobustan petroqlifləri. Bakı, Kooperasiya, 2003.
3. Rüstəmov C.N. Qobustan dünyası. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1994.
4. Rüstəmov C.N, Muradova F.M. Qobustan petroqlifləri. Şonqardağ və Şıxqaya qayaüstü rəsmləri. II k. Bakı, Kooperasiya, 2003
5. Muradova F.M. Qobustan tunc dövründə. Bakı, Elm, 1979.
6. Rzayev N .İ. Qayalar danışır. Bakı, Elm, 1985.
7. Aslanov Q.M. Abşeronda arxeoloji qazıntılar. AMM, VI cild. Bakı, Elm, 1965
8. Рустамов Дж.Н, Мурадова Ф.М. Наскальные изображения Гобустана. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı, Elm, 2003.
9. http://en.wikipedia.org/wiki/Rock_art
10. http://www.shamanicjourney.com/article/6025/deer-power-animal-symbol-of-gentleness-unconditional-love-and-kindness
11. http://www.whats-your-sign.com/animal-symbolism-deer.html

## DEER DESCRIPTIONS IN THE ROCK ART OF GOBUSTAN

***Ilaha Khantamirova***

***Summary***

**Keywords: rock description, deer, art, Gobustan, Ishag Jafarzadeh, Jafargulu Rustamov.**

The article was dedicated to the deer images in the rock arts in Azerbaijan. Deer descriptions in Gobustan were explored in the article. The cause of description, also rock fragments in the world was noticed in the article. From the work of Ishag Jafarzadeh was detailed used. Pictures from the different sources were used at the end of article.

## ИЗОБРАЖЕНИЯ ОЛЕНЕЙ В НАСКАЛЬНОМ ИСКУССТВЕ ГОБУСТАНА

***Илаха Хантамирова***

***Резюме***

**Ключевые слова: Наскальные изображения, марал, Гобустан, искусство, Исаак Джафарзаде, Джафаргулу Рустамов.**

Статья посвящена наскальным изображениям оленей, имеющихся в Азербайджане. Эти изображения встречаются на территории Абшерона, Гобустана, Кельбаджара и Нахчывана. Приводятся аналогии, найденные на территории Европы и Африки. В статье указаны причины, по которым древние люди прибегали к этим изображениям. К статье прилагаются рисунки, взятые из разных источников.

# ОБЩИЕ И МЕСТНЫЕ ОСОБЕННОСТИ В НАСКАЛЬНЫХ ИЗОБРАЖЕНИЯХ АЛЯСКИ И АЗЕРБАЙДЖАНА

**Фидан Садыгова**
(Бакинский Государственный Университет)

**Ключевые слова: Природа, ареал, Аляска, наскальные изображения, семантика, петроглиф, наскальное искусство**

Одним из важнейших археологических памятников являются древние наскальные изображения – петроглифы. Изучение их позволяет решить целый ряд проблем, связанных с древнейшей историей культуры и искусства мира. Древние наскальные изображения открыты во многих уголках мира – Евразии, Африки, Америки, Австралии, и в частности на территории Азербайджана. Одним из значимых очагов распространения наскальных изображений является и территория Аляски.

Археологическими исследованиями на территории Аляски открыто множество древних наскальных изображений. Значительная часть их характеризуется самобытностью и ярким стилем. Вместе с тем в наскальных изображениях изучаемого региона прослежены общие черты, присущие этому виду археологических памятников. В представленной статье мы осмелились дать сравнительный анализ наскальных изображений Аляски и Азербайджана.

Наскальные изображения Азербайджана и Аляски являются общепризнанными шедеврами мирового наскального искусства. Нам кажется, что для проведения сравнительного анализа древних наскальных изображений Азербайджана и Аляски необходимо обратить внимание на географическую обстановку, на датировку, смысл и содержание, технику выполнения групп рисунков и т.д.

Говоря о датировке наскальных изображений Аляски, мы можем на основе работ исследователей, занимавшихся изучением данного комплекса, выяснить, что первые петроглифы на Аляске появились около 4 тыс.лет назад.

Ученый Стивенс писал, что «самые древние рисунки найдены среди петроглифов Александрийского архипелага - Kalinin bay, Sinitsin Cave, Lenderman Cave, Mill Creek». Неоконтуренные личины относятся

к эскимосской культурной фазе (1200-100 лет до н.э.). Такая датировка основана на сопоставлении с орнаментальными гальками, изучавшимися Хайзером, де Лагуной, Кларком.

Датировки наскальных изображений Азербайджана имеют условный, предварительный характер. Обычно наиболее ранними группами изображений считаются наскальные изображения диких быков. Изображения вымерших животных свидетельствуют о древности петроглифов. По своей преобладающей тематике наскальные изображения Азербайджана ведут нас к палеолиту. Первая работа по периодизации наскальных изображений Азербайджана была проделана археологом И.Джафарзаде. В настоящее время Дж.Рустамов и М.Фараджева самие древние наскальные изображения Гобустана относят к периоду времени начиная с 18-15 тыс. лет до н.э. По оценкам специалистов, возраст наскальных изображений на Дюбендинской возвышенности (Абшерон) составляет около 5000 лет до н.э., возможно это одни из самых древних в мире образцов проторунического письма. Кельбаджарские наскальные изображения имеют возраст более 6 тысяч лет. Петроглифы Гемигая, созданные художниками» земледельческо-скотоводческих племен, относятся к эпохе бронзы (3-2 тыс. до н.э.). Таким образом, можно сделать вывод, что наскальное искусство в Азербайджане зародилось задолго до появления первых петроглифов на Аляске.

Перейдем к рассмотрению схожих особенностей наскальных изображений двух регионов. Исследователь Э.Стивенс на основе, проделанной им работы, установил 36 основных, наиболее часто встречающихся элементов рисунка, помогающих охарактеризовать весь материал петроглифов Аляски; к ним относятся чашечные углубления, точки, круги, цепи кругов, овалы, солнечные диски, звезды, спирали.

Изображения человека и животных выполнялись либо в фас, либо в профиль. Наскальные рисунки Аляски со временем становились более схематичными и примитивными. Если в раннем творчестве древних художников наблюдаются яркие и легко читаемые рисунки, то в более поздний период жители Аляски стали изображать геометрические мотивы с использованием запутанных линий и орнаментов. Такая тенденция в изображении петроглифов наблюдается во всем мире. Все петроглифы Аляски были поделены Стивенсом на 2 группы – петроглифы (изобразительные рисунки) и пиктограммы (неизобразительные, геометрические элементы). Похожие изображения можно встретить и в

Азербайджане. Например, в Гобустане встречается огромное многообразие рисунков различных сюжетов и разной тематики: изображения человека и животных, лодок, сетей для ловли, знаки и метки, следы надписей арабской и латинской графики. Здесь имеется множество изображений (силуэтов) мужчин и женщин, которые выполнены в фас и в профиль (также, как в Аляске), животных; характерным элементом наскального творчества древних художников Гобустана являются изображения «яллы» (древний танец). Для других местностей, хранящих древние изображения Азербайджана (Абшеронского полуострова, Гемигая, Кельбаджара) характерны антропоморфные изображения, рисунки повозок, животных, сцены из бытовой жизни племен, сюжеты, относящиеся к сельскому хозяйству, скотоводству и охоте, ранним религиозным верованиям, изображения тотемов и небесных созвездий.

Относительно смыслового и идейного содержания петроглифов Аляски можно сказать, что уровень умственного развития древних художников верхнего палеолита был достаточно высок. Э.Стивенс был убежден, что жители Аляски обладали обширными знаниями о Вселенной, окружавшей их. Опыт авторов наскальных изображений тех времен стал основой для создания индейских календарей. По мнению ученого, для наблюдения за движением небесных тел и циклом смены времен года использовались серии выбитых кругов с точками, в середину которых вставлялись маленькие палочки, скорее всего из дерева. Изображения в виде кругов, выбитых по одной линии, и сдвоенных спиралей, скорее всего, отражали простейшие астрономические наблюдения. Одной из функций геометрических рисунков и чашечных углублений могли быть отметки высоты приливов, нужные для рыболовства и навигации; обычно такие рисунки связываются с мотивами магии плодородия. Таким образом, учеными рассматривались две версии о смысле данных ямок и рисунков – рациональная и религиозная.

Интересно, что среди древних изображений имеется определенное число изображений рассказывающие о местных легендах и мифах, в то время как другие иллюстрируют особые события или изображают фантастические фигуры.

Ученый Стивенс изучал проблему влияния классического искусства Северо-запада на петроглифы Аляски. Учеными обнаружено также сходство петроглифов Аляски с наскальными изображениями древнего Амура, нижнеамурскими петроглифами. Стивенс приходит к

выводу, что классическое искусство индейцев северо-западного побережья Северной Америки оказывало влияние на искусство Аляски, когда там развивались более поздние стили наскальных изображений. Источником наскального искусства Аляски Стивенс считает «дальневосточный, возможно амурский прототип для аляскинских О-и У-образных личин». Таким образом, несмотря на большую территориальную отдаленность, наскальное искусство Сибири и петроглифы Аляски имели связи в древние времена. Схожесть стилей и сюжетов наскального искусства обоих культурно-исторических центров объясняется сходным мировоззрением и образом жизни древних жителей Аляски и Амура.

Гобустанский археологический комплекс выделяется разнообразием тематики, создаваемых сцен из жизни древних обитателей этой территории. Среди изображений имеется много рисунков мужчин и женщин, а также диких животных, выполненных почти в натуральную величину. Мужчины на наиболее древних рисунках изображены в набедренных повязках, имеют крепкое и стройное телосложение, вооружены луком и стрелами, некоторые держат в руках оружие, напоминающее бумеранг. На поверхностях скал Гобустана были отмечены изображения пеших охотников и охотников на лошадях, бойцов, воинов, ловких рыбаков и моряков в лодках, караванщиков и др. У женщин же туловища тонкие, подчеркнуты выступающие груди и большие бедра, что характерно для первобытного искусства Евразии. Сами они как-будто немного наклонены вперед. Женщина считалась символом плодородия и обожествлялась. Изображались лишь те женщины, которые смогли отличиться своей деятельностью и заслужить уважение среди соплеменников. Женский образ «праматери» стал олицетворением всего человеческого начала в культуре верхнего палеолита. На скалах Гобустана встречается множество изображений животных. Самыми древними изображениями считаются рисунки древних быков. Крупнейшие собрания наскальных рисунков быка и сцен охоты на него имеются на горах Беюкдаш и Кичикдаш. Изображения аналогичной тематики также были открыты в районе Большого Гобустана на горе Шонгар. Многочисленные изображения куланов Equus hemionus Pal на скалах Гобустана и обнаруженные костные остатки, свидетельствуют о широком распространении этих животных. Охоту на диких ословонагров упоминали в своих произведениях античные авторы, а также

Низами Гянджеви (12 век), Рашид-ад-Дин (14 век) о загонной охоте Газан-хана в Талыше и др. Одним из излюбленных сюжетов у древних художников было изображение оленей. В позднеплейстоценовую эпоху здесь обитал пятнистый олень Cervus (Sica) Nippon Temminck. Остатки костей джейрана в древних пещерах Гобустана и многочисленные изображения этих животных подтверждают, что джейраны были среди основных объектов охоты в палеолите. Другим популярным персонажем для первобытных художников Гобустана были безоаровые козлы - Sarqa aegagrus Erxl. Уже в более поздние периоды на скалах Гобустана изображались леопарды и львы. На Кичикдаше было обнаружено изображение огромной рыбы, по всей вероятности, дельфина, вырезанное на скале. Среди гобустанских наскальных изображений много сцен охоты, ритуально-обрядовых танцев, жатвы, жертвоприношений, лодок с солнцем на носу, двухколесных повозок, вооруженных всадников, знаков и т.д. В Гобустане находится более ста изображений лодок, которые, по проведенным исследованиям, начали изображаться со времен мезолита. Символ солнца на их носах связывается с древними магическими представлениями людей. Двухколесные повозки, появившиеся на территории Азербайджана в позднем энеолите, служили необходимым средством передвижения в быту племен эпохи бронзы и раннего железа. Предполагается, что древний азербайджанский танец «Яллы», сцену которого можно увидеть на одном из наскальных изображений Гобустана, зародился именно в этих местах и исполнялся под аккомпанемент игры на гавалдаше. Изображение целой группы фигур свидетельствует о сложившемся стиле. Значительная часть изображений Гобустана в своем большинстве относится к эпохам мезолита и начала неолита (10-7 тыс. лет до н.э.); для них характерна пропорционально-реалистическая манера изображения. В своем большинстве же петроглифы Гобустана относятся последовательным периодам эпохи палеометалла: энеолиту, бронзы и железа. Самые древние изображения часто бывают перекрыты позднейшими рисунками. Более поздние изображения связаны с античным и древнетюркскими периодами, или ранним и развитым этапами средневековья. На скалах и глыбах Гобустана сохранились многочисленные чашечные углубления полусферической формы, которые рассматриваются исследователями как древнейшие сосуды для сбора и хранения воды, собирания жертвенной кро-

ви животных, для приготовления пищи при помощи раскаленных галек и т.д.

Установлено, что первобытное художники Гобустана использовали грубые режущие и ударные орудия труда (скребки, ударники, орудия из гальки и кремня для выбивания рисунков) для выполнения наскальных изображений с глубоким прорезом. Самые древние рисунки выполнялись техникой выбивания по скале камнем и глубокого вреза, как например изображения быков на камнях верхней террасы горы Беюкдаш. Изображения женщин и мужчин были выполнены в виде утопленного барельефа, в начале они выбивались, а затем протирались. При сравнении этих изображений с изображениями лодок можно заметить, что по технике выполнения изображения лодок стоят значительно выше – в них чувствуется уверенная рука и более совершенный инструмент. Изображения быка выбивались точечным методом. Интересно, что в Азербайджане встречается и комбинированная техника, а также крашенные изображения, рисунки выполненные техникой процарапывания, протирки и вреза, использования естественного рельефа скалы и др.






Петроглифы на Аляске, в основном, были найдены на твердых поверхностях, таких как гранит и базальт, это служит свидетельством того, что для их создания нужно было упорство.

Такое положение характерно и для древних наскальных изображений высокогорных зон Азербайджана. Предполагается, что для нанесения предполагаемых изображений в начале использовались каменные молоты. Ими выдалбливались грубые очертание рисунка, которые затем смягчались до ровных линий. Некоторые петроглифы с выдолбленными очертаниями, скорее всего, так и не были закончены. Жители Аляски – алеуты, используя инструменты, похожие на каменные молоты, выдалбливали наскальные изображения на гранитном побережье Кодиак.















Как видно, в наскальных изображений Аляски и Азербайджана наряду с самобытными особенностями прослежено много общего, которое является закономерным для наскального искусства мира.

## ЛИТЕРАТУРА

1. Джафарзаде И.М. Гобустан – наскальные изображения. Баку, 2003.
2. Джафарзаде И.М. Наскальные изображения Гобустана. Сб.статей: Археологические исследования в Азербайджане. Баку, 1965.
3. Алиев В.Г.Памятники Гемигая. Баку, 1993.
4. Алиев В.Г.Петроглифы Гемигая. Баку, 1985.
5. Исмаилзаде Г.С. Исследование наскальных изображений в верховьях р. Тертер. АО 1976, Москва, 1977.
6. Исмаилзаде Г.С. Петроглифы Азербайджана как составная часть древнейшего искусства Евразии. Сб. Кавказ в контексте всемирной истории. Тбилиси, 1996.
7. Исмаилзаде Г.С. Шедевры наскального искусства Азербайджана. Журнал “Мирас”. Ашхабад, 2008, № 1.
8. Исмаилзаде Г.С.Историко-художественный музей под открытом небом. Журнал “Ирс” (Наследие). Баку, 2008, № 6.
9. Рустамов Дж.Н. Наскальный мир Гобустана. Баку, 1994
10. Рустамов Дж.Н. Гобустан очаг древней культуры Азербайджана. Баку, 2000.
11. Мурадова Ф.М.Наскальные рисунки Гобустана. Журн. “Ирс” (Наследие). Баку-Москва, 2008, № 6, с.
12. Мурадова Ф.М. Гобустан в эпоху бронзы. Баку, 1979.
13. Museyibli N.Ə. Gəmiqayanın arxeoloji tədqiqi. Azərbaycan arxeologiyası, Bakı, 2002, № 1-2.
14. Museyibli N.Ə. Gəmiqaya. Bakı, 2004.
15. Монгайт А.Л. Археология Западной Европы – Каменный век. Москва, 1973.
16. Формозов А.А.Наскальные изображения и их изучение. Москва, 1987.
17. Формозов А.А. Очерки по первобытному искусству. Москва, 1969.
18. Stevens E. Alaskan petroglyps and pictographs. Fairbanks, 1974.
19. Niblack A.R. The coast Indians of southern Alaska and Northern British Columbia. New-York-London, 1890.

# ALYASKA VƏ AZƏRBAYCANIN QAYAÜSTÜ TƏSVİRLƏRİNDƏ ÜMUMİLİK VƏ FƏRDİ XÜSUSİYYƏTLƏR

*Fidan Sadıqova*

***Xülasə***

**Açar sözlər: təbiət, areal, Alyaska, qayaüstü təsvirlər, semantika, petroqlif, qayaüstü incəsənət.**

Qədim qayaüstü təsvirlər arxeoloji abidələrin əsas və mühüm növlərindəndir. Onlar qədim mədəniyyət, incəsənət və dünyagörüş tarixinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

Qədim qayaüstü təsvirlərə Avrasiyanın, Amerikanın, Avstraliyanın və Afrikanın müxtəlif yerlərində rast gəlinmişdir. Məlumdur ki, tarixi Azərbaycan torpaqları qədim qayaüstü təsvirlərlə zəngindir.

Qayaüstü təsvirlərə Alyaskanın bir sıra bölgələrində də qeydə alınmış və öyrənilmişdir. İstər Azərbaycanda istərsə də Alyaskada bütün qayaüstü rəsmlər eyni texniki üsulla icra olunmuşdur.

Yüksək dağlıq bölgələrdəki qayaüstü təsvirlər qranit və ya bazartaşları üzərində, düzən yerlərdə isə iri ölçülü əhəng daşından olan qayalar üzərində həkk olunmuşdur. Süjetli rəsmlər damğa və müxtəlif işarələr hər iki komplekslər üçün xasdır.

# PETROGLYPHIC ART OF ALASKA AND AZERBAIJAN AND THEİR COMMON AND SPECİFİC FEATURES

*Fidan Sadigova*

***Summary***

**Keywords: Nature, areal, Alaska, petroglyph (rock carving), semantic, rock carving art**

Ancient petroglyphic art is the basic archeological monument and highlights species. Its ancient culture, arts and outlooks world for learning history is the great importance. An ancient petroglyphs art were found in diversity place in such Australia, Eurasia, America and also in Africa continent. There are known that in historical places of Azerbaijan petroglyph art is blended rich. Petroglyph art in several region of Alaska were researched good. In Azerbaijan or in Alaska all petroglyphs arts were implemented the same as techniques and as the same methods. The high mountains areas of the petroglyphs art usually for engraved rock were used granite or limestone. The plots of rock carving are stigma or various symbols both of them as the complex carried character.

# ARXEOLOJİ MƏNBƏLƏRƏ ƏSASƏN ANTİK ALBANİYANIN ETNOGENEZ MƏSƏLƏSİNƏ DAİR

**Rüxsarə Quliyeva**
ruxsaraguliyeva@gmail.com
(Xəzər Universiteti)

**Açar sözlər: torpaq, küp, daş qutu, çiy kərpic, taxta qutu, gil təknə və katakomba qəbirləri.**

Albaniyanın tarixini öyrənmək üçün istinad edilən mənbələrə qədim müəlliflərin əsərləri və eləcə də arxeoloji qazıntılar zamanı aşkara çıxarılan maddi mədəniyyət nümunələri aiddir. Bir neçə əsr bundan əvvəl yaşamış yazıçılar və coğrafiyaşünaslar Albaniyanın etnik tərkibi haqqında bir sıra qiymətli məlumatlar vermişdilər ki, bunlarsız ölkəmizin etnik tərkibi haqqın-da hər hansı bir söz demək çətin olardı. Əhali məsələsi çox mürəkkəb problem olduğu üçün kompleks yanaşma tələb edir. Bu problem təkcə yazılı qaynaqların deyil, eləcə də arxeoloji materialların kompleks şəkildə öyrə-nilməsi ilə araşdırılmalıdır. Yəni, əhali probleminin dərindən və hərtərəfli öyrənilməsi yazılı və arxeoloji mənbələrin əlaqəli şəkildə araşdırılmasını tələb edir.

Məlumdur ki, yazılı qaynaqların tədqiqi Albaniyanın sərhədləri daxi-lində yaşayan əhalinin etnik fərqlərini üzə çıxarır. Əhalinin etnik fərqlərini yazılı mənbələrlə yanaşı, Albaniya ərazisində aşkar olunmuş arxeoloji mədə-niyyətlər də sübut edir. Tarixi Albaniya ərazisindəki nekropollarda aparılmış genişmiqyaslı arxeoloji qazıntılar zamanı əhalinin etnik müxtəlifliyini əks etdirən müxtəlif tipli qəbir abidələri aşkara çıxarılmışdır. Ölüləri torpaq, quyu, küp, çiy kərpic, taxta qutu, daş qutu, katakomba və gil təknə qəbir-lərində dəfn edirdilər.Burada maraq doğuran məsələlərdən biri qəbir abidələ-rinin istər formasını görə, istərsə də orientasiyasına görə bir-birindən tama-milə fərqlənməsidir.

Bəhs edilən problemin araşdırılması üçün müstəsna əhəmiyyətə malik olan arxeoloji materiallardan biri torpaq qəbirləridir. Bu qəbirlər Albaniyada ən geniş yayılmış qəbir abidələrindəndir. Qazıntılar zamanı bütövlükdə Azərbaycan ərazisində 130-dan çox belə qəbirstanlıq qeydə alınmışdır və onlar praktik olaraq bütün bölgələrdə mövcuddur (5, 128). Bunlardan birin-cisi 1926–cı ildə Yaloylutəpədə D.M. Şərifov tərəfindən aşkara çixarılmlş qəbirdir. Qəbirin adı ilə arxeoloji mədəniyyət Yaloylutəpə mədəniyyəti adını

almışdır. Bu tip qəbirlər həmçinin Mingəçevirdə, Qəbələdə, Xınıslıda, Çıraqlıda (Şamaxı), Nüydidə, Qırlartəpədə (Ağsu), Torpaqqalada (Qax), Uzunboylarda (İsmayıllı), Kişdə (Şəki), Şəmkirdə, Xucbalada (Quba), Tarkuda, Qarabudaqkənddə, Sarakunda (Dağıstan), Alazan çayı hövzəsində və digər yerlərdə aşkara çıxarılmışdır (7, 91-92; 9, 53).

Torpaq qəbirləri üçün bükülmüş skelet və özünəməxsus gil qablar xarakterikdir. Qəbir adətən dördkünc və oval formada olurdu. Ölünü bükülmüş vəziyyətdə sol, ya da sağ böyrü üstə dəfn edirdilər. Oturmuş vəziyyətdə dəfn edilmiş ölülərə də rast gəlinir (9, 53 - 55). Qəbirlərin eni adətən 2 m, uzunluğu 4 m olurdu. Ölülərin başını müxtəlif istiqamətə qoyurdular və geyimdə, bəzi hallarda bəzək əşyaları ilə dəfn edirdilər. Məsələn, Nüydidə bilərziklər, diademalar, sırğalar, boyunbağılar aşkar olunmuşdur. Qəbirə əmək alətləri, bəzi hallarda silah, qida qabları qoyulurdu. Qaydaya görə qabları qəbirin baş tərəfinə qoyurdular. Buradakı qablar özünəməxsusdur. Onlar üçün qabarıq və batıq ornamentlər xarakterikdir. Bu mədəniyyətə məxsus olan qablar şargövdəli dopudan, yandan lentvari qulpu olan süddandan, tayqulp gil camdan və s. ibarətdir. Qeyd edilən tip saxsı qablar yalnız Albaniya əhalisi üçün xarakterikdir. Arxeoloji tadqiqatlar zamanı bu tip qəbirlərin yayılma arealı müəyyənləşdirilmişdir və bununla ölkənin əhalisinin etnik tərkibini, ərazisini, hətta sərhədlərini dəqiqləşdirmək mümkün olmuşdur (7, 93).

Bəzi hallarda meyiti qəbirə qoyanda yarıya qədər torpağa basdırıb ocaq qalayırdılar. Bu ehtimal ki, atəşpərəstliklə bağlı bir ayin olub. Qəbirlərdən bəzən heyvan sümükləri də tapılırdı. Bu tip nekropollar ümumi xüsusiyyətlərlə yanaşı, bir neçə lokal xüsusiyyətlərə də malikdir. Məsələn, Mingəçevirdə bütün qəbirlərdə ölü zəif bükülmüş vəziyyətdə, şimal – şərq istiqamətdə qoyulmuşdur. Qəbirə qablar, əmək alətləri, bəzək əşyaları, dəmir silahlar, pullar, möhürlər və s. qoyulmuşdur. F.L. Osmanov və S.M. Qazıyev bu tip qəbirlərdə aşkar edilən tapıntılara və stratiqrafik materiallara əsasən bu qəbir abidəsini e.ə. V – III əsrlərə (7, 92; 5. 13).

Albaniya ərazisində ən geniş yayılmış qəbir abidələrindən biri də küp qəbirləridir. Bu tip qəbirlər Mil, Şirvan, Qarabağ düzündə, Kür–Araz çayları boyunda, Naxçıvanda, Gürcüstanın şərq rayonlarında, Ermənistanda və Dağıstanda qeydə alınmışdır. Bu abidə Mesopatomiya, İran, İtaliya, İspaniya, Yunanıstan və Anadoluda da aşkar edilmişdir (5, 27-45).

Küp qəbirləri Azərbaycan ərazisində əsasən Ağcabədi, Ağdam, İsmayıllı, Ucar, Şamaxı, Qəbələ rayonlarında və Qaratəpə xarabalıqlarının ətrafında tədqiq edilmişdi (9, 77; 7, 93). Küp qəbirləri mədəniyyətinin yayıl-

ması xəritəsinə isə Oğuz, Şəki, Qax, Xankəndi, Füzuli, Gəncə, Qazax, Şəmkir kimi dağətəyi rayonlar, Mingəçevir, Yevlax, Bərdə, Beyləqan, Sabirabad kimi düzən rayonlar da daxildir (1, 30-35). Bunlar müxtəlif tarixi dövrlərdə Ön Asiyada və Qafqazda geniş yayılmışdı. Bu abidələrin tarixi çox qədimdir. Tarixi-arxeoloji ədəbiyyatda küp qəbirlərinin xronoloji çərçivəsinə baxış məsələsini ilk dəfə İlyas Babayev qaldırmışdı. Albaniyada bu adət e.ə. VI-III əsrlərədn e. VIII əsrinə (5, 42; 1, 31) qədər mövcud olmuşdur. Küp qəbirlərinin qədim dövrlərinə Azərbaycanın cənub hissələrində, son dövrlərinə isə, şimal hissəsində təsadüf edilir. Azərbaycan ərazisində ən qədim küp qəbri 1974 – cü ildə Mil düzündə, Ağcabədi rayonunda, Qarakobar adlı yerdə tapılmışdı. Dəfn adəti və dəfn avadanlıqlarının müqayisəli təhlili bu qəbiri e.ə. VI – III əsrlərə aid etməyə imkan verir (7, 95, 97).

Azərbaycanda küp qəbirləri bir neçə variantda aşkar edilib. Belə ki, bəzi halda skelet sıx bükülmüş vəziyyətdə, böyrü üstə qoyulurdu. Digər halda uzadılmış formada qoyulurdu. Belə olanda küpün ölçüsü böyük olurdu. Küp qəbirlərinin yerüstü nişanəsi yoxdur. Qırmızıya çalan gildən hazırlanmış küpü, adətən üfüqi vəziyyətdə qoyurdular. Böyüklərin dəfn edildiyi küpün hündürlüyü1,5 m və daha çox, boğazının diametri isə 0,4 m-dən 0,5 m-ə qədər və çox olurdu. Dibinin diametri 0,18 m-dən 0.33 m-ə qədər olurdu. Uşaqlar isə daha kiçik ölçülü küplərdə dəfn olunurdu. Qəbirin çuxuru bir neçə sm-dən 3 - 4 m-ə qədər, kvadrat, düzbucaqlı, dairəvi yaxud oval formada olurdu. Ölünün başı ya küpün boğazına, ya da dibinə tərəf qoyulurdu. Onu sıx bükülmüş vəziyyətdə, sağ və sol böyrü üstə dəfn edirdilər. Bəzək əşyaları və digər alətlər skeletlə bir yerdə küpün içərisinə qoyulurdu. Daha böyük əşyalar bayır tərəfdən ölünün baş və ayaq tərəfindən qoyulurdu. Qəbirə qoyulan saxsı qabların üzərində qabarıq və batıq, eləcə də qırmızı boyalı ornament müşahidə olunur (7, 95-96). Bundan sonra küp çuxurun dibinə üfüqi vəziyyətdə qoyulur və ağzı bayırdan eyni küpün qırıqları, əhəng lövhə, çiy və bişmiş kərpic, yaxud daşla örtülürdü (3, 61). Bir neçə təsadüfi hal nəzərə alınmazsa, bütün qəbirlərdə meyitin başı küpün ağzına tərəf, ayaqları isə oturacağına tərəfdir.

Azərbaycanda küp qəbirlərinin istiqaməti müxtəlifdir. Amma Mingəçevirdəki küp qəbirlərinin istiqaməti sabitdir. Belə ki, küplərin boğazı şimal – qərbə, altı isə cənub – şərq istiqamətinə qoyulub. Ancaq, bir neçə qəbirlərdə əks istiqamət aşkar edilmişdi. Qarabulaq nekropolunda isə küplərin şimal – qərbdən, cənub – şərq istiqamətinə qoyulması müşahidə olunur. Belə istiqamət həmçinin Ağcabədi, Ağdam və Qalaqayının bir neçə qəbirlərində də

müşahidə olunur (3, 63). Qeyd edək ki, müxtəlif istiqamət başqa tip qəbirlərdə də (məs., taxta qutu, katakomba) müşahidə olunur. Qəbirlərdə olan müxtəlif istiqamətlilik yalnız xristian və islam dininin yayılması ilə ortadan qalxır.

Əvvəldə qeyd etdiyimiz kimi ölü dəfn edilən küpə qab – qacaq, əmək aləti, silah, bəzək əşyaları qoyulurdu. Qəbirə həmçinin pul da qoyulurdu. Məsələn, Mingəçevirdə və Şamaxının Dərə - Xınıslı kəndində e.ə. I - e. I əsrinə, Qax rayonunun Qarabulaq kəndində e. I əsrinə aid edilən Roma və Arşaki gümüş pulları tapılmışdı. Bu və digər faktlara (qəbirlərdən tapılmış şüşədən hazırlanmış məmulatlara, əqiq qaşlı üzük, daşdan qaşı olan sırğa və s. tapıntılara) əsaslanaraq ən qədim küp qəbirlərini e.ə. II – I, e. II – III əsrlərinə aid edirlər. Amma, Mil düzündə aparılmış qazıntılar bunun tarixini daha da qədimə aparmağa imkan verir. Qarakobarda (Ağcabədi) aşkar edilmiş küp qəbirdən qara - qonur rəngli nehrə, hündür uzunboğazlı küp, naxışlı kasa, kiçik qulplu qara gil kasa və s. aşkar edilmişdir ki, bunlar da e.ə. I minilliyin I yarısina aid edilir. Buna əsaslanıb bu qəbir abidəsini təxminən b.e.ə. V əsrin başlanğıcına aid etmək olar. Belə olduqda küp qəbirlərinin Azərbaycanın cənub aran zonasında dağlıq və dağətəyi yerlərinə nisbətən daha tez yaranmasını demək olar (7, 96).

Elmdə Azərbaycan ərazisində aşkara çıxarılmış küp qəbirlərinin mənşəyi, mənsubiyyəti, yayılması və s. məsələlər haqqında müxtəlif fikirlər mövcuddur. Bu qəbir abidəsinin mənsubiyyət məsələsindən danışan K.V. Trever onun qarqar albanlara məxsus olduğunu bildirirdi (8, 66). Eyni fikrə A.K. Ələkbərovda da rast gəlinir. Onun fikrincə küp qəbirlərinin yayıldığı rayonlardakı toponimlər güman ki, Mil düzündə məskunlaşan qarqar tayfaları ilə bağlıdır. Amma, əvvəldə qeyd etdiyimiz kimi bu qəbir tipi bütün Cənubi Qafqaz ərazisində yayılmışdı və bunu bir alban tayfası ilə əlaqələndirmək elə də doğru olmaz.

Qeyd edək ki, küp qəbirləri həmçinin İranda və Orta Asiyada da yayılmışdı. Amma, ölünün dəfn formasında müxtəliflik mövcuddur. Belə ki, ölü Azərbaycanda tam dəfn edildiyi halda, İranda və Orta Asiyada əsasən ölünün ayrı – ayrı sümüklərinin dəfn edilməsi halına rast gəlinir. Məlumdur ki, Azərbaycan ərazisi Şərq və Qərbin qovşağında yerləşirdi. Eləcə də antik dövrdə Kür və Araz çaylarından başlıca ticarət yolu keçirdi. Bu yol vasitəsi ilə Qədim Şərqin mədəniyyəti şimala və qərbə yayılırdı və bu da Azərbaycan ərazisində öz izini buraxmaya bilməzdi. Deyilənləri ümumiləşdirərək küp qəbirləri mədəniyyətinin Azərbaycana qeyd etdiyimiz yolla yayılmasını

demək olar. Doğrudan da Mil düzündə aşkara çıxarılmış küp qəbirləri elmdə daha qədim hesab olunur (8, 127 - 128) və bu ərazidən həmin mədəniyyət Cənubi Qafqazın, eləcə də Azərbaycanın digər yerlərinə, əsasən də Kür çayının sol sahilinə yayılmışdı. Məlumdur ki, Kür çayının sol sahili üçün torpaq qəbirləri, sağ sahili üçün isə əsasən küp qəbirləri xarakterikdir. Ehtimal ki, bu mədəniyyət İranda, Azərbaycanda və Orta Asiyada yayılmış zərdüşt dini ilə bağlı olmuşdur.

Daş qutu qəbirləri Azərbaycanın əsasən şimal-şərq və cənub-şərq bölgələri üçün (Şamaxı, Qobustan, Hacıqabul, Qusar, Füzuli) xarakterikdir. Bu abidələr qeydə alınsa da, onlar da əsaslı tədqiqat işləri aparılmamışdır. Qeyd edək ki, oxşar qəbir abidələri Cənub-Şərqi Dağıstanda və Şərqi Gürcüstanda da aşkar edilmişdir. Daş qutularda dəfn etmə ilk dəfə artıq erkən tunc dövründə meydana gəlir. Orta və son tunc dövründə və ilk dəmir dövründə bu qəbir tipi bütün Qafqazda aparıcı dəfn tiplərindən birinə çevrilir. Öz kostruksiyalarına görə daş qutu qəbirləri iki tipə ayrılır; divarları dik qoyulmuş iri daş lövhələrdən inşa edilmiş daş qutular və divarları çay daşlarından müəyyən cərgələrlə hörülmüş daş sərdabələr (1, 37). Qəbirdə ölülər bükülü vəziyyətdə dəfn edilirdilər, yanlarına saxsı qablar, bəzək əşyaları, silahlar və s. avadanlıqlar qoyulurdu. Bu qəbir abidəsinin etnik mənsubiyyətinə aydınlıq gətirən Qoşqar Qoşqarlı bunun Cənubi Qafqazın yerli tayfalarına mənsub olduğunu və küp və torpaq qəbirlərlə eyni olduğunu bildirirdi. (6, 93-111).

Albaniyanın arxeoloji simasını müəyyən edən qəbir abidələrindən biri də çiy kərpic qəbirləridir. Bu qəbir abidəsi Gəncə yaxınlığında, Gəncəçayın sahilində 1903 – cüildə Q.O. Rozendorf və 1905 – ci ildə V.A. Skinder tərəfindən aşkara çıxarılmışdır. Q.O. Rozendorf tərəfindən tunc dövrünə aid edilən bir kurqandan 16, V.A. Skinder tərəfindən 6, Y.A. Qummel tərəfindən isə 1937 – 1938–ci ildə 19 çiy kərpic qəbir tapılmışdır. Qəbirdə ölü tək, qrup halında, nadir hallarda cüt dəfn olunurdu. Skelet qəbirə bükülmüş, arxası üstə uzanıqlı və oturulmuş vəziyyətdə, şimal-qərb və cənub-şərq istiqamətinə qoyulurdu. Hər qəbirin üstündə 2 m hündürlüyündə kurqanabənzər nişanələr qoyulurdu. Digər qəbirlərdə olduğu kimi burada müəyyən avadanlıq qoyulmuşdur. Qeyd edək ki, bu qəbirlərdəki avadanlıqlar, torpaq qəbirlərindəki avadanlıqlarla çox böyük oxşarlıqlar təşkil edir. Ölünün ayaq və baş tərəfinə qablar qoyulurdu. Qəbirdən saxsı qablarla yanaşı, tunc bəzək əşyaları: bilərzik, sırğa, üzük, eləcə də şüşə və pasta muncuqlar aşkar edilmişdir. Rozendorf tərəfindən aşkar edilmiş 11 № qəbirdə skeletin çənə

sümüyünün yanında mis Roma pulu tapılmışdır. Buna münasibət bildirən T.S. Passek, bu tapıntının Rozendorfunçiy kərpic qəbrinin tarixini qəti müəyyən etdiyini bildirirdi (5, 60-65).

Y.İ. Qummel tərəfindən aşkara çıxarılmış 46 və 47 № qəbirlərdən də iki ədəd pul aşkar edilmlşdir ki, bu da onun təxminən torpaq qəbirləri ilə eyni dövrdə mövcud olmasını deməyə imkan verir. E.A. Paxomov müəyyənləşdirmişdir ki, bu pullardan birincisi III Fraatın (e.ə. 70 - 57). ikincisi isə I Orodun (57 – 38/37) gümüş arşaki puludur (2, 68). Bu tapıntı Gəncəçay sahilindəki nekropolların e.ə. I – e. I əsrinə aid olmalarını deməyə imkan verir.

Çiy kərpic qəbirlərinə həmçinin Muğan düzündə və Mingəçevir ərazisində də rast gəlinmişdir. Qeyd edək ki, elmdə çiy kərpic qəbirlərinin mənşəyini aydınlaşdırmağa cəhdlər göstərilmişdir. İlk dəfə Q.O. Rozendorfçiy kərpıc qəbir mədəniyyətinin daşıyıcılarının aborigenlər deyil, gəlmə əhali hesab etmişdi. Bu məsələyə daha çox münasibət bildirən Y.İ. Qummel isə çiy kərpic qəbir mədəniyyəti daşıyıcılarınınşübhəsiz yerli əhali olduğunu və adı çəkilən mədəniyyətin Yaloylutəpə mədəniyyəti və küp qəbir mədəniyyəti ilə yaxın olduğunu bildirirdi. Doğrudan da bəhs etdiyimiz tip qəbirdəki avadanlıq Yaloylutəpəqəbirlərindəki avadanlıqla çox oxşardır. Y.İ. Qummelin bu fikrinə əsaslanaraq O.Ş. İsmizadə çiy kərpic qəbir mədəniyyətinin daşıyıcılarınınavtoxton əhali olduğunu bildirirdi. Y.İ. Qummel isə digər bir işində belə bir fikir irəli sürür ki, bu qəbir Qafqazda Yunan-Roma koloniyasının mövcud olduğunu göstərir. Göründüyü kimi o, mövcud problemlə bağlı konkret bir fikir irəli sürmür. Q.O. Qoşqarlı isə hesab edirdi ki, bu qəbir abidəsi Yunan-Parfiya dünyası ilı sıx bağlı olan miqrantlara məxsusdur (5, 143).

Albaniya ərazisində qeydə alınmış qəbir abidələrindən biri taxta qutu qəbirləridir. 1949-1950-ci illərdə ilk dəfə Mingəçevir ərazisində, Sudağılanda 22 belə qəbir aşkar olunmuşdur (8, 168) və bu abidə 2004-cü ildə Ağdaş rayonu ərazisində yeni bir taxta qutu qəbrinin aşkarlanmasına qədər, nəinki Azərbaycan ərazisində, hətta bütün Qafqazda bu tip qəbirlərin qeydə alındığı yeganə yer hesab edilirdi.

Taxta qutu qəbir ardıc ağacından hazırlanmış tabutdan ibarətdir. Qutu dördkünc qəbir çalasına qoyulurdu və yerüstü əlaməti yoxdur. Tək, cüt və qrup şəklində dəfnlər qeydə alınmışdır. Qəbirə qoyulan avadanlıqlar adətən zəngin və müxtəlif olurdu. Belə ki, burada qızıldan və gümüşdən hazırlanmış bəzək əşyalarına, yüksək bədii ustalıqla işlənmiş saxsı qablara, həmçinin silahlara və s. əşyalara rast gəlinir. S.M. Qazıyev, K.VTrever (8, 168) və

İ.A. Babayev (4, 115) qəbirdən tapılmış Parfiya və Roma sikkələrinə əsaslanaraq bu tip qəbir abidəsinin b.e. I-IV əsrlərinə aid olduğunu bildirirdilər.

Taxta qutu qəbirlərin mənşəyi məsələsinə toxunan Q.O. Qoşqarlı bunun yerli albanlara mənsub olduğunu bildirirdi. Bu fikrini əsaslandırmaq üçün o, qəbirə qoyulan avadanlığın yerli alban avadanlığı olduğunu və öz analogiyasını başqa tip qəbir avadanlıqları arasında tapdığını vurğulayırdı (5, 71-72).

E.ə sonuncu əsrlər və e. I əsrində Albaniyanın ərazisində torpaq və küp qəbirlərindən əlavə təknə qəbirləri də mövcud olmuşdur. Bu tip qəbirlər Azərbaycanın kiçik bir hissəsində qeydə alınmışdır. Bura İsmayıllı, Qəbələ, Göyçay, Şamaxı zonaları aiddir. Bu tip qəbirlərin tədqiqinə XX əsrin 30 - cuillərindənbaşlanmışdı. İlk dəfə olaraq Y.A. Paxomov İsmayıllı rayonunda (Mollaisaqlı kəndində) aparılmış qazıntılar zamanı əldə edilmiş maddi – mədəniyyət qalıqları ilə yanaşı, təknə qəbir qalıqlarının da tapılmasını qeyd edir Daha sonra 1944 – cü ildə Qəbələdə aparılmış qazıntılar zamanı bu tip qəbir aşkar edilmışdi. Bu cür abidələrdən biri Göyçayda və 1949 - cu ildə Mingəçevirdə arxeoloji qazıntılar zamanı III yaşayış yerindən aşkar edilmişdi (5, 76).

Qeyd edilməlidir ki, Azərbaycandan müxtəlif vaxtlarda hər dəfə bir ədəd (cəmi 3 ədəd) olmaqla aşkar edilmiş təknə formalı qəbirlərin ayrıca öyrənilməsi üçün imkan olmadığından onlar haqqında bu və ya başqa yerlərdə yalnız hesabat xarakteri daşıyan qısa məlumat vardır. Digər tərəfdən həmin abidələrin dağıdılmış formada tapılması onların elmi cəhətdən öyrənilməsi işini çətinləşdirir. Lakin sonralar İsmayıllı rayonu ərazisində təşkil olunmuş arxeoloji kəşfiyyat səfərləri zamanı gil təknə formalı qəbirlər nisbətən diqqətlə izlənmişdir (7, 97). Belə ki XX əsrin 60–70–ci illərində F.L. Osmanov tərəfindən İsmayıllı rayonunda (Mollaisaqlı, Qalagah, Qışlaq, Sultankənd, Şıxdərə kəlləsi) aparılmış arxeoloji tədqiqat və qazıntı zamanı təknə qəbirlərinin müxtəlif formaları aşkara çıxmışdır. Belə qəbirlər gildən bişirilərək hazırlanırdı. Bu tip qəbirlərə həm oval, həm də dördkünc formada rast gəlinir. Ölünü qəbirə sıx bükülmüş vəziyyətdə, sağ və ya sol böyrü üstə qoyurdular. Dəfn edilmiş şəxsin başı şimal – şərq, cənub–şərq, şimal – qərb istiqamətində qoyulurdu. Göründüyü kimi səmtlər müxtəlifdir. Küp və torpaq qəbirlərində olduğu kimi bu qəbirlərdə də ölünün yanına müxtəlif avadanlıqlar və bəzək əşyaları qoyulmuşdu. Təknə qəbirin yanında tapılmış avadanlığın əsas hissəsini gil qablar təşkil edir. Həmin qablar isə qəbrin məxsus

olduğu dövrün müəyyənləşdirilməsində mühüm rol oynayaraq, onların da küp qəbirləri və Yaloylutəpə mədəniyyəti dövrünə aid olduğunu göstərir.

Təknə qəbirlərinin yanından tapılmış qablar, əsasən içki üçün olan, ağzı novçalı və süzgəcli düzəldilmiş qablardan, təkayaqlı vazalardan, kiçik şar formalı qabdan ibarətdir. Sarkofaqda avadanlıqlarla yanaşı çox sayda tunc, şüşə, pasta, mərmər və s. ibarət muncuqlar, tunc bilərziklər, üzüklər, müxtəlif sırğalar və üzərində maral təsviri olan medalyon aşkar edilmişdi. Təknə qəbirlərdən həmçinin zoomorf fiqurlar və antropomorf heykəllər də tapılmışdı. Bütün bu materiallara istinad edən tədqiqatçılar bu qəbirləri e.ə III - e. I əsrinə aid edirlər. Belə ki, bu avadanlıqlar e.ə. IV - I əsrlər çərçivəsinə aid edilən məişət avadanlıqları ilə oxşardır (7, 100-101).

Təknə formalı qəbirlərin analogiyasına Şərq ölkələrində aparılmış qazıntılar zamanı rast gəlinmişdi. Belə ki, Suzda (təknə formalı tunc sarkofaq) və Persopolda (gil tabut) aparılmış qazıntılar zamanı bu tip qəbirlər aşkara çıxarılmışdı. Bu qəbirlər öz formasına, ölçüsünə və istiqamətinə görə, istərsə də mövcud olduğu dövrə görə Azərbaycan ərazisindən aşkar edilmiş gil tabutlardan elə də fərqlənmir. E. F. Şmittİranda, Orta Asiyada və digər Şərq ölkələrində mövcud olan bu tip qəbirlərin atəşpərəstliklə əlaqədar meydana gəldiyini qeyd edirdi. F.L. Osmanov təknə qəbirlərin Azərbaycanda mövcudluğunu qeyri–alban elementi ilə, daha dəqiq desək Parfiya elementi ilə əlaqələndirirdi. O, yazırdı: "Saxsı tabutlarda dəfn adətinin mənşəyinə gəldikdə qəti surətdə demək olar ki, bu yerli əhali deyildi, ola bilsin ki, Parfiya dövründə ölünü, Mollaisaqlıda olduğu kimi, xüsusi saxsı tabutlarda dəfn edən Yaxın Şərq, yaxud Mesopotomiyavilayətlərindən olan gəlmələr idi". Müəllif, həmçinin bu qəbirlərdən tapılmış antropomorf heykəllərin, İosif Flaviyə istinad edərək parfiyalılara aid olduğunu qeyd edirdi (7, 101-103).

Deyilənləri ümumiləşdirərək təknə tipli qəbirlərin Azərbaycanda Parfiya elementinin təsiri altında e.ə IV – I əsrdə yayıldığını qeyd etmək olar. Bu dövr təxminən Yaloylutəpə mədəniyyəti ilə eyni dövrə təsadüf edir. Sonda qeyd edək ki, bu adət bəzi hallarda erkən orta əsrlərdə də qeydə alınmışdır.

Azərbaycan ərazisində rast gəlinən qəbirlərdən biri də e.ə. I minilliyin sonundan Azərbaycan ərazisində məlum olan və e. I əsrindən daha geniş yayılmağa başlayan katakombalardır (yeraltı sərdabələr). Bu tip qəbirlər Mingəçevir, Qəbələ, Qax (Torpaqqala), Qazax (Babadərviş), həmçinin Dağıstan ərazisində aşkara çıxarılmışdı. Katakomba qəbirlərinin Albaniya dövlətinin müxtəlif ərazilərində aşkar edilməsinə baxmayaraq bu qəbir tipinin

ilk və geniş təmsil olunduğu ərazi müasir Mingəçevirdən 6 km şimal-qərbdə yerləşən Sudağılan və Qalaötadlandırılan ərazidir. Burada 1949 - 1953-cü illərdə aparılan qazıntı işləri zamanı ərazidən ümumilikdə 200-dən çox katakomba qəbri aşkar edilmişdi (1, 48-52). Buna görə də Azərbaycan Albaniya dövləti ərazisində meydana gələn katakomba qəbirləri haqqında yalnız Mingəçevirdən aşkar edilən katakombalar əsasında müəyyən fikir yürütmək mümkündür. Mingəçevir katakombaları özünəməxsus quruluşa malikdir. Katakombalar adətən 4 - 6 m dərinlikdə yerləşib, gümbəzvari quruluşa malikdir; dromos əksəriyyət etibarilə qəbir kamerasına nisbətən perpendikulyar vəziyyətdə durur. Antik dövrə aid olan ilk katakombalarda ölünü küp və taxta qutularda dəfn edirdilər. Uzun (2-m) və enli (0,6 -1,1 m) yeraltı dəhlizdən keçib dördkünc və ya ovalşəkilli oyuqdan məqbərəyə keçirdilər. Tək dəfnlə yanaşı, kollektiv və qoşa dəfnə də rast gəlinir (3, 74). Ölünü sıx bükülmüş vəziyyətdə sol böyrü üstə qoyurdular. Bəzi qəbirlərdə deformasiya olunmuş kəllələrə rast gəlinir. Qəbirə qoyulan avadanlıq ya tabutun içinə, ya da qırağına qoyulurdu. Bu avadanlığa saxsı qablar, əmək aləti, silah, bəzək əşyaları, şüşə məmulatlar daxil idi. Katakombalardan Roma və Parfiya pulları aşkara çıxarılmışdır. Bu numizmatik materiallar erkən katakombaları b.e. I əsrinə aid etməyə imkan verir (7, 104).

F.L. Osmanovun fikrincə katakomba qəbirləri sarmat - massaget - alan dairəsinin tayfalarının təsiri nəticəsində yayılmışdı (7, 104). K.H. Əliyev isə katakomba qəbirlərinin mənşəyini Orta Asiya ilə bağlayırdı. O, yazırdı: "Oxşar qəbir adəti....təkcə hələ b.e.ə. IV – III əsrlərdə katakomba qəbirlərinin yarandığı şimali Xəzərətrafında deyil....eləcə də Xəzər dənizinin qərbindəki və şərqindəki böyük ərazidə yayılmışdı. Belə ki, Orta Asiyada çoxlu sayda katakomba və yeraltı sərdabələr qeydə alınmışdır; onlara Fərqanədəki, Daşkənd vahəsindəki, Talas vadisindəki nekropollar aiddir" (3, 74).

Göründüyü kimi katakomba qəbir tipi Albaniya üçün səciyyəvi deyil. Bu mədəniyyətin daşıyıcaları üçün kəllə sümüyünün deformasiyası xarakterikdir. Həmçinin Albaniya ərazisində mövcud olmuş digər qəbir abidələrinə nisbətən burada gil qabların azlığına və şüşə qabların çoxluğuna rast gəlinir.

Nekropollardan aşkara çıxarılan materiallar Albaniya ərazisində yaşayan tayfaların etnik xüsusiyyətlərini müəyyən etməyə imkan verir. Aşkar edilən bu materiallar forma və növlərinə görə bir-birindən fərqlənir. Buna rəğmən bəzi nümunələrə müxtəlif tipli nekropollarda rast gəlinir. Belə ki, gil qabların bir neçə formasına demək olar ki, bütün qəbirlərdə rast gəlinir. Bunlara qulplu və qulpsuz kasalar, uzunboğaz iki qulplu və ya tayqulplu

küplər və s. aiddir. Amma elə saxsı qablarda var ki, onlar yalnız bir arxeoloji mədəniyyət üçün xarakterikdir. Eyni şey ornamentlərə də aiddir. Məsələn, torpaq qəbirlər üçün batıq və qabarıq ornamentləri olan, küp qəbirləri üçün isə qabarıq və batıq ornamentlərdən başqa qırmızı boyalı ornamenti olan qablar xarakterikdir. Qəbir abidələrində müşahidə edilən fərqlər onların mənsub olduğu tayfaların ayrı - ayrı arxeoloji mədəniyyətin daşıyıcıları olduğunu düşünməyə əsas verir ki, bu da yazılı mənbələrdə, Albaniya ərazisində, müxtəlif tayfaların mövcud olması ilə bağlı verilən məlumatlarla üst-üstə düşür.

## ƏDƏBİYYAT

1. Xəlilov M.C. Albaniyanın qəbir abidələri (IV-X əsrlər). Bakı: Nafta-Press, 2009, 180 s.
2. Алиев И.Г., Османов Ф. Л. Ванночные погребения на территории Кавказской Албании и вопрос о парфянском элементе в юго – восточном Закавказье // Известия АН Азерб. ССР, серия истории, философии и права, 1989, № 1, с. 56 – 67.
3. Алиев К.Г. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.
4. Бабаев И.А. Города Кавказской Албаниив IV в. до н.э. - III в. н.э. Баку: Элм, 1990, 236 с.
5. Гошгарлы Г.О. Погребения в каменных яшиках античного периода на территории Азербайджана. // Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2006
6. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, 248 с.
7. Османов Ф.Л. История и культура Кавказской АлбанииIV в. до н. э. -III н. э. (на основании археологических материалов). Баку: Тахсил, 2006, с. 288 с.
8. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в.н.э.- VII в.н.э.). Москва - Ленинград: Изд – во АН ССР, 1959, 389 с.
9. Халилов Дж.А. Матеральная культура Кавказской Албании.Баку: Элм, 1985, 277 с.

# THE ETHNOGENETİC PROBLEMS OF ANCİENT ALBANİA ACCORDİNG TO ARCHAEOLOGİCAL DATA SOURCES

***Rukhsara Guliyeva***

***Summary***

**Keywords: ground-grave, pit-grave, trough-grave, jar-grave, adobe-grave, wooden (tree) coffin-grave, stonebox-grave, catacomb-grave**. Study of the history of ancient Albania are mainly related to two types of sources: the news nonindigenous ancient authors who applied to the data to individual straveling in the Caucasus, and already local archaeological source material and an independent and wealthy. A number of writers and geographers, who lived a few centuries ago, gave a number of valuable information about the ethnic composition of Albania, without which it would be difficult to say any word about the ethnic composition. Difference Ethnicity of the population is provenin addition to the written sources, by archaeological cultures, found in the territory of Albania. Differences of the population along with the written sources also proves archaeological culture found in Albania. During archaeological excavations were found ground, raw, amphora, bath, catacomb tomb. One of the interesting questions is that graves were totally different from each other in shape and orientation.

Also, materials found in necropolis differ from each other in shape and form. Despitethis, some examples are encountered in different types of necropolis. The observed differences in the grave monuments, gives reason to believe that tribes to which they belong carriers separate archaeological culture that coincide information the written sources of regarding the existence of various tribes in Albania. The observed differences in the funerary monuments, gives reason to believe that the tribes that they belong, to carriers a separate archaeological culture, it is also coincide information in written sources about the existence of various tribes in Albania.

# ПРОБЛЕМЫ ЭТНОГЕНЕЗА АНТИЧНОЙ АЛБАНИИ ПО ДАННЫМ АРХЕОЛОГИЧЕСКИХ ИСТОЧНИКОВ

***Рухсара Гулиева***

***Резюме***

**Ключевые слова: Захоронения в грунтовых могилах, кувшинные погребения, погребения в каменных ящиках, погребения в сырцовых гробницах, погребения деревянных срубах, погребения в глиняных саркофагах, катакомбные погребения.**

Изучение истории древней Албании связано главным образом с двумя видами источников: известиями античных авторов, обращавшихся к сведениям лиц, побывавших на Кавказе, местным археологическим материалам-источником независимым и богатым. Древние писатели и географы дали ряд ценных сведений без которых было бы трудно говорить об этническом составе Албании. Наряду с письменными источниками, археологические культуры найденные на территории Албании тоже доказывают различие населения этой страны. Во время археологических раскопок были найдены грунтовые, сырцовые, кувшинные, ванночные и катакомбные погребения. Следует отметить, что эти могилы полностью отличаются друг от друга по форме и ориентации. Те факты обнаруженные в некрополе, также отличаются друг от друга по форме и виду. Наблюдаемые различия в погребальных памятниках, дают основание полагать, что племена которым принадлежат эти памятники, являлись носителями отдельных археологических культур,что совпадает с информацией письменных источников относительно обитания различных племен на территории Албании.

# QAFQAZ ALBANİYASININ TƏSƏRRÜFATI YAZILI VƏ ARXEOLOJİ MƏNBƏLƏR KONTEKSTİNDƏ

**Laçın Mustafayev**
qafqaz8310@rambler.ru
(AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi)

**Açar sözlər: Qafqaz Albaniyası, təsərrüfat, əkinçilik, heyvandarlıq, atçılıq.**

Qafqaz Albaniyasında təsərrüfatın bir çox sahələri, xüsusilə, maldarlıq və əkinçilik geniş inkişaf etmişdir. Əkinçilik və bağçılıq təsərrüfatı üçün yararlı torpaq sahələrinin çoxluğu buna müsbət təsir göstərən əsas amillərdən biri olmuşdur. Azərbaycanın mülayim iqlimi və geniş otlaq sahələri maldarlığın genişləndirilməsinə və artırılmasına imkan verirdi. Bu təsərrüfatda müxtəlif növ ev heyvanları saxlayırdılar. Qafqaz Albaniyasında təsərrüfatın inkişafı ilə bağlı dediklərimizi arxeoloji qazıntılardan əldə olunan bağ və əkinçilik məhsullarının qalıqları, eləcə də ev heyvanlarının sümükləri təsdiq edir. Bu tapıntılar Qafqaz Albaniyası əhalisinin təsərrüfat həyatı haqqında mühüm məlumat mənbəyidir. Antik mənbələrdə də Qafqaz Albaniyasının təsərrüfat həyatı haqqında xeyli maraqlı məlumatlar verilmişdir.

Antik mənbələr müxtəlif zamanlarda və fərqli mühitlərdə ərsəyə gəldiyindən bəzən burada verilən məlumatları həqiqət kimi qəbul etmək bir qədər çətin olur. Hesab edirik ki, Qafqaz Albaniyası əhalisinin təsərrüfatını araşdırmaq üçün antik müəlliflərin əsərləri ilə yanaşı arxeoloji tapıntıları da tədqiqata cəlb etmək daha faydalı ola bilər. Bu zaman qarşıya çıxan problemləri və anlaşılması çətin olan məsələləri həll etmək üçün antik mənbələr, həm də arxeoloji materiallar sayəsində aydınlıq gətirilə bilər. Bunun üçün antik mənbələri düzgün xarakterizə etmək, arxeoloji artefaktları isə doğru dəyərləndirmək lazımdır.

Qafqaz Albaniyasının təsərrüfatının öyrənilməsi geniş həcmdə və müxtəlif rakurslarda aparılmışdır. Bu tədqiqatlar indinin özündə də davam etməkdədir. Qafqaz Albaniyasının təsərrüfatında aparıcı yer tutan əkinçiliyin, maldarlığın, bağçılığın və s. sahələrin öyrənilməsinə arxeoloqlar S.M.Qazıyev, C.Ə.Xəlilov, İ.A.Babayev, F.L.Osmanov, tarixçi alim K.Əliyev və digərləri kifayət qədər geniş diqqət ayırmışlar.

Qafqaz Albaniyasının təsərrüfat həyatı haqqında antik müəlliflərdən Strabon, Plini, Klavdi Elian, Yuli Solin və digərləri tərəfindən maraqlı

məlumatlar verilmişdir. Müəlliflər öz əsərlərində Qafqaz Albaniyası əhalisinin məşğuliyyəti və təsərrüfat həyatı haqqında bəzi hallarda ən kiçik epizodları belə qeyd etmişlər. Arxeoloji qazıntılar nəticəsində aşkarlanan, Qafqaz Albaniyasının təsərrüfat həyatını özündə əks etdirən əşyavi materiallar isə mənbələrdə söylənənləri bir daha təsdiq edir. Yaşayış yerlərinin, qəbir abidələrinin, ərzaq saxlamaq üçün nəzərdə tutulmuş tikililərin, eləcə də onların içərisindəki təsərrüfat quyularının və küplərinin öyrənilməsi Qafqaz Albaniyasının təsərrüfatı haqqında dolğun təsəvvür yaradır.

Təsərrüfatın inkişafı, o cümlədən, əkinçilik və maldarlıq məhsullarının artımı ticarətə də təsirsiz ötüşməmişdir. Belə ki, Qafqaz Albaniyasında əldə edilən müxtəlif çeşidli təsərrüfat məhsullarının xarici ölkələrə ixracı ticarət əlaqələrinə müsbət təsir göstərmişdir. Məhz ticarət vasitəsilə antik dünya mədəniyyəti Qafqaz Albaniyasının maddi mədəniyyətinə təsir edə bilmişdi. Bildiyimiz kimi bu dövrdə Selevki, Parfiya, Roma və s. ölkələrlə Qafqaz Albaniyasının ticarət və mədəni əlaqələri olmuşdur. Elə bu ölkələr vasitəsilə antik mədəniyyət Qafqaz Albaniyasının maddi mədəniyyətinə tədricən sirayət etmişdir.

Antik müəlliflərdən Strabonun əsərində Qafqaz Albaniyasının təsərrüfat həyatı haqqında zəngin məlumat vardır. Strabon Qafqaz Albaniyasının zəngin təbiətini təsvir edərək buraya qonşu olan ərazilər və buradan axan çaylar, həmçinin yerli tayfalar, onların məşğuliyyəti barəsində xeyli məlumat vermişdir (15). Mənbədə göstərilir ki, albanlar maldarlığa daha çox meyllidirlər. Strabon eyni zamanda albanların köçərilərə yaxın olduqlarını və bir o qədər də döyüşkən olmadıqlarını vurğulamışdır (15, s. 475). Köçərilərə yaxınlıq məsələsi belə izah edilə bilər ki, ola bilsin, xırdabuynuzlu heyvan sürülərinin çoxluğu ilə əlaqədar bu maldarlıqla məşğul olan tayfalar yayda yaylağa, qışda isə qışlağa köçmüş, həmin səbəbdən müəllif tərəfindən köçərilərə bənzədilmişlər.

Qafqaz Albaniyasında maldarlığın inkişaf etməsini və təsərrüfatda mühüm yer tutmasını arxeoloji qazıntılar nəticəsində tapılan çoxsaylı iri və xırdabuynuzlu heyvanlara məxsus osteoloji materiallar da təsdiqləyir. İri və xırdabuynuzlu heyvanlardan ət, dəri, yun və ağartı məhsulları əldə edilirdi ki, bu da əhalinin məişətində xüsusi yer tuturdu (1, s. 371-373). Aparılan arxeoloji qazıntılar zamanı müxtəlif heyvan sümükləri ilə yanaşı, gildən düzəldilmiş at, keçi, it, öküz fiqurları da tapılmışdır (6, s.107-110). Belə ki, Mingəçevirdə aparılan qazıntılar nəticəsində gildən öküz başını və inəyi xatırladan plastik nümunələr, Şıxdərə-kəlləsi abidəsindən isə ayaqları sındı-

rılmış at fiqurları tapılmışdır (7, s. 96-100). Belə fiqurlar dini ayinlərin icrası zamanı istifadə olunan vasitə kimi də qeyd edilə bilər. Ola bilsin, yerli tayfalar bu heyvanlara öz inanclarına rəğmən müqəddəs kimi baxmışlar.

Məlumat üçün deyək ki, antik dövrdə çox zaman ölü ilə birlikdə qəbrə müxtəlif heyvanların cəmdəkləri də qoyulurdu. Yaloylutəpədə aşkar olunan qəbirlərdə iri və xırdabuynuzlu heyvanlarla bərabər, donuz, quş və vəhşi qaban sümüklərinə təsadüf olunmuşdur (10, s. 46-49). Belə hallara Qəbələ və Şamaxıda aparılan arxeoloji qazıntılar zamanı da rast gəlinmişdir (8, s. 125-128). Tədqiqatlar zamanı Mingəçevirdə və C.Ə.Xəlilovun rəhbərliyi ilə Şamaxıda açılan qəbirlərdə əsasən xırda buynuzlu heyvanların ölü ilə birlikdə qəbrə qoyulmasının üstünlük təşkil etməsi izlənilmişdir (6, s. 107-108; 18, s. 211).

Qazıntılarda müxtəlif formalı saxsı qabların, o cümlədən, sərnicəoxşar qablar, güvəc, çölmək və s. tapılması ağartı məhsullarından geniş istifadə edildiyini göstərir (6, s. 108). Şübhəsiz ki, məhsulu toplamaq üçün gil məmulatlarına olan ehtiyac uzun zaman ərzində insanları bu sahəyə uyğun və ələ yatımlı olan saxsı qabların istehsalına təhrik etmişdir. Bu da özlüyündə müxtəlif tip saxsı qabların yaranmasına səbəb olmuşdur. Məsələn, süddən müxtəlif növ ağartı məhsulları əldə etmək üçün qədim dövrlərdən bəri istifadə edilən nehrə tipli gil qabdan antik dövrdə də geniş istifadə olunmuşdur (5, s. 80).

Arxeoloq İ.A.Babayev Mingəçevir, Qəbələ, Şamaxı və digər ərazilərdən gen ağızlı, orta ölçülü saxsı qabların tapılması faktını məhz maldarlıqla əlaqələndirir. Arxeoloq bu tip qabların heyvandarlıqda əldə olunan ağartı məhsullarının toplanması üçün istifadə edildiyini göstərir, heyvandarlığın Qafqaz Albaniyasının bütün ərazisində yayıldığını, məhsulların mübadilə yolu ilə şəhərlərə gətirildiyini qeyd edir (8, s. 126-127). Yerli maldarlar yaylaq və qışlağa köçərkən minik və yük daşımaq üçün at, dəvə, ulaq, hətta öküzlərdən də istifadə etmişlər. Bu heyvanlar vasitəsilə Qafqaz Albaniyası əhalisi beynəlxalq ticarətə qoşulmuşdur. Çünki uzaq məsafəni qət etmək üçün, eləcə də yerli istehsalı xarici bazara çıxarmaq üçün at və dəvə kimi minik vasitələrindən istifadə edilmişdir. Bu heyvanlar ticarətdə insanların həm nəqliyyata, həm də yük daşınmasına olan tələbatını ödəmişdir.

Atların müharibə və yürüşlərdə xüsusi mövqeyə malik olmasını antik müəlliflər də qeyd etmişlər. Strabon albanlar haqqında məlumat verərək yazmışdır ki, Pompeyə qarşı döyüşə albanlar 60 min piyada və 22 min atlı

çıxarmışlar (15, s. 476). Bu bir daha onu göstərir ki, Qafqaz Albaniyasında atın bəslənilməsinə xüsusi diqqət yetirilmişdir.

Qafqaz Albaniyasının təsərrüfat həyatına, xüsusən, heyvanat aləminə aid Klavdi Elianın maraqlı məlumatları vardır. Müəllif göstərir ki, Kaspi torpaqlarında saysız miqdarda öküz sürüləri və at ilxısı vardır. Bundan əlavə müəllif burada minik kimi dəvədən də istifadə edildiyini göstərir. Klavdi Elian Kaspi ərazisində nəhəng gölün olduğunu və bu göldə itiburun adlanan iri balıqların üzdüyünü göstərir. Albanlar bu balığı ovlayıb, ondan ərzaq kimi istifadə edir, həmçinin balığı duzlayıb qurudaraq dəvələrə yükləyib Ekbatanaya aparırlar. Müəllif yazır ki, burada dəvələr çoxdur, onların ən böyüyü ən iri at boyda olub, çox incə yunu vardır ki, hətta Milet yunundan da zərifdir. Bu yundan toxunma paltarı isə ən nüfuzlu kaspilər geyinirlər (12, s. 223-226).

Heyvandarlığın inkişafı antik dünya ölkələri ilə ticarət və qarşılıqlı mədəni əlaqələrə də müsbət təsir göstərirdi. Arxeoloq İ.A.Babayev V.N. Leviatovun və K.V.Treverin fikirlərinə qoşularaq qeyd edir ki, Elianın məlumatı əhalinin yüksək səviyyəli mədəniyyətə malik olmasını təsdiqləyir (8, s. 128). K.V.Trever, həqiqətən də, o dövrdə Kaspi sahilində bu sahədə uğur əldə etmiş, yüksək mədəniyyətə malik xalqın yaşadığını göstərir (16, s. 78).

Mingəçevir, Qəbələ, Şamaxı, Ağsu, İsmayıllı və s. kimi rayonlarda aparılan arxeoloji qazıntılar nəticəsində yaşayış yerləri və müxtəlif tipli qəbirlərdən iri buynuzlu heyvan, it, ev quşları, donuz, at sümükləri ilə bərabər, vəhşi heyvan sümüklərinin qalıqlarına da rast gəlinmişdir. Tədqiqatçılar bunu Qafqaz Albaniyasının zəngin heyvanat aləminə malik olması və yerli əhalinin ovçuluq vasitəsilə ərzaq ehtiyatını artırması kimi səciyyələndirirlər (8, s. 125-128; 6, s. 107-110; 17, s. 166-167; 7, s. 96-100). Son dövrün tədqiqatları da bu fikri təsdiqləməyə əsas verir.

Vəhşi heyvanların çoxluğu yerli əhalinin ovçuluğa olan marağını da artırırdı. Ovçuluq Qafqaz Albaniyası əhalisinin həyatında dəyərli rola malik yardımçı bir peşə olmuşdur. Bu həm ərzaq ehtiyatını artırmaq üçün məşğuliyyət, həm də gənc nəslin gələcək döyüşlərdə uğur əldə etməsi üçün bir təlim idi. Bu işdə onlara itlər kömək etmişlər. Qafqaz Albaniyasında saxlanılan itlər barəsində biz arxeoloji materiallardan və antik mənbələrdən məlumat əldə edə bilərik. Azərbaycanda itlərin saxlanmasına və Qafqaz qoyun iti cinsinin olmasına digər ədəbiyyatlarda tez-tez rast gəlinir. İtlər mal-qaranın, ümumiyyətlə, ev heyvanlarının yırtıcılardan qorunması işində insanlara həmişə yardımçı olmuşlar. Antik müəlliflərdən Yuli Solin albanların itləri

haqqında məlumat verərkən qeyd edir ki, bu itlərin hədsiz böyük gövdələri və qulaqbatırıcı səsi var. Albanlar bu itlərdən yırtıcılara qarşı istifadə edir və onlar dişlərinə keçən hər şeyi tutub saxlayır, hətta şirə belə qalib gəlir. Həmin səbəbdən yazılarda bu itlər xatırlanır. Müəllif iki belə itin alban hökmdarı tərəfindən Hindistana yürüşü zamanı Makedoniyalı İsgəndərə hədiyyə olaraq göndərilməsi barəsində də qeyd etmişdir (13, s.242-243). Qafqaz cinsli itin albanların təsərrüfatında mühüm rola malik olması faktını arxeoloji qazıntılar da sübut edir. Şamaxı və Qəbələdən tapılan it fiquru və sümükləri bu faktı təsdiqləyir (6, s. 110).

Ev quşlarından geniş istifadə olunmasını arxeoloji qazıntılar nəticəsində yaşayış və qəbir abidələrindən tapılan quş sümükləri göstərir. Həmçinin müxtəlif tipli quş formalı zoomorf qablar və üzəri quş təsvirli gil qab nümunələrinin aşkarlanması Qafqaz Albaniyasında quşçuluğun mövcudluğundan xəbər verir (6, s. 109-110).

Qafqaz Albaniyasında təsərrüfat həyatının mühüm bir hissəsini əkinçilik təşkil edirdi. Azərbaycanın əlverişli coğrafi şəraitə malik olması ən qədim dövrlərdən burada əkinçilik ənənələrinin yaranmasına səbəb olmuşdur. E.ə. VIII minillikdən – Neolit dövründən etibarən bu ərazilərdə əkinçiliyin ilk ünsürləri sezilir (1, s. 86-88). Eneolit dövründə isə Azərbaycan ərazisində oturaq həyat tərzi sürən qəbilələrin məskən salması əkinçilik ənənələrinin möhkəmlənməsi və inkişafına təkan vermişdi. Bu dövrdən etibarən əkinçi və maldar tayfaların təsərrüfatında əkinçilik və maldarlığın əsas sahəyə çevrilməsi baş verir (1, s. 94-100). Antik dövrdə isə əkinçilik Qafqaz Albaniyası əhalisinin kənd təsərrüfatında mühüm rol oynayan sahələrindən biri idi. Qafqaz Albaniyasında əkinçiliyə yararlı torpaq sahələrinin geniş əraziləri əhatə etməsi ölkə ərazisinin əksər hissələrində əkinçiliyin yüksək inkişafı ilə səciyyələnir. Bu faktı Qafqaz Albaniyası ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan dənli bitki qalıqları, əkinçilikdə istifadə edilən əmək alətləri və antik qaynaqların verdikləri məlumatlar təsdiqləyir.

Strabon Qafqaz haqqında məlumat verərkən, Qafqaz Albaniyası ərazisindən axan Kür və Araz  çayları boyunca otlaqlarla zəngin düzənliklərin olduğunu, digər çayların da onlarla birləşib daha sonra Kaspi dənizinə töküldüyünü göstərir (15, s. 474). Müəllif Qafqaz Albaniyasından keçən Kür çayının ona tökülən digər çaylarla birlikdə torpağın məhsuldarlığını artırdığını bildirir (15, s. 475). Strabon Qafqaz Albaniyası əhalisinin öz torpaqlarından lazımi dərəcədə istifadə etmədiklərini söyləyir. Müəllif qeyd edir ki, bu torpaq heç bir qulluq tələb etmədən cürbəcür bostan məhsulları ilə bərabər,

hər cür bitkilər yetişdirmək iqtidarındadır. Digər müəlliflərin dediklərinə görə bir dəfə əkilən torpaq 2 və 3 dəfə məhsul verir ki, birinci məhsul, səpiləndən 50 dəfə artıq alınır. Tarla dincə qoyulmadan dəmir kotanla deyil, ağac xışla şumlanır. Burada suvarma sistemindən də səmərəli istifadə edildiyini, hətta bu işin Babilistan və Misir torpaqlarının suvarılmasından daha yaxşı üsulla aparıldığını qeyd edir. Elə bu səbəbdən də burada hər zaman torpaqların sıx otlu görünüşünü saxladığını, iqlimin isə həmin ölkələrdən mülayim olduğunu yazır (15, s. 475-476). Əkinçiliyin inkişafına mane olan əsas səbəb kimi isə köçərilərin əkinçiliklə məşğul olan tayfaların üzərinə hücumu göstərilir (15, s. 476).

Əkinçilk yalnız ölkə ərazisinin bu sahə üçün yararsız olan ərazilərində zəif inkişaf etmişdir. Arxeoloqların araşdırmaları nəticəsində məlum olmuşdur ki, antik dövrdə Mingəçevir, Qəbələ, Şamaxı, İsmayıllı, Ağsu və s. rayonların ərazisində mövcud olan yaşayış məskənlərinin ətrafındakı yararlı torpaqlarda əkinçilik geniş inkişaf etmişdir. Yaşayış yerləri və qəbir abidələrindən əkinçiliyə aid əmək alətləri və digər materialların tapılması buna bariz nümunədir.

Antik dövrdə Qafqaz Albaniyasında dənli bitkilərin bir sıra növləri becərilirdi. Arxeoloji qazıntılar nəticəsində buğda, arpa, darı, çovdar kimi dənli bitki qalıqları aşkar edilmişdir (9, s.39-46). Bir sıra tədqiqatçılar antik mənbələrə əsaslanaraq torpağın becərilməsində ağac xışdan istifadə olunduğunu qeyd edirlər (8, s. 118-120; 6, s. 102-106). Bundan əlavə torpaq işləri görülərkən digər əmək alətlərindən də istifadə edilmişdir. K.Əliyev təsərrüfatda torpaq işləri görülərkən arxeoloqlar tərəfindən izləri aşkar edilmiş kürək, bel kimi əmək alətlərindən istifadə edildiyini qeyd edir (3, s. 80-86). Ümumiyyətlə, əkinçilik işlərinə aid əmək alətləri Yaloylutəpə, Mollaisaqlı, Nüydi, Qalagah, Qəbələ, Şamaxı, Mingəçevir və s. yaşayış yerlərindən tapılmışdır. Tapılan dən daşları, kirkirələr, dəmir oraq, təsərrüfat küpləri Qafqaz Albaniyası əhalisinin bu sahədəki fəaliyyətinin əsas göstəricisidir (6, s. 103-105). Bu tapıntılar məhsul yığımı zamanı hansı əmək alətlərindən və toplanan məhsuldan necə istifadə edildiyini göstərir. Yaşayış yerlərindən aşkar olunan arxeoloji tapıntılar qədim sakinlərin qida məhsullarının saxlanılmasında ərzaq anbarlarından, xüsusilə, müxtəlif ölçülü küplərdən və təsərrüfat quyularından yararlandığını söyləməyə əsas verir. Eyni zamanda müxtəlif tip qəbir abidələrində də içərisində ərzaq qalıqlarına təsadüf edilən saxsı küplərə rast gəlinmişdir (17, s. 164-165; 9, s. 39-46). O dövrdə dənli bitkilərin saxlanılması üçün məhz bu üsullardan istifadə olunmuşdur. Taxılı quyularda saxla-

maq üsulu əsasən Şamaxı rayonu ərazisində yerləşən antik dövr yaşayış qeydə alınmışdır (17, s. 164-165).

2013-cü ildə Qəbələdə Antik şəhər yerində qazıntılar zamanı içərisində yanğın nəticəsində yanıb kömürləşən çoxlu arpa qalıqları olan quyu aşkar edilmişdir. Belə quyular taxılın saxlanması üçün xüsusi olaraq qazılırdı. Taxılın küplərdə saxlanması isə bir çox ərazilərdə yayılmışdır. Qəbələnin antik şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində bu ərazidə yerə basdırılmış çoxlu təsərrüfat küpləri aşkar edilmişdir. Küplər bir-birinə yaxın yerləşib, iri anbarı xatırladır. Bu küplərdə müxtəlif ərzaq növləri və çox güman ki, şərab saxlanmışdır. Küplərin bəziləri qırıq, digərləri isə istifadəyə yararlı ikən yerindən çıxarılmışdır. Küplərin yerləşdiyi alt təbəqədən üstdə bir neçə təsərrüfat quyusu da aşkar edilmişdir.

Bu cür hallara Mingəçevir şəhərinin ərazisində də rast gəlinir. Arxeoloji qazıntılar nəticəsində Mingəçevirdə yaşayış yerləri, müxtəlif tip qəbirlər, memarlıq abidələri, bəzək əşyaları, pullar, möhürlər, başqa ölkələrdən gətirilən digər maddi mədəniyyət nümunələri aşkarlanaraq tədqiq edilmişdir (2, s. 42-43). Aşkar olunan təsərrüfat küpləri və ərzaq quyuları da arxeoloqlar tərəfindən tədqiq edilmişdir. Mingəçevirdə 1949-cu ildə 3 №-li uşaq küp qəbrindən buğda və arpa qalıqları tapılmışdır. Belə tapıntılar Kür çayının Mingəçevir ərazisindən keçən hər iki sahilində müşahidə edilmişdir (9, s. 39). Taxıla olan tələbat Qafqaz Albaniyası əhalisinin əkinçilik sahəsində yeni nailiyyətlər əldə etməsinə təkan vermişdir. Bu uğurları həm taxılın əkilib-becərilməsində, saxlanmasında və tələbata uyğun müxtəlif çeşidli qida məhsulları kimi emal edilməsində istifadə edilən əmək alətlərində və onların təkmilləşdirilməsində, həm də müxtəlif növlü mədəni dənli bitkilərin yetişdirilməsində izləmək mümkündür.

T.İ.Qolubkina tədqiqatlarının birində Mingəçevirdə tapılan darının V.A.Petrov tərəfindən maraqla qarşılandığını qeyd edir. Müəllif göstərir ki, bəzi tədqiqatçıların fərziyyəsinə görə, bu tapıntı Pireney yarmadası mədəniyyətinə daxildir. Digərləri isə bunu Kiçik Asiyaya aid mədəniyyət ünsürü hesab edirlər. V.A.Petrov isə hesab edir ki, bu mədəniyyət Azərbaycan ərazisində qədimdən məlumdur (9, s. 39). 1950-ci ildə Mingəçevirdə, Kür çayının sağ sahilində, küp qəbrinin yaxınlığında darı qalığının tapılması bu məsələyə aydınlıq gətirir (9, s. 39-40). Yanaraq kömürləşən darı qalıqları Qəbələnin erkən ellinizm dövrünə aid təbəqəsindən də tapılmışdır.

Arxeoloq F.Osmanov taxılın becərilməsində istifadə edilən oraqların müxtəlif formalı olub, müasir oraqlardan bir o qədər də fərqlənmədiyini

qeyd edir. Belə oraqlar Nüydi, Uzunboylar, Vardanlı, Mingəçevir və Qəbələnin Şəfili kəndinin ərazisindən tapılmışdır (14, s. 163-164). Oraqlardan istifadə edilməsi taxılın biçilməsində antik dövr üçün mütərəqqi üsullardan biri idi. Taxılın emalında əl dəyirmanlarından geniş istifadə olunmuşdur (8, s. 120-122). Bu tapıntılar sırasına Yaloylutəpədən aşkar olunan əl dəyirmanı ilə birlikdə (10, s. 44) Şamaxıdan tapılan əl dəyirmanını da (18, s. 215) əlavə etmək olar. Taxılın emalında digər əmək alətlərindən də istifadə edilmişdir ki, bu da əkinçiliyin yüksək inkişaf etməsi ilə bağlı olan amildir (8, s. 121-126).

Antik dövrdə Qafqaz Albaniyasında alma, armud, şaftalı, nar, qoz, əncir, şabalıd və digər meyvələr yetişdirilmiş və bu məhsullar şəhər bazarları ilə bərabər, ölkə hüdudlarından kənara ixrac olunmuşdur (8, s. 122-123). Qədim yunan müəllifi Strabon bağçılıqdan danışarkən Qafqaz Albaniyasında üzümçülüyün olduğunu və yüksək keyfiyyətli məhsulun toplandığını qeyd etmişdir (15, s. 475-476). Bu mənbə ilə arxeoloji faktları müqayisə etsək, məlumatın nə dərəcədə doğru olduğunu tam aydınlığı ilə görərik. Ölkə ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində Qəbələ, Şamaxı və digər rayonların ərazilərində müxtəlif meyvə qalıqlarına rast gəlinmişdir (8, s. 123-124).

Üzümçülüyün inkişafı ilə əlaqədar hələ ən qədim dövrlərdən bu ərazilərdə yerli əhali tərəfindən şərab istehsal olunmuşdur (8, s. 123-124; 3, s. 88-165; 11, s.107; 16, s. 74). Qəbələdə aparılan arxeoloji qazıntılar nəticəsində antik şəhər yerində aşkar olunan çoxsaylı küplərdə şərabın saxlanılması şübhə doğurmur. Həmçinin bu küplərin yanında antik dövr üçün xarakterik olan ağzı novçalı, şərab süzmək üçün nəzərdə tutulmuş qab qırıqları tapılmışdır (8, s. 124). Yerli ədəbiyyatda bu qablar süddan biçimli qablar adı ilə tanınmışdır. Lakin bu qabları belə dar çərçivəyə yerləşdirmək düz olmazdı. Çünki bu qablardan müxtəlif məqsədlərlə istifadə oluna bilərdi. Ağzında süzgəci olan bu qabdan istər şərabı, istərsə də başqa maye formalı məhsulu şəffaf vəziyyətdə, qarışıqsız süzmək mümkün olduğu üçün mümkündür. Qəbələdə, antik şəhər yerində, təsərrüfat küpünün yanında bu qabın qırıqlarının tapılması onun şərabçılıqda daha çox istifadə olunduğunu təsdiqləyir. Antik Yunanıstanda bu tip qablar oynoxoya (şərab qabı) adlandırılırdı.

T.İ.Qolubkina küp qəbirlərindən armud, heyva, nar və qoz qalıqlarının tapıldığını qeyd edir (9, s. 40-41). 1949-cu ildə Mingəçevirdə uşaq küp qəbrindən üzüm qalığı tapılmışdır. Eyni zamanda küp qəbirlərindən üzüm salxımı formalı gümüş və qızıl sırğaların tapılması ölkə ərazisində üzümçülüyün

inkişaf etməsini göstərir (9, s. 41-42). Digər bir fakt isə antik dövrdə meyvələrdən şirə çəkmək üçün istifadə edilən daşın tapılmasıdır. Bu qayda ilə üzüm şirəsindən asan yolla şərab istehsal etmək mümkündür (8, s. 123; 3, s. 85-86; 9, s. 41-42). Belə daşlardan biri Şamaxı rayonu ərazisindən tapılmışdır (4, s. 36). Qafqaz Albaniyasında şərab hazırlanması üsulu antik dünyada şərab istehsalı üsulunu xatırladır. Romada və Şimali Qara dəniz sahillərindəki antik şəhərlərdə üzümü ayaqla xüsusi yerlərdə sıxaraq şərab almışlar (8, s. 123-124). Şərabın saxlanılmasında müxtəlif tip saxsı qablardan istifadə olunmuşdur. Küp və torpaq qəbirlərində bu tip qablara tez-tez rast gəlinir. Küp qəbirlərində dəfnetmə zamanı istifadə edilən küplərin özləri də ilkin olaraq şərabın saxlanmasında istifadə olunmuşdur (7, s. 95-96).

Beləliklə, Qafqaz Albaniyasının təsərrüfat həyatının müxtəlif sahələri və onların vəziyyəti ilə bağlı antik müəlliflərin əsərlərində verilmiş məlumatlar arxeoloji dəlillərlə öz təsdiqini tapmışdır. Qeyd olunan arxeoloji dəlillər bir daha sübut edir ki, antik dövrdə Qafqaz Albaniyasının təsərrüfat həyatı kifayət qədər inkişaf etmiş, ölkənin digər bölgələrlə, xüsusilə, Ellin dünyası ilə ticari və mədəni əlaqələrinə müsbət təsir göstərmişdir.

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, Qafqaz Albaniyasının təsərrüfatı haqqında antik mənbələrin verdiyi məlumatların arxeoloji tapıntılarla ümumi müqayisəli təhlili aparılmış və qarşıya qoyulan sual faktlarla cavablandırılaraq antik qaynaqların verdiyi məlumatların doğruluğunu bir daha sübut etmişdir.

Tədqiqatın əməli əhəmiyyəti ondan ibarətdir ki, onun müddəaları Azərbaycanın qədim sakinlərinin məşğuliyyətinin, təsərrüfatının və maddi mədəniyyətinin öyrənilməsində, eləcə də, arxeoloji və etnoqrafik əsərlərin yazılmasında mənbə rolunu oynaya bilər. Həmçinin tələbələr, magistrlər, doktorantlar, elmi işçilər, müəllimlər və digər sənət sahibləri də məqalədən maddi mədəniyyət mövzusunun öyrənilməsi zamanı bəhrələnə bilərlər. Bundan başqa tədqiqat xalqımızın tarixi keçmişi ilə bağlı elmi dünyagörüşünün zənginləşməsinə də müəyyən töhfə verə bilər.

**ƏDƏBİYYAT**

1. Azərbaycan tarixi 7 cilddə, I c. Bakı, 2007.
2. Babayev İ.A. Mingəçevir qazıntılarının Qafqaz Albaniyası dövləti tarixinin öyrənilməsi üçün əhəmiyyəti / Mingəçevir arxeoloji ekspedisiyasının 60 illiyinə həsr edilmiş elmi konfransın materialları. Mingəçevir, 2006.
3. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı, 1997.
4. Xəlilov C.Ə. Xınıslı qədim yaşayış yeri // Az. SSR EA Xəbərləri, № 3, 1961.

5. Qazıyev S.M, Qəbələ mahalının qədim tarixindən /Qafqaz Albaniyası tarixi məsələləri. Bakı, 1962.
6. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV – b.e. III əsrləri). Bakı, 1982.
7. Алиев К. Античная Кавказская Албания. Баку, 1992.
8. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990.
9. Голубкина Т.И. О растительных остатках из кувшинных погребений Азербайджана (II в. до н.э. – первые века н.э.) / Материалы по истории Азербайджана, том X. Баку, 1988.
10. Исмизаде О.Ш. Ялойлутепинская культура. Баку, 1956.
11. Ниорадзе Г.И. Раскопки в Алазанской долине. Тбилиси, 1940.
12. Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе // Вестник древней истории, № 2, 1948.
13. Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе // Вестник древней истории, № 3, 1948.
14. Османов Ф. История и культура Кавказской Албании IV в. до н.э. – III в. н.э. Баку, 2006.
15. Страбон. География в 17 книгах. Перевод Г.А.Стратановского. Москва, 1964.
16. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э. – VII в. н.э. Москва-Ленинград, 1959.
17. Халилов Дж. А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.). Баку, 1985.
18. Халилов Дж.А. Раскопки на городище Хыныслы – памятнике древней Кавказской Албании / Советская археология, № 1, 1962.

# THE ECONOMY OF CAUCASIAN ALBANIA IN THE CONTEXT OF ANCIENT SOURCES AND ARCHAEOLOGICAL FINDINGS

***Lachin Mustafayev***

***Summary***

**Keywords: Caucasian Albania, farm, husbandry, cattle-breeding, horse-breeding.**

The article presents data ancient sources and they are compared with the numerous archaeological finds. The items found in the excavations belong to various spheres of agricultural life in Caucasian Albania, mainly to gardening, husbandry and cattle-breeding. The article also discusses the ancient authors' works on wild nature of Caucasian Albania. These clues provide us with detailed information about the agricultural life of population of Caucasian Albania. It turns out that the ancient authors generally well covered this issue.

# ХОЗЯЙСТВО КАВКАЗСКОЙ АЛБАНИИ В КОНТЕКСТЕ АНТИЧНЫХ ИСТОЧНИКОВ И АРХЕОЛОГИЧЕСКИХ НАХОДОК

***Лачын Мустафаев***

***Резюме***

**Ключевые слова: Кавказская Албания, хозяйство, земледелие, скотоводство, коневодство.**

В статье приведены сведения античных источников, которые сопоставлены с многочисленными археологическими находками. Эти находки относятся к различным отраслям хозяйственной жизни Кавказской Албании, в особенности, к сельскому хозяйству, садоводству, земледелию, скотоводству и т.д. Это, в свою очередь, создаёт представление о всесторонней хозяйственной жизни населения Кавказской Албании. Выясняется, что античные авторы, в основном, объективно освещали этот вопрос.

# TƏBRİZİN ƏLİŞAH MƏSCİDİ VƏ YA ƏRK QALASI
## (etnoarxeoloji tədqiqat)

**İlhamə Məmmədova**
ilhame.mamadova@gmail.com
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Azərbaycan, Təbriz, Ərk, Əlişah, məscid, qala.**

XIX əsrdə Təbriz Qacarlar imperiyasının vacib iqtisadi, inzibati, siyasi mərkəzi, vəliəhdneşin olduğundan burada mədəni həyat canlanmaqda idi. Zəlzələlər və müharibələr nəticəsində şəhərin dağılmış tarixi binalarının bəhs olunan dövrdə təmiri ilə yanaşı, burada yeni ictimai tikililər də inşa edilirdi.

Əlişah məscidi Təbrizin hündür və geniş tarixi abidələrindən olub, Ərk qalası kimi də tanınır. Buna səbəb məscidin nəhəng görünüşə malik olmasına görə öz adı ilə paralel, Ərge Əlişah ("ərg" qala deməkdir, yəni Əlişah qalası mənasını verir) adı ilə adlanmasında idi. Zaman keçdikcə, "Ərge Əlişah" ifadəsi danışıqda qısaldılaraq Ərg (Ərk) kimi formalaşmışdır.

Əlişah məscidi Elxanilər dövründə Məhəmməd Olcaytu və Bahadur xanın vəziri olmuş Xacə Tacəddin Əlişahın göstərişi ilə 1316-1323-cü illərdə (h.q 716-724) tikilmişdir. Əslən Təbrizin Məhad Mehin məhəlləsindən olan Xacə Əlişah gənc vaxtlarında hamamda dəlləklik edərmiş. Xalq arasında yayılmış rəvayətə görə, bir gün Əli Dədə adlı bir şeyx həmin hamama gedib başını qırxdırıbmış və Əlişah "Allah yolunda etmişəm" deyib ondan pul almayıbmış. Şeyx isə "Allah səni böyük və vəzifəli şəxs etsin" deyərək ona dua edibmiş (1, 104). Xalq inancına görə, şeyxin duası nəticəsində Xacə Tacəddin Əlişah baş vəzir vəzifəsinədək yüksələ bilmişdi.

T.Əlişah F.Rəşidəddinin öldürülməsindən sonra ölkənin yeganə vəziri olmuş və bu dövrdə çoxsaylı əzəmətli binalar tikdirib elxanın nəzərini cəlb etməyə, öz adını əbədiləşdirməyə çalışmışdır. Təbrizdə bir neçə məscid, mədrəsə, xanəgah məhz onun təşəbbüsü ilə inşa olunmuşdur. O, Əlişah məscidinin inşası zamanı əmr verir ki, burada elə bir tağ düzəldilsin ki, o, Kəsra tağından da (Mədain xərabələri nəzərdə tutulur – İ.M) böyük olsun (2, 168). T.Əlişah ağır xəstəliyə tutulduğundan məscidin tikintisi çox sürətlə gedir. Tələsik tikildiyindən çox keçmir ki, heç istifadəyə verilməmiş tavanı çökür. Sonralar yenidən bərpa olunur.

Əlişah memarlıq kompleksi came məscidi, xanəgah, mədrəsə və məqbərədən ibarət olmuşdur (3, 35). T.Əlişahın vəsiyyətinə əsasən, onun cəna-

zəsi Əlişah məscidində torpağa tapşırılmışdır.

Bugünkü gündə dağıntılara məruz qalmış, yalnız eyvanı qalan Əlişah məscidinin orta əsrlərdəki təsvirini yaratmaqdan ötrü tarixi mənbələrə müraciət etməli oluruq. Əlişah məscidi haqqında ilkin tarixi məlumatlar naməlum misirliyə aiddir. O, 1322-ci ildə (h.q 722) məscidi yaxından görmüş və onun kaşı və gəc oymalarını təsvir etmişdir. Mehrabın çərçivəsinin qızıl və gümüş olması, tavanından gümüş çıraqlar asılması, hündürlüyü 70 zər (1 zər 104 sm-ə bərabər idi – İ.M), diametri 5 zər olan iki minarəsinin olmasını yazmışdır. Bundan əlavə, həyətində şir heykəlləri olan fəvvarələrdən, mərmər hovuzundan bəhs etmişdir (4, 34).

H.Qəzvini bu xüsusda yazır: "Xacə Tacəddin Əlişah Təbrizin Narmiyan məhəlləsinin (Məhad Mehin məhəlləsinin adının danışıqda təhrif olunmuş formasıdır - İ.M) xaricində böyük bir Came məscidi saldırdı ki, uzunluğu 300 arşın (gəz), eni 250 arşındır. Hicri 716-736-cı illərdə tikilib təkmilləşdirilmişdir. Zəlzələdən dağılmış, lakin mehrabı və qalası salamat qalmışdır" (5, 172).

Məşhur mərakeşli səyyah İbn Bəttutə sultan Əbu Səid vaxtı Təbrizdə gördüyü məscid barəsində qələmə alır: "Vəzir Əlişah Təbrizinin tikdirdiyi məscidə yetişdim. Bu məscidin döşəməsi mərmər, divarları kaşı ilə bəzədilmiş və hər tərəfində yasəmən gülləri əkilmişdir. Hər gün günorta çağı orada Yasin surəsi qiraət olunur" (6, 42-43).

Sultan Yaqubun sarayına gələn venesiyalı tacir Vilbert Donald Əlişah məscidinin əzəmətindən heyrətlənərək aşağıdakı fikirləri yazır: "Əlişah Camesi Təbrizin ən hündür binasıdır və böyük həyəti vardır.. Məscidi o qədər gözəl tikiblər ki, mənim dilim onu vəsf etməyə acizdir.. Müsəlmanların namaza dayanan tərəfində (qiblə nəzərdə tutulur – İ.M) bir şəbistan tikiblər ki, çox hündürdür. Əgər mahir bir oxatan yaxşı kamanla ox atarsa, onun tavanına ox çatmaz. Amma bu binanın inşasını başa çatdırmayıblar. Onun çevrəsində mərmər sütunlar, qiymətli daşlarla bəzədilən tağ inşa ediblər, o qədər zərif və şəffafdır ki, büllura bənzəyir. Bütün sütunlar bir ölçüdə, bir qalınlıqda və bir hündürlükdədir" (7, 159).

Jan Şardən qeyd edir ki, Təbrizdə 250 məscid vardır.. Əlişah məscidi demək olar ki, dağıdılmışdır. Onun aşağı hissəsi — camaatın ibadətə getdiyi yer yenidən təmir edilmişdir, minarəsi çox hündürdür. Bu məscid İrəvandan Təbrizə gələrkən müsafirlərə görünən ilk məsciddir (8, 73). J.Şardən Əlişah məscidinin bir minarəsi olduğunu yazsa da, digər mənbələr (naməlum misirli və s.) iki minarədən söz açırlar.

XIX əsrdə Türkiyə, Qafqaz, Azərbaycan və İranda olan fransız səyyahı xanım Dyölafoy bu binanın təsvirini obrazlı şəkildə qələmə almışdır: “..şəhərə daxil olanların uzaqdan diqqətini cəlb edir. Geniş bir meydanda yerləşir. Çoxbucaqlı divarlarla əhatə olunub, hündür bürclərə malikdir. Ətrafında enli və dərin xəndəklər var. İndi onların bir hissəsi doldurulmuşdur. Məharətlə tikilən divarlarına maili nəzər salınarsa, kərpiclərin arası paralel xətlər kimi nəzərə çarpır. Bu yarıtikilinin yanında Təbriz qarnizonu üçün yeni hərbi binalar da inşa edilmişdir. Burada indi də istifadədə olan top istehsal edən zavod var. Ərk qalasının damında iki balaca otaq var. Gözətçilər orada növbə ilə müşahidə aparır, yanğın və ya baş verən hər hansı bir hadisəni xəbər verirlər” (9, 65-66).

Tarix boyu müxtəlif təbii fəlakətlər və osmanlı basqınları nəticəsində bu nadir tikilinin müəyyən komponentləri dağıntıya məruz qalmışdır. Tarixi mənbələrdən əldə etdiyimiz məlumatlara əsasən, məscidin dörd tərəfində baştağ və düzbucaqlı daxili həyəti vardı. Mərmər daşlarla döşənmiş həyətin mərkəzində uzunluğu 100 addım, dərinliyi 6 addım olan böyük hovuz var imiş (1, 105). Bundan əlavə, burada su arxı, ətrafında isə meynə ağacları və yasəmən kolları salınmışdır. Müsəlman mədəniyyətinin göstəricisi olan bu bina və ətrafındakı mənzərə səyyahların dediyi kimi, məkana qədəm qoyan ziyarətçilərin könlünü oxşayırdı.

Tikilinin eni 30,15 m, hündürlüyü 26 m (10, 232), yan divarlarının qalınlığı 10,40 m, cənub divarları (mehrabın divarı) isə 65,60 m-ə bərabər idi. Yan divarlarının içərisi iki enli divardan ibarət idi. Bu divarlar bir neçə mərhələdə sütunlarla biri digərinə birləşdirilmişdir (7, 161). Məscidin yuxarı başına qalxmaqdan ötrü 69 pilləkən qət etmək lazım gəlirdi. Eyvanı üç tərəfdən bağlı, bir tərəfdən açıq idi. Binanın hər iki tərəfi iki hündür minarəyə malik idi. Binanın tağşəkilli üç qapısı vardır. Onlardan yalnız ikisi işlənirdi. Qapıların eni 4 addım, hündürlüyü 20 addıma bərabər idi. Hər girişdə şəffaf mərmər lövhələr bərkidilmiş, qapıların üzərində cilalanmış bürünc və qızıl suyuna çəkilmiş metallar asılmışdır. Qapıların hər iki tərəfindəki sütunlar mərmərdən deyil, müxtəlif əlvan daşlardan ucaldılmış, tağlar isə gəc və kərpiclə hörülmüş, üzərində kaşı işlənməmişdir. Tağlar ağardılmış və bəzisi mehrab kimi istifadə edilirdi. Ümumiyyətlə, abidənin inşasında bişmiş kərpic, mərmər, kaşı və digər qiymətli tikinti materialları, hətta bəzək işlərində qızıl və gümüşdən də qismən istifadə edilmişdir. Kitabəsində gözəl xətlə Quran ayələri həkk olunmuşdur. Hazırda cənub hissəsində mehrabının qalıqları qalmış, qalan hissələri sökülmüşdür. Məscidin bayır hissəsinin sağ

tərəfində mədrəsə, solda isə zaviyə (namaz qılmaq üçün otaq, bəzi möminlərin dəfn olunduğu yer) fəaliyyət göstərirdi. Hər gün əsr namazından sonra bütün şəhər əhli Əlişah məscidinə toplaşaraq Quranın Fəth, Əmm, Yəs surələrini oxuyardılar (10, 233).

Ərk qalasının altından üç yeraltı keçid də mövcud idi. Bu tunellərdən biri Şənbi-Qazana, digəri Rəbi-Rəşidiyyəyə (indiki Bağmeşə məhəlləsi), üçüncüsü isə bazarın içindən Açıçayın altından keçərək hazırkı Təbriz hava limanının yaxınlığından keçirdi. Əhməd Kəsrəvi Məşrutə tarixindən bəhs edən əsərində yazır ki, qarətçilər Təbrizə hücum çəkəndə vətənpərvərlər yeraltı tunellərdən keçərək arxadan düşmənə zərbə endirib qələbə çaldılar (11, 130-131).

Abidə ilə bağlı xalqın yaddaşında maraqlı xatirələr də qalmaqdadır. İlaxır çərşənbəsi günü qız-gəlinlər arzu-dilək tutub Ərk meydanına toplaşar, burada nəzir paylayardılar (12, 221). İctimaiyyətin qərarına əsasən, xəyanət etmiş qadınları cəzalandırmaq məqsədilə onları Ərk qalasının başından aşağı atardılar. Baş vermiş bir hadisə bu adəti aradan qaldıra bildi. Belə ki, qaladan atılan qadın heç bir xəsarət almadan yavaşca yerə düşdü. Sadə kütlə hadisəni möcüzə bilərək onu bir daha təkrarlamadılar (13, 178). Lakin hadisəni öz gözləriylə gördüyünü iddia edən XIX əsrdə yaşayan tarixçi Nadir Mirzə qeyd edir ki, həmin qadını sarıyıb yenidən qaladan atdılar və o, bu dəfə həlak oldu (1, 106). Hər ilin axırçərşənbə günü gənc qızlar Ərk qalası ətrafına toplanaraq nəzir deyir, oradakı topa parça bağlayıb arzu-dilək tutardılar (14, 75).

Binanın uçulmuş böyük bir hissəsi XVII əsrdə əsaslı təmir olunmuş-



dur. Qala-məscidin binasında müəyyən vaxtlarda bərpa işləri görülmüş, ətrafında qarnizon üçün bina da tikilmişdir. Qacarlar zamanında məscidin ətrafına mədrəsə və zaviyə hissəsindən hasar çəkilmişdir. Bu dövrdə məscid, eləcə də onun ətrafındakı binalardan dövlət taxıl anbarı və cəbbəxana kimi istifadə edilmişdir. Məşrutə İnqilabı dövründə isə Ərk qalası Təbriz inqilabçılarının əsas hərbi istinadgahı idi. 1925-ci ildə Ərk qalası ətrafında Milli bağ salınmışdır.

Əlişah məscidinin ətrafında aparılan arxeoloji qazıntılar da maraq doğurur. Qazıntılara 1971-ci ildən (h.ş. 1350) arxeoloq Əli Əkbər Sərəfrazinin rəhbərliyi ilə məscidin həyətində Qacarlar dövrünə aid olan hissədən başlanmışdır. Yuxarıda qeyd olunduğu kimi, bina natamam tikildiyindən tezliklə tağ uçmuşdur. Qazıntılar zamanı məlum olub ki, kərpic tağ döşəmənin üstünə deyil, inşaat materialları olan çınqıl, qumun üstünə çökmüşdür. Bu fakt bir daha onu göstərir ki, bina tamamlanmamış, tikinti hələ davam edərkən tikili uçmuşdur. Arxeoloq göstərir ki, bina cənub və şimal olmaqla iki ayrı-ayrı hissədən ibarət olmuşdur. Binanın ən köhnə hissəsi olan şimal tərəfi 1981-cı ildə (h.ş 1360) sökülmüş, Ərkin indiki qalığı, yəni eyvanı onun cənub hissəsini təşkil edirdi. Qazıntılara əsasən, binanın şimal və cənub tərəfi arasında heç bir bağlılıq tapılmamışdır. Ərkin şərq və qərb tərəfində aypara qövsün müqabilində iki kərpic minarə peyda olmuşdur. Qeyd edək ki, şərq tərəfdə minarənin yalnız planı, qərb tərəfdə isə hündür hissəsi qalmışdır. Bu minarələr binanın şimal tərəfini əhatə etmiş, indiki Ərkin əsas binası, yəni cənub tərəfi ilə heç bir əlaqəsi yox idi. Tapılan pilləkənlər şimal hissənin astanasına yerləşirdi.

Tədqiqatçı sonda belə bir nəticəyə gəlir ki, indiki Ərki inşa etməzdən əvvəl Əlişah camesinin sahəsində üzü qibləyə doğru bina tikilmiş, onun tağının önündə iki tərəfdə minarə, giriş qapısının qarşısında pilləkən yerləşirdi. Binanın divarında mehrabın yoxluğu oranın məscid olmasını söyləməyə tədqiqatçıda şübhə oyadır. O əsaslandırır ki, binanın quruluşunda sonradan dəyişikliklər olmuşdur, Ərkin binası Əlişah Came məscidi ilə eyni bina deyil (3, 36-37).

Ərk qalası ətrafında sonrakı dövrlərdə də müəyyən inşaat işləri aparılmışdır. Arxeoloji tədqiqatlar nəticəsində uzunluğu 10 m, eni 5 m, hündürlüyü 4 m olan, kərpiclə hörülən səki, həmçinin betondan tikilən iki bünövrə aşkar edilmişdir. Bu layda Qacarlar zamanında üç mərhələdə salınan tikili üzə çıxmışdır. Bu arada lal təbəqəyə rast gəlinməsi sübut edir ki, Ərk qalasının sahəsi uzun müddət baxımsız qalmışdır. Sonralar qərb divarının yaxın-

lığında və üzərində taxıl, azuqə saxlamaq üçün binalar tikilmişdir. Bunlar Təbriz qarnizonunun istifadəsində idi. Burada bir-birinin ardınca üç cərgədə yeni tikililərdən uzunluğu 18,3 m, eni 2,6 m, dərinliyi isə 2,3 m otaqlar və onları birləşdirən dəhlizlər peyda olmuşdur.

Ərkin mehrabının qarşısında da bir sıra binalar anbar məqsədilə inşa edilmişdir. Onlar qərb hissədə tikilənlərdən daha böyükdür. Anbarla paralel olaraq uzunluğu 24 m, eni 6,38 m olan zal da mövcuddur. Hər birinin hündürlüyü 2 m olan beş qapısı da var. Onlar Ərkin köhnə tikilən hissəsinə açılırlar. Qazıntılar göstərir ki, Ərkin müxtəlif hissələri və tavanı uçduqdan sonra daş-kəsəyi hamarlayıb üzərinə kərpic döşəmişlər. Həyətində iki quyu qazılmış, lakin yeraltı sularla dolmamışdır (2, 173-174). Çox ehtimal ki, mehrabın və abidənin cənub hissəsinin xarab olmasının səbəbi quyuların ucbatındandır. Məlumatçıların dediyinə görə, S.C.Pişəvəri silahdaşları Ərk qalasında səngər qurmuş, şah qoşunlarına məğlub olan fədailər təslim olmamaq üçün özlərini buradakı quyulara atmışlar. Siyasi hadisələrin gedişində Ərk qalasında kürələr qoyulmuş, top mərmiləri istehsal etmişlər. Ərkin həyətində beş dəmirəritmə kürəsi də tapılmışdır.

Ərk qalasının araşdırılması təkcə memuar və tarixi mənbələrlə deyil, onun haqqında müfəssəl məlumatlar almaq, dəqiq nəticə çıxarmaq üçün arxeoloji qazıntılara müraciət olunmalı, eyni zamanda xalq arasında daha geniş etnoqrafik sorğular aparılmalıdır.

## ƏDƏBİYYAT

نادر میرزا. تاریخ و جغرافیای دارالسلطنه تبریز، چاپ سوم، تبریز، انتشارات اقبال، ۱۳٤۰، ۳۷٤ ص
بهروز عمرانی، حسین اسماعیل سنگری. بافت تاریخی شهر تبریز، چاپ اول، تهران، انتشارات میراث کتاب، ۱۳۸۰، ۲٤٤ ص
بهرام آجرلو. ایوان تبریز (۱) // دیلماج (ماهنامه اجتماعی، سیاسی، اقتصادی، فرهنگی) ، تبریز، آبان ۱۳۸۳، شماره ۲، ۳۴-۳۹ ص
بهرام آجرلو. ایوان تبریز (۲) // دیلماج (ماهنامه اجتماعی، سیاسی، اقتصادی، فرهنگی) ، تبریز، آبان ۱۳۸۳، شماره ۳، ۳۲-۳۹ ص
حمداللاه مستوفی قزوینی. نزهت القلوب. تهران، ۱۳۳٦
بهروز خاماچی. تبریز از نگاه جهانگردان، چاپ اول، تبریز، انتشارات یاران، ۱۳۸۹، ۲۹٤ ص
ویلبر دونالد. معماری اسلامی در دوره ایلخانان. ترجمه دکتر عبداله فریار، تهران، ۱۳٦۴
Jan Şardən. Parisdən İsfahana səyahət, Bakı: Elm, 1994, 96 s.
ژان دیولافوا. سفرنامه مادام دیولافوا ایران و کلده. ترجمه علی محمد فره وشی، تهران، ۱۳۳۲، ۸۲۴ ص
ایوب نیکنام لاله ، فریبرز ذوقی. تبریز در گذر تاریخ ، چاپ دوم، تبریز،۱۳۸۹ ، ناشر یاران، ص٥٩٥
شفیع جوادی. تبریز و پیرامون. تبریز، نشر بنیان فرهنگی رضا پهلوی، ۱۳٥۰ ، ٦٧٤ ص
رضا شعبانی. آداب و رسوم نوروز. تهران، انتشارات بین المللی الهادی، ۱۳۷۹، ۲٥۰ ص

تقی بهرامی. کتاب فلاحت. دو جلدی، جلد اول، تبریز، انتشارات مطبعه الحسینی، ۱۳۱۳، ۴۲۶ ص
ابراهیم برهان آزاد. چهارشنبه سوری // مجله پیام نوین. تهران، ۱۳۴۳ ، شماره ۷ ، ۶۶ ـ۷۶ ص

## ALISHAH MOSQUE OR ERK CASTLE OF TABRIZ
## (ethnoarchaeological research)

***Ilhama Mammadova***

***Summary***

**Keywords: Azerbaijan, Tebriz, Alishah, mosque, castle**

Being one of the historic monuments of Tabriz, Alishah mosque is known as Erk Castle. The monumenty was built during Elkhanies and under the instructions of Khaja Tajaddin Alishah who was the vizier of Mahammad Oljaytu and Bahadur khan in the years of 1316-1323 (Hijri lunar:716-724). Alishah architectural complex consisted of Jame mosque, Khanagah, madrasas, and mausoleums. Due to the will of T.Alishah, his funeral was burried in Alishah Mosque. A large destroyed part of the building has been renovated in XVII century. Restoration works have been carried out at certain times in the building of castle-mosque during Gajars, and there was also built a building around it for garrison. During the Mashruta revolution Erk Castle was the main military stronghold of Tabriz revolutionaries. There was formed a garden around the Ark Castle in 1925.

## МЕЧЕТЬ АЛИШАХА ИЛИ КРЕПОСТЬ АРК В ТЕБРИЗЕ
## (этноархеологическое исследование)

***Ильхама Мамедова***

***Резюме***

**Ключевые слова: Азербайджан, Тебриз, Алишах, мечеть, крепость**

Мечеть Алишаха, являющаяся одним из исторических памятников Тебриза, известна как крепость Арк. Памятник был возведён в 1316-1323 гг. (716-724 годы хиджры) Алишахом в период Ильханидов по указанию Мохаммеда Олджайту и Ходжа Таджаддина, являвшимся визирем Бахадур хана. Архитектурный комплекс Алишаха состоит из Джама масджид, жилищем для дервишей, медресе и мавзолея. Следуя завещанию Алишаха, тело было захоронено в мечети Алишаха. Возвышенная часть здания была основательно отремонтирована в XVII веке. В период правления Каджаров в здании крепости-мечети в различные времена проводились восстановительные работы, вокруг

было построено здание для гарнизона. В тот период мечеть, а также и те здания, которые располагались вокруг него, использовались как арсенальный и как государственный склады для хранения зерна. В период конституционной революции крепость Арк служила главным убежищем тебризских революционеров. В 1925 году вокруг крепости Арк посадили Национальный парк.

# ORTA ƏSR İŞIQLANDIRMA VASİTƏLƏRİNƏ DAİR (AMEA Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji materialları əsasında)

**Aidə İsmayılova**
**aidaismailova4@gmail.com**
(AMEA Milli Azərbaycan Tarixi Muzeyi)

**Açar sözlər: orta əsrlər, işıqlandırma vasitələri, Arxeologiya fondu, saxsı çıraq**

Milli Azərbaycan Tarixi Muzeyində qorunan maddi mədəniyyət nümunələri içərisində orta əsr şəhər yerlərindən aşkar olunmuş işıqlandırma vasitələri xüsusi yer tutur. Muzeydə əsasən, orta əsr Beyləqan, Mingəçevir, Gəncə, Bakı, Qəbələ, Bəndovan şəhər yerlərindən aşkar olunmuş işıqlandırma vasitələri qorunur. Qeyd olunan şəhər yerlərindən üzə çıxarılmış işıqlandırma vasitələrinin ayrı-ayrı nümunələri haqqında Q.Əhmədov, İ.Cəfərzadə, V.Leviatov, F.İbrahimov öz tədqiqat əsərlərində məlumat vermişlər, lakin bu arxeolji materiallar kompleks şəkildə öyrənilməmiş, tipoloji bölgü aparılmamışdır.

Hazırkı məqalədə əsas məqsəd IX-XIII əsrlərə aid işıqlandırma vasitələrini sistemləşdirmək, onların tipoloji bölgüsünü aparmaq, dövrünü, əsas səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir. Milli Azərbaycan Tarixi Muzeyində qorunan işıqlandırma vasitələrini üç növə ayırmaq olar: piydanlar, çıraqlar və şamdanlar.

Milli Azərbaycan Tarixi Muzeyində Gəncə, Qəbələ, Şamaxı (Gülüstan qalası) və Bakıdan aşkar olunmuş 5 ədəd piydan qorunur. Bu piydanlar əsasən I tiplə təmsil olunmuşdur. Piydanlar üç hissədən - fitil qoyulmaq üçün kiçik açıq burnu olan üst kasacıq, oturacaq rolu oynayan alt kasacıq və onları birləşdirən oxdan ibarətdir. Bu tip piydanları Ö.İsmizadə iki yaruslu piydanlar adlandırmışdır (9; s 96-97, şəkil 7). Belə piydanlara nümunə olaraq Qəbələ, Gəncə, Mingəçevirdən aşkar olunmuş piydanları göstərə bilərik. MATM-da Kültəpə abidəsindən aşkar olunmuş 1 ədəd şirli piydan qorunur. İkiyaruslu olan bu piydanın üzəri qəhvəyi rəngli şirlə şirlənmişdir (şəkil 2). Görünür, piydanlarda piy yandırılırdı və mənbələrdə piydanlarda yanacaq kimi piydən istifadəsiyə dair məlumat vardır. Əbdürrəşid Əl- Bakuvinin “ Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar” (“Abidələrin” xülasəsi və qüdrətli hökmdarın möcüzələri) kitabında Bakı şəhərinin yaxınlığında su iti

dərisindən yağ hazırlanması haqqında məlumat var. "Şəhərin yaxınlığında məskun olunmuş ada var və buradan su itilərinin ovuna gedirlər. Su itlərinin dərisini soyur və çıraqlarda (istifadə edilən) yağlarını əridirlər. Dərilərindən tuluqlar düzəldib neftlə doldururlar və (başqa) ölkələrə aparırlar" (1; s 104).

İşıqlandırma vasitələri içərisində kəmiyyət etibarı ilə çıraqlar çoxluq təşkil edir. Çıraqları materialına görə iki bölməyə ayırmaq olar: metal və saxsı çıraqlar. Şirli və şirsiz olmaqla iki qrupa bölünən saxsı çıraqlar, xüsusilə çoxluq təşkil edir. Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda ümumilikdə, 243 ədəd saxsı çıraq qorunur. Onlardan 202 ədədi şirsiz, 41 ədədi şirli, 2 ədədi metal çıraqdır. Bütöv çıraqlardan əlavə onların ayrı-ayrı hissələri də var. MATM-da qorunan orta əsr şəhər yerlərindən aşkar olunmuş saxsı çıraqları istehsal dövrünə görə aşağıdakı şəkildə dövrləşdirmək mümkündür:

1) IX-X əsrlərə aid çıraqlar. Bu dövrə aid çıraqların ölçüləri böyük, gövdəsi şar formalı olur. Onların qısa boğazı, kiçik gövdəsi, fitil keçirilən burnu və qulpu var. çıraqların qulpunun bir ucu ağzının kənarına, digər ucu isə gövdəsinə yapışdırılırdı (3, s. 97).

2) XI-XIII əsrlərə aid çıraqlar. Bu çıraqların gövdəsi daha kiçik, qulp isə adətən lentvari şəkildə dairəvi düzəldilirdi və qabın boğazına birləşdirilirdi. Bu dövrə aid olan çıraqların üzəri şirlə örtülmüş nüsxələri də var. Sonrakı çıraqların gövdəsi nisbətən kiçilir, qulpları nazikləşir, boğaz hissəsi nisbətən uzanır, lülələri o qədər qalxıq formada olmur. Çıraqların gövdələri getdikcə daha kiçilir və yumru haldan tədricən uzunsov hala keçir. Daha sonra isə çıraqların boğaz hissəsi uzanır, lülələri bir az qalxmış olur. Bu zaman çıraqların gövdələri naxışlanmağa başlanır, neft tökmək asan olsun deyə çıraqların boğazları qıf kimi düzəldilir (9; s 38-39; 10, s 99).

Saxsı çıraqlar öz formalarına görə tip yaradır. I tip yastı oturacaqlı, şar və ya çəlləkvari gövdəli, gen, alçaq boğazlı, fitil üçün ucunda oyuq olan boru şəkilli lüləyə, ağzının kənarına və gövdəyə birləşdirilmiş qulpa malik çıraqları təmsil edir. VIII-IX əsrlərə aid edilən bəzi nüsxələr dulus çarxından istifadə edilmədən kobud hazırlanmışdır. IX-XI əsrlərə aid edilən çıraqlar isə dulus dəzgahında hazırlanmışdır (şəkil 3).

II tip çıraqlar alçaq diskvari oturacağa, bir qədər dəyirmi gövdəyə və boruşəkilli lüləyə malikdir. Lentşəkilli qulpunun aşağı ucu gövdəyə, yuxarı ucu ağzının kənarına yapışdırılmışdır (şəkil 4).

III tip çıraqlar nisbətən konusvari gövdəyə malik olub,alçaq boğazlıdır. Bu çıraqların lülələri boruşəkilli, yarımdairəvi qulpları lentşəkilli olub

üzərində şırımlar var. Qulpunun yuxarı hisəsi ağzının kənarına, aşağı hissəsi isə gövdəyə birləşmişdir (şəkil 5).

IV tip çıraqlar bikonik gövdəyə malik olub, boğaz hissələri nisbətən genişdir və yuxarıya doğru uzanır. Lülələri boruşəkilli olub düz istiqamətlidir. Bu tip çıraqların da qulpları lentşəkilli yarımdairəvi olub yuxarı ucu boğazının kənarına, aşağı ucu isə gövdəyə birləşmişdir. Oxşar nümunələr Şamaxı, Bərdə və Şəmkir şəhər yerlərindən də məlumdur (8, s. 59; 7, s. 59; 6, s. 133; şəkil 5,8,9). Bu tipə aid olan Beyləqandan aşkar olunmuş bir ədəd çırağın bir-birinin ardınca birləşdirilimiş lentşəkilli qulpu var. Qulp boyunca iki şırım çəkilmişdir (şəkil 6).

V tipə aid olan çıraqlar az bikonik gövdəyə malik olub, nisbətən yuxarıya doğru daralan boğazları var. Lülələri boruşəkilli, yarımdairəvi lentşəkilli qulplarının yuxarı hissəsi ucu boğazının kənarına, aşağı hissəsi gövdəyə birləşmişdir (şəkil 11).

VI tip çıraqlar dar gövdəyə, yarımdairəvi lentşəkilli qulpa malik olub, lülələri uzundur. Boğazları qısa olub, yuxarıya doğru daralır. Qulplarının yuxarı hissəsi boğazının kənarına, aşağı hissəsi gövdəyə birləşmişdir (şəkil 12).

VII tip çıraqlar dəyirmi, bir qədər yastılaşmış və ya şarşəkilli gövdəsi, dar, qıf formalı boğazı ilə fərqlənir. XII-XIII əsrin birinci yarısına aid nüsxələrin bəziləri şırımlarla naxışlanmışdır. Bu tip çıraqlar Qafqaz üçün səciyyəvi olub arxeoloji qazıntılar aparılmış orta əsr abidlərinin əksəriyyətindən aşkar olunmuşdur (2; s 151-152; şəkil 13).

VIII tipi təşkil edən çıraqların fərqli xüsusiyyəti onların iki lüləyinin olmalarıdır. MATM-n Arxeologiya fondunda Beyləqan və Gəncə şəhər yerlərindən aşkar olunmuş iki lüləkli saxsı çıraqlar qorunur (şəkil 13). İki lüləkli çıraqlar içərisində Gəncə şəhər yerindən tapılmış şirli çıraq diqqəti daha çox cəlb edir. İki qulplu və iki lüləli çırağın üzərinə yaşıl şir çəkilmişdir. Bu çıraq 1939-cu ildə İsaq Cəfərzadə tərəfindən aşkar olunmuşdur. Hündürlüyü-4,5 sm-dir. Güman ki, bu çıraqlar bayram və mərasimlərdə istifadə olunmuşdur (şəkil 14). Oxşar formalı çıraqlara Şəmkir şəhər yerindən də məlumdur (6, s. 14).

Saxsı şirsiz çıraqlarla yanaşı MATM-da şirli çıraqlar da qorunur. Onlar say etibarı ilə şirsizlərdən azdır. Şirli çıraqlar Beyləqan, Gəncə və Qəbələ aşkar olunmuşdur. Qeyd edək ki, şirli çıraqlar da ümumi quruluşuna görə şirsizlərlə demək olar ki eyniyyət təşkil edir. Şirli çıraqlar həcmlərinə görə fərqlənirlənirlər, onlar əsasən kiçik həcmlidirlər. Şirli saxsı çıraqların demək

olar ki, hamısı iç tərəfdən şirlə örtülmüşdür və heç bir çırağın üzərində ornament yoxdur. Say etibarı ilə şirli çıraqlar Beyləqan və Gəncədən daha çox aşkar olunmuşdur.

Milli Azərbaycan Tarixi Muzeyində saxsı çıraqlarla yanaşı metal çıraqlar da qorunur. Lakin bu çıraqların sayı çox azdır. Metal çıraqlar Beyləqan, Şəki və Bakıdan aşkar olunmuşdur. Bakıdan aşkar olunmuş tuncdan hazırlanmış çıraq olduqca maraq doğurur. Çıraq tökmə yolu ilə hazırlanmışdır. Zoomorf tipdə olan bu çırağın dörd ayağı vardır. Onlardan ikisi gövdənin, ikisi isə lülənin orta hissəsinə bərkidilmişdir.Çırağın gövdəsi üzərində nəbati naxışlar və buynuz təsviri vardır, lüləsində isə təkə rəsmi təsvir edilmişdir. Hündürlüyü-7 sm, ağzının diametri- 3,5 sm-dir (4; s 23-24 şəkil 16). Digər metal çıraqlar da demək olar ki,eyni formadadır.

Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda qorunan Şəki rayonu ərazisindən təsadüf nəticəsində aşkar olunaraq Muzeyə təhvil verilmiş çıraq tökmə üsulu ilə hazırlanmış, zoomorf formadadır və 4 ayağı var. Bu çırağın dövrünü R. Əfəndiyev XII əsrə aid edir və fikrini orta əsr Bakı şəhər yerindən aşkar olunmuş çıraqla eyniyyət təşkil etməsi ilə əsaslandırır (5; s 80-81).

MATM-da şamdanlar Səlcuq dövrünə aid iki ədəd kufi yazılı şamdanla təmsil olunur. Bu şamdanlar tuncdan hazırlanmışdır. Şamdanlardan birinin ayaqları heyvan pəncəsi formasadındadır, aşağı çıxıntısı ovaldır.Onun gövdəsi altillidir və gövdəsi nəbati ornamenti ilə işlənmişdir. Şamdanın gövdəsinin yuxarı və aşağı hissəsi həndəsi və epiqrafik ornamentlə bəzədilmişdir (şəkil 17). Bu dövrə aid misdən hazırlanmış 1 ədə çıraqaltı da vardır. Gövdəsi və altlığı fiqurlu olan bu çıraqaltının üzərində nəbati təsvirlidir. İnsan ayaqlarına bənzər üç dayaqları vardır. Altlığı üzərində halqaları olan üç çıxıntısı mövcuddur. Elə də yaxşı vəziyyətdə saxlanmamış, altlığının və dayaqlarının üzərində qopuqları var. Hündürlüyü- 44 sm, ağzınının diametri- 12,5 sm-dir (şəkil 18). Bu çıraqaltı Etnoqrafiya fondunda saxlanılır. Qeyd etmək lazımdır ki, bu formalı şamdanlar XI-XII əsrlərdə Müsəlman Şərqində xüsusən, də Orta Asiya və İran ərazisində geniş yayılmışdır (11; s 276).

Yuxarıda qeyd olunanları nəzərə alaraq demək olar ki, IX-XIII əsrin əvvəllərində Azərbaycanın orta əsr şəhər əhalisinin məişətində işıqlandırma vasitəsi kimi piydanlardan, çıraqlardan və şamdanlardan istifadə olunmuşdur. Saxsı çıraqlar əhalinin bütün bütün sosial zümrələrinin məişətində əsas işıqlandırma vasitəsi olmuş, onlarda yanacaq kimi neft işlədilmişdir.

Məqalədə əsas elmi yenilik ondan ibarətdir ki, MATM-ın Arxeologiya fondunda qorunan qeyd olunan dövrə aid işıqlandırma vasitələrinin kompleks olaraq tipooji bölgüsü aparılmış, onlar haqqında indiyə qədər söylənilmiş fikirlər ümumiləşdirilmişdir.

## ƏDƏBİYYAT

1. Bakuvi Ə. Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri (akademik Z. Bünyadovun tərcüməsi ). Bakı, 1992, 165 s.
2. Dostiyev T.M. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı, 2001, 292 s.
3. Əhmədov Q. M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, 1959, 142 s.
4. İbrahimov F. Bakıda metalişləmə tarixi (IX-XVII əsrlər). Bakı, 1995, 72 s.
5. İbrahimov F. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı, 1988, 174 s.
6. Hüseynli. N. Orta əsr Şəmkir şəhərinin işıqlandırma vasitələrinə dair. Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies, Cilt: IX, Sayı 1, Sayfa: 131-136, İzmir 2009.
7. Nuriyev. A; Babayev, Ə. Bərdə səhərinin tarixi-arxeoloji oçerki (antik və orta əsrlər), Bakı, 2001, tablo XII, şək. 5, s. 59.
8. Джидди. Г. Средневековый город Шемаха IX-XVII вв, Баку, 1981, табл. VIII 1-2, с. 59.
9. Исмизаде. О. Ш. О раскопках в Кабале на территории южной части городища в 1960 г./ Материальная культура Азербайджана, т. V, Баку, 1964, с.5-130.
10. Казымов. А. О добыче и использовании нефти в средневековом Азербайджане. //Azərbaycan arxeologiyası, Bakı 2001, № 1-4, s 96-100.
11. Художественная культура Центральной Азии и Азербайджана IX-XV веков. Том III. Торевтика. Самарканд-Ташкент, 2012, с. 276.

Tablo I

1


2


3


4


5


6


7


8


9


10 
11 
12 
13 
14 
15 
16 
17 
18 
.

# THİNGS USED FOR İLLUMİNATİON OF HOMES İN THE TOWNS OF MEDIEVAL AZERBAIJAN

***Aida İsmailova***

***Summary***

**Keywords: Medieval, illumination equipments, archaeological fund, pottery lamp**

The article deals with illumination equipments used in the Medieval Ages belonging to the early 9th and 13th centuries revealed from Beylegan, Mingechavir, Baku, Gabala, Bandovan stored in the archaeological fund of National Museum of History of Azerbaijan. The author also tries to give the typological classiification of these tools. The illumination tools of the Middle Ages are of 3 types: tools burning animal fat, candles and lamps. Being metal and ceramic, lamps can be divided into 2 groups. All these illumination tools, especially pottery lamps were widely used by the medieval urban population in Azerbaijan.

# ПРЕДМЕТЫ ОСВЕЩЕНИЯ ЖИЛИЩ СРЕДНЕВЕКОВЫХ ГОРОДОВ АЗЕРБАЙДЖАНА
## (По материалам археологической коллекции Музея Истории Азербайджана НАНА)

***Аида Исмаилова***

***Резюме***

**Ключевые слова: средние века, предметы освещения жилищ, археологический фонд, глиняный светильник**

В статье даются сведения о средневековых светильниках, хранящихся в Археологическом фонде Национального Музея Истории Азербайджана. Они происходят из археологических раскопок древних городов Азербайджана начала IX – XIII вв. как Бейлаган, Мингечаур, Гянджа, Баку, Кабала, Бендован. Светильники были как металлические, так и керамические, но в основном в быту использовались более доступные изделия гончарного производства.

# GƏNCƏ ŞƏHƏRİNİN FORMALAŞMASI TARİXİNDƏN

**Nurlana Həmzəyeva**
**nurlana.hemzeyeva@mail.ru**
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Gəncə, məskən, etnoqrafik tədqiqat, abidə, şəhər.**

Dünyada ilk insan məskənlərindən biri hesab edilən Azərbaycan ərazisi antik və ilk orta əsr müəlliflərinin əsərlərində adı çəkilən şəhərlərdən məlumdur. Belə yaşayış yerləri sırasında Gəncə xüsusi yer tutur. Yerləşdiyi təbii coğrafi şərait, yəni digər iri yaşayış məntəqələrindən fərqli olaraq antik və ilk orta əsrlər dövründə Gəncə daha geniş əraziləri əhatə etdiyindən, onun təbii müdafiə səddləri, dağlar və çaylarla əhatələnməsi səbəbindən, onun ətrafına uzun müddət əlavə müdafiə qurğularının çəkilməsinə zərurət yaranmamışdır (l, səh.6).

Burada bol sulu çayların, münbit torpaqların, zəngin bitki və heyvanat aləminin olması, Daşkəsənin, Gədəbəyin zəngin filiz yataqlarının, Goranboyun əqiq (Todan kəndi), Göygölün kükürd mədənlərinin, Kiçik Qafqazın və qalın Samux meşəliklərinin şəhərin yerləşdiyi ərazini hər tərəfdən əhatə etməsi, burada əhalinin yaşayışı şəhər mədəniyyətinin yüksək səviyyədə olmasına şərait yaratmışdır. İ.Cəfərzadənin Gəncə ətrafında apardığı arxeoloji qazıntılar zamanı Neolit dövrünə aid arxeoloji materiallar əldə etməsi bölgədə insanların hələ Daş dövründən etibarən məskunlaşdığını və tarixin sonrakı ardıcıl inkişaf proseslərində müntəzəm olaraq davam etdiyini söyləməyə əsas vermişdir. Bu baxımdan Cənubi Qafqazda Gəncə - Qarabağ mədəniyyəti adı ilə məşhur olan zəngin arxeoloji mədəniyyətin mərkəzi rayonlarından biri kimi Gəncəçay vadisində aşkar olunan arxeoloji abidələrlə (kurqan qəbirlər və s.) zəngindir (2, səh.4).

Hələ XIX əsrin sonlarından başlayaraq ərazidə fransız alimi Dyuba de Monperenin, F. Bayerinin, Y. Hümmelin, A. İvanovskinin, E. Reslerin, V. Belkin, B.Şultsun, B.Rozendorfun, V.Skinderin, E.Paritsenmayerin, D. Şərifovun, İ. Cəfərzadənin (3), İ. Nərimanovun (4) apardıqları arxeoloji tədqiqatlar Son Tunc və İlk Dəmir dövründə Gəncə və onun ətrafında sıx insan məskənlərinin olduğunu sübut etmişdir. Hal-hazırda da Gəncə və onun ətrafında bu dövrə aid minlərlə kurqan tipli qəbir abidələrinin, yaşayış məs-

kənlərinin mövcudluğu, lakin müxtəlif səbəblər üzündən dağıdıldığından onların yenisi ilə əvəzləndiyini sübut edən tutarlı dəlillərdir. Belə yaşayış məskənlərindən biri arxeoloq R.Əhmədov tərəfindən qeydə alınmış və orada tədqiqat işləri aparılmışdır (5, 1-19).

Arxeoloji tədqiqatlar nəticəsində sübut edilmişdir ki, Son Tunc və İlk Dəmir dövrünə (e.ə. XIII - XII əsrlər) aid mədəniyyətin bünövrəsi əsasında ərazidə oturaq həyatın daha sonrakı güclü və ardıcıl inkişafı üçün möhkəm zəmin yaranmışdır.

Bu tədqiqatlar nəticəsində antik Gəncənin, Gəncə-Bakı dəmiryol xəttinin 10 km-də, sol tərəfdə, Samux rayonunun Tatlı bələdiyyəsi və Gəncə dövlət qoruğunun ərazisində, ilk orta əsrlərdə isə onun Şəhərburnu deyilən yerdə olduğu haqqında ilkin mülahizələr söyləməyi münasibləşdirmişdir.

Xeyli müddət ərzində Gəncə və onun ətraf ərazilərində aparılan arxeoloji tədqiqatların nəticələri burada yaşayışın hələ daş dövründən (İ.Cəfərzadə Gəncə ətrafındakı Baxçakürd kəndindən daş çömçə və iskənə tapmış və onları neolit dövrünə aid etmişdir) başlandığını, tarixin sonrakı inkişaf mərhələlərində ardıcıl olaraq davam etdiyini, son Tunc-İlk Dəmir dövrlərində (E.ə. II minilliyin sonu-I minilliyin başlanğıcı) burada yaşayışın daha da intensivləşdiyini (saysız-hesabsız kurqanların və yaşayış yerlərinin qalıqları bunu təsdiq edir) və ərazidə şəhər tipli yaşayış məskənlərinin yarandığını, antik dövrdə onların ticarət, sənət və mədəniyyət mərkəzi kimi öz inkişaflarının ən uca zirvəsinə yüksəldiyini arxeoloji tapıntılarda da görmək olar. İlk orta əsrlərin işğalları ilə əlaqədar şəhərin qismən tənəzzül etdiyini, X əsrdə Bərdə şəhərinin slavyanlar tərəfindən dağıdılmasından sonra Gəncənin yazılı mənbələrdə əhəmiyyətinin daha da artdığını və Azərbaycan intibahının mərkəzinə çevrildiyini yazılı mənbələr də sübut edir.

Arxeoloji qazıntı işləri aparılan abidələrdən biri İlk Tunc dövrünə aid Göl yeri adlı yaşayış yeridir. Abidə Goranboy rayonunun Tatarlı kəndi ərazisində yerləşir. Qazıntı işləri zamanı yaşayış yerindən böyük həcmli təsərrüfat quyuları, ocaq yerləri və yarımqazma ev yeri aşkar edilmişdir. Yaşayış yerindən zəngin maddi-mədəniyyət nümunələri-daş, sümük və saxsı məmulatı, həmçinin İlk tunc dövrünə aid qəbir aşkar edilmişdir. Yaşayış yerinin 12-ci kvadratına qoyulan şurfda 70-140 sm. arasındakı məsafədə eneolit dövrünə aid saman qarışıqlı saxsı məmulat aşkar edilmişdir. Bu isə yaşayış yerinin alt laylarının Eneolit dövrünə aid olmasını göstərir (6, səh.8).

Gəncə və ətraf ərazilərin qəbir abidələri (kurqanlar əsasən Gəncəçay, Kürəkçay, Gorançay, Qaraçay, Səfikürd, Tatarlı, Qara Arxac, Qaradağlı və

s. ərazilərdə tədqiq edilmişdir) yaşayış yerlərinə nisbətən ... daha çox və daha yaxşı tədqiq edilmişdir. Buna görə də ərazinin qədim sakinlərinin Tunc dövrünə aid təsərrüfat həyatı və məişəti, ictimai-iqtisadi vəziyyəti ilə bağlı ətraflı məlumatlar əsasən qəbir abidələrindən əldə edilmiş zəngin və maraqlı tapıntılar əsasında öyrənilir.

Antik və ilk orta əsrlər dövrünə aid yazılı məlumatlar əsasən əcnəbi müəlliflərin əsərlərində verildiyindən onlar bəzi nöqsanlardan da xali deyildir. Bəzi məlumatlarda Gəncə şəhərinin əsasının Makedoniyalı İsgəndər tərəfindən qoyulması haqqında da fikirlər vardır (5, səh 16). Lakin bu məlumat əfsanə xarakterli olduğu üçün inandırıcı deyildir. Əvvəla, Makedoniyalı İsgəndər Albaniya ərazisində olmamış və Atropatenadan geri dönmüşdür. Digər tərəfdən əfsanəyə əsasən salındığı güman edilən Roma şəhərindən fərqli olaraq antik və ilk orta əsrlər dövründə Gəncə şəhərinin yeri, hələ də arxeoloji qazıntılar nəticəsində müəyyənləşdirilməmişdir.

Gəncənin şəhər olaraq meydana gəlməsi haqqında da müxtəlif fikirlər vardır. V.H.Leviatovun, M.M. Altmanın, V.V.Bartoldun, İ.M.Cəfərzadənin, Mirzəbalanın, Q.M.Əhmədovun, R.C.Əhmədovun Gəncə şəhərinin tarixinə dair əsərlərində (7,8,9,10,11) şəhərin tarixi haqqında düzgün məlumat verilməmişdir. XIV əsr müəllifi Həmdullah Qəzvini Gəncənin Hicri 39-cu ildə (miladi 659-660) bina edildiyini (12, səh. 89-93) bildirmiş, V.V.Bartold isə bu faktın Hicri tarixi üzrə 239 (miladi 853-854) olduğunu söyləmişdir. İ.M. Cəfərzadə isə apardığı arxeoloji qazıntıların nəticələrinə əsasən konkret fikir söyləyə bilməsə də şəhərin IX əsrdən əvvəl meydana gəlməsi fikrinə tərəfdar olduğunu bildirmişdir. O, fikrini əsaslandırmaq üçün Sebeosun fikrinə istinad edir. Sebeos yazır: Bizans imperatoru İrakli (610 - 641) Atropatena Qazakına hərəkət edərək orda böyük məbədələri dağıtdı". İ.Cəfərzadə isə qeyd edir ki, əgər VII əsrdə Atropatena Qazanki olmuşsa, deməli başqa bir Uti və ya Aqvan Gəncəsi də olmalı idi.

Lakin VII - X əsr müəlliflərindən Ananiy Şirakatsi, Əl-Bəlazuri, Ət-Təbəri, İbn Xordadbeh, Yəqubi və Əl - İstəhrinin əsərlərində bir çox ilk orta əsr şəhərlərinin adı çəkilsə də onların içərisində Gəncənin adına rast gəlinmir Ermitajda saxlanılan bir dirhəmin isə hicri tarixlə 94-cü ildə (712-713) Gəncədə zərb edildiyi göstərilmişdir (13, səh. 588). Y.A.Paxomova görə bu pul Arran Cənzisində (Gəncədə) ərəblərin hərbi düşərgəsində zərb edilmişdir. Ərəb işğalları zamanı Arranın məhz bu ərazisi qoşun üçün xəzinə saxlanılan yer olduğundan anbar mənasında Gəncə adlandırılmışdır. Y.A.Paxomova görə Gəncə şəhəri həmin ərazidə sonradan yaranmış və VIII

əsrin əvvəllərindən bu adı daşımağa aşlamışdır (14, 46). Musa Kalankatlının "Alban tarixi" əsərində göstərilir ki, Xalid İbn Yezidin (Xazepatkos - M.K.) oğlu Məhəmməd (Maxmat Xoxoti oğlu) Arran (Arşakeşen) vilayətində Gəncə şəhərini tikdirdi. Xalid hicri 227-ci ildə (841-842) Yəqubiyə görə, Məhəmməd İbn Xalid Arrana Xəlifə Mütəvvəkil tərəfindən hakim təyin edilmişdir. M.X.Şərifli yuxarıdakı məlumatları əsas götürərək Gəncə şəhərinin yenidən bərpa etdirilməsinə Məhəmməd İbn Xalidin ikinci və ya üçüncü dəfə Arrana hakim təyin edildiyi dövrə (856-861) aid edildiyini söyləyir.

Əgər sonralar Şəddadilərin hərbi gözətçi məntəqəsi olmuş Xunanın Gəncə şəhərinin tikilməsindəki rolunu və Məhəmməd İbn Xalidin bu hadisədən sonra təkcə Gəncənin idarəçiliyi ilə kifayətlənməsini nəzərə alsaq, onda bu fakt özü təsdiq edir ki, Gəncə şəhəri salınanadək bu ərazidə baş şəhər rolunu Xunan oynamışdır. Gəncə şəhərinə gəldikdə isə o, indiki yerdən salınana qədər bir neçə dəfə yerdəyişmələri olmuşdur. Arxeoloji qazıntıların aparılmasının çətinliyi səbəbindən, ancaq yerüstü materiallara və müşahidələrimizə əsasən Zivlənçayla Alaxançallı çaylarının birləşərək Gəncəçayı əmələ gətirdikləri ərazi, Gəncə şəhərinin ilk məskən yeri olduğu güman edilir. Bura Gəncəçayın sol sahilində, Zurnabad kəndinin 5 km-də, Gədəmiş kəndinin yaxınlığında yerləşən qədim qala divarlarının qalıqları ilə, hər tərəfdən dərin dərələrlə əhatələnmiş qalın dağ meşəsinin içərisində yerləşən bu yer əhali arasında “Qala yeri” adı ilə tanınır. “Qala yeri” yerli tikinti materiallarından hörülmüşdür. Şəhərin yerdəyişməsi yalnız hər hansı bir təsir nəticəsində öz yerini dəyişə bilərdi. Belə bir hadisə ya ərazidə 427-ci ildə baş verən zəlzələ, ya da Sasani işğalları dövründəki dağıntılarla əlaqələndirilə bilər. 427-ci ildə olmuş zəlzələnin mərkəzinin indiki Zurnabad kəndi yaxınlığında olduğunu nəzərə alsaq, onda Mirxondun "Sasanı şahı I Qubad Gəncə şəhərinin əsasını qoydu" fikrini şəhərin dağıntılarından sonrakı yerdəyişməsi kimi qəbul etmək olar. Müasir Gəncənin 9-10 km cənubunda, Qızılqayanın 8-9 km-də, Gəncəçayın sahilində yerləşən "Köhnə şəhər", "Qonja", yaxud Gəncə adlandırılan yer də Gəncənin salındığı ilk ərazilərdən hesab edilə bilər. Lakin bu dövrdə Gəncənin Bərdə və Beyləqandan fərqli olaraq qala divarlarının möhkəm olmaması faktı, VII əsrdə Azərbaycana gəlmiş ərəb müəlliflərinin də diqqətini cəlb etməmişdir. Bundan başqa bu dövrdə əsas mərkəz Bərdə olduğundan o daha çox diqqət mərkəzində olmuşdur. Ərəblər isə şəhəri öz ordularının yerləşməsi üçün daha əlverişli olan geniş düzənliyə köçürərək ona Gəncə adını vermişdilər. Dərbəndnamə" əsərində VII əsrdə Gəncə və Şirvanın müdafiə istehkamlarının kifayət qədər möhkəm

olmaması haqqında mülahizələr, şəhərin qala divarlarının hələ tikilməməsinə işarətdir. Mənbələr, ərəb qoşunlarının 654-cü ildə Salman ibn Rəbiənin başçılığı ilə Arrana gəlmələri, Bərdə və Beyləqanı tutmaları haqqında məlumat versələr də Gəncənin adını çəkmirlər. Buradan belə qənaətə gəlmək olur ki, şəhər həmin dövr müxtəlif müharibələr meydanı olmuş (məsələn, xəzər-ərəb), basqınlar nəticəsində bir az da quzeyə - indiki "İmamzadə", "Xaraba yer", "Şıx (Şeyx) düzü" adlanan əraziyə köçməyə məcbur olmuşdur. Yəqin ki, Həmdullah Qəzvini «Gəncə... bu İslam (İmam Hüseyn şəhəri) şəhəri Hicrətin 39-cu ilində (miladi 659) salınmışdır» deməklə dağılmış şəhərin yenidən yerdəyişməsini sübut edir (16, s. 91). 1961-ci ildə Gəncə dəmiryol stansiyasının 2 km qərbində aşkarlanmış maddi-mədəniyyət nümunələri də burada e.ə. IV əsrdə və b.e. III əsrlərə aid yaşayış yerinin olduğunu təsdiqləmişdir (17, səh. 74-77).

Gəncə şəhərinin salınması haqqında mənbə və məlumatların əksəriyyətinin bir-birinə zidd olduqlarını nəzərə alsaq, arxeoloji dəlillərə söykənərək belə qənaətə gəlmək olar ki, Gəncənin yaşayış məskəni kimi formalaşması ən azı e.ə. I minilliyin ortalarından başlanmış, ilk orta əsrlər dövründə Bərdə-Tiflis ticarət- karvan yolu üzərində həm də karvansara, gözətçi yaşayış məntəqəsi olmuş, 859-860-cı illərdə Məhəmməd ibn Xalidin Azərbaycana və Arrana hakim təyin edildiyi dövrdə qala divarları ilə əhatəyə alınmış, X əsrin ortaları Bərdə şəhəri tənəzzül etdikdən sonra XIV əsr müəllifi Həmdullah Qəzvini yazdığı kimi «Gəncə Arran şəhərlərinin anası olmuş» (18), sənətkarlıq, ticarət, mədəniyyət və inzibati mərkəz kimi çox tez inkişaf etmişdir. Gəncə Yaxın və Orta Şərqin məşhur şəhərləri olan İsfahan, Mərv, Tus və Ağsaray kimi görkəmli və nemətli olmuşdur (19).

Orta əsr müəlliflərindən Kirokos Gəncəlinin verdiyi məlumata görə hələ 1139-cu il zəlzələsi zamanı Gəncədə 500 min nəfər yaşamış və onlardan 300 min nəfəri zəlzələ zamanı həlak olmuşdur. Əgər həmin dövrdə Avropanın iri şəhərlərində 50-60 min nəfərin yaşadığını nəzərə alsaq, onda Gəncənin əhəmiyyətli bir şəhər olduğu tam mənası ilə aydınlaşar (20,21). XI-XIII əsrlər isə Gəncənin intibah dövrü, onun mədəniyyətinin çiçəklənmə dövrü idi. Məhz bu dövrdə Gəncə dünya ədəbiyyatına Əbül-üla Gəncəvi, Qivami Gəncəvi, Nizami Gəncəvi (22,23), Məhsəti Gəncəvi, Şətərli Yusif əs-Sirafı və b. kimi böyük dühalar bəxş etmişdir.

Yazılı mənbə materiallarına və arxeoloji tədqiqatlara əsasən belə nəticəyə gəlmək olar ki, Orta əsrlərdə möhtəşəm bir şəhərə çevrilən Gəncə, həmin yerlərdə çox qədimlərdən mövcud olmuş eyni adlı yaşayış məskəni

əsasında meydana gəlmişdir (24, 46). Bu yaşayış məntəqəsi mühüm ticarət yollarının üzərində yerləşdiyindən, məhsuldar qüvvələrin və ticarətin daha da inkişaf etməsi nəticəsində sonralar şəhərə çevrilmişdir.

Gəncə bu ərazidə VII əsrdən XVII əsrə qədər mövcud olmuş, Salarilər, Şəddadilər, Elxanilər, Teymurlular, Qaraxanlılar,Qacar-Ziyadoğlular dövrünü, 1122, 1139, 1235-ci il zəlzələlərini yaşamış, (25), XII əsrdən etibarən gürcü, qıpçaq, Xarəzmşahlar, monqolların dağıntılarına məruz qalmış, XIV-XV əsrlərdə Teymurluların, Qaraqoyunluların və Ağqoyunluların idarəçiliyi altında olmuşdur. Monqollar dövründə zəifləmiş Gəncə Səfəvilər dövründə əvvəlki mövqeyini bərpa etmişdir (26). Səfəvi-Osmanlı müharibələri dövründə Gəncəni tutan Fərhad Paşa köhnə şəhəri bərpa etdirməyib, 1588-ci ildə Gəncəçayın (27) sol sahilində öz dövrünün tələblərinə tam cavab verən güclü müdafiə qabiliyyətinə malik yeni qala tikdirir.

Yeni qalanın bir qədər aralıda tikilməsində məqsəd həm köhnə şəhərin çox dağıntıya məruz qalması, həm də osmanlılarla yerli əhali arasındakı məzhəb ayrılığında idi. Əhalisi şiə məzhəbli Gəncədən fərqli olaraq, Gəncəçayın sağ sahilində Osmanlı türkləri ilə həm məzhəb sünni Çələbyurd kəndinin yaxınlığında (28) tikilmiş qala yeni hakimlərin mülahizəsinə görə daha etibarlı hesab olunurdu (29, s. 30).

1606-cı ildə Yeni Gəncə qalasını ələ keçirən I Şah Abbas Gəncə şəhərini köhnə yerindən köçürüb 7 km aralıda indiki yerində bina etdirmişdir. Gələcək nəsillərə yadigar qalsın deyə əsasını qoyduğu yeni şəhəri Abbasabad adlandırdı.

Gəncə tarixinin tədqiqatçısı Fərrux Əhmədov ənənəvi olaraq indiki Gəncənin bünövrəsinin "Səfəvi hökmdarı Böyük şah Abbas tərəfindən qoyulması" fikrinin ziddiyyətli olduğunu, Gəncənin indiki yerinə köçməsinədək tarixinin araşdırılmasının vacibliyini, üç min ilə yaxın yaşa malik Gəncənin tarixinin keşməkeşlərində bir neçə dəfə yenidən qurulduğu haqqında mənbələrin zənginliyindən məlumat vermişdir (30, s. 53).

Bir sözlə, Gəncə şəhərinin adının tarixi mənbələrdə yalnız 859-cu ildən çəkilməsi (31), arxeoloji tədqiqatlarda isə bu ərazidə antik və ilk orta əsrlərə aid şəhər yerinin müəyyənləşdirilməsi şəhərin 1147 il bundan əvvəl salınması faktını söyləməyə əsas verir. Gəncə şəhərinin ətrafında yerləşən xeyli sayda qəbir abidələrinə, xüsusilə kurqanlara gəldikdə isə bunlar Son Tunc - İlk Dəmir dövrlərindən (e.ə. II minilliyin sonu - I minilliyin əvvəlləri) burada yaşayışın olduğunu təsdiqləsə də şəhər haqqında fikir söyləməyə əsas vermir.

## ƏDƏBİYYAT

1. Məmmədov A. Gəncə antik və ilk orta əsrlərdə. Gəncə, 2009.
2. Əhmədov Q.M. Gəncənin qədim və orta əsrlər tarixi // (tarixi oçerk), Bakı, 1994, 152 s.
3. Джафарзаде И.М. Историко-археологический очерк старой Гянджи, Баку, 1949;
4. Nərimanov I.H. Gəncəçay rayonunun arxeoloji abidələri, Bakı, 1958
5. Ахмедов Р.Д. Гордище Гянджа // Из серии материальной культуры, Баку, 1995, с.19
6. Hüseynov M. Gəncə və ətraf ərazilərin tunc dövrü arxeoloji abidələrinə dair, Gəncə, 2009.
7. Левиатов В.Н. Керамика старой Гянджи, Баку, 1940
8. Альтман В.Н., Исторический очерк города Гянджи, Баку, 1949.
9. Bartold V.V. Djanza, The Enc. of İslam (E. I), vol, II, I... 1927, pp. 129-130.
10. Mirza Bala. İslam Ansiklopedisi, I cilt, 37 cüz, İstanbul 1947, s. 762-764; 38 cüz. 1948, s. 765-766.
11. Ахмедов Г.М. Города Азербайджана эпохи Низами // Из серии МКА, Баку1991, с. 20
12. Şərifli M.X., Gəncə şəhərinin əmələ gəlməsi tarixi haqqında, Az.EA Məruzələr, XIX cild, № 6, 1963, səh. 89-93.
13. Al-Jaqubi, Historial, ed. M. Th. Houtsma, Lugd. Batav. t. II, 1883, p. 588.
14. Пахомов Е.А., Монеты Азербаджана, вып., 1. Баку.
15. Kalankatlı M. Alban tarixi, Bakı 1993, 269 səh.
16. Hamd-AllahMustoufı of Qazvini,Nuzhat al-qulub,ed.G.Le Strange,GMS XXIII, London-Leiden 1915,səh,91
17. Babayev İ.A.Kirovabad şəhəri yaxınlığında yeni arxeoloji tapıntılar. AMM, Bakı, 1965, VI cild, s.74-77.
18. Həmdullah Qəzvini, Nüzhət əl-Qülub, Bakı ,1994.
19. Minorsky V. A history of Sharvan and Darband, Cambridje 1958.
20. Məmmədov A.M. Gəncəbasar IV-XIII əsrlərdə, Bakı 1993.
21. Məmmədov A.M. Gəncabasarın Alban dövrü xristian abidələri, Bakı 2000.
22. Məmmədov A.M. Nizami əsrinin Gülüstan qalası, Bakı 1990.
23. Мамедов А.М. Новая версия о топонимии Гянджи // Azərbaycan arxeologiyası, 2001, № 1-4, с. 101-104.
24. Маммедзаде К.Архитектурные памятники Гянджи// Из серии МКА, 1991, с. 46.
25. Münəcccimbaşı «Tarix əl-Bab va Şirvan», Bakı, 1992.
26. Ализаде А.А., Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв., Баку 1956
27. Məmmədov A.M. Goranboy orta əsrlərdə, Bakı, 1990.

28. Məmmədov A.M. Samux mahalının tarixi-arxeoloji tədqiqinə dair, Bakı 2000, s.95.
29. Məmmədov A.M Məhərrəmov A.N., .Daşkəsən-Dəstəfur, Bakı, 2002, s.60
30. F.Əhmədov. Gəncə şəhərinin yerdəyişmələri. Gəncə 2009.
31. Севесос, История (Перевод Г. Малхасяна), Ираван 1939.

## FROM THE HISTORY OF GANJA GROWTH

***Nurlana Hamzayeva***

***Summary***

**Keywords : Ganja, dwelling, ethno graphical research, monument**

The natural-geographical location of Ganja show us that the people of Ganja had lived since Stone age but the archeological excavations show that their living in these territory had continued till nowadays.

The archeological excavations in Ganja started at the end of the XIX century. The French Dyuba de Monpere, F.Bayern, Y.Hummel, A.Ivanovski, E.Resler, V.Belk, B.Shults, B.Rozendorf, V.Skinder, E.Paridsenmayer, D.Sharifov, I.Cafarzada, I.Narimanov, R.Ahmadov, G.Ahmadov, A.Mammadov informed about the history of Ganja.

## ИЗ ИСТОРИИ ФОРМИРОВАНИЯ ГОРОДА ГЯНДЖИ

***Нурлана Гамзаева***

***Резюме***

**Ключевые слова: Гянджа, население, этнографическое исследование, памятник**

Статья посвящена истории формирования города Гянджи. На основе археологического и исторического материалов рассматриваются этапы неоднократного перемещения и месторасположения города и их причины. Они в основном были связаны с природно-географическими условиями, бесчисленными военными действиями. Весьма противоречивы мнения исследователей о времени возникновения Гянджи.

# XARABA GİLANDAN TAPILAN KİTABƏLİ PARÇA FRAQMENTİ

**Afaq Quluzadə**
afaq-quluzade@mail.ru
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Xaraba Gilan, parça fraqmenti, kitabə, semantika, tiraz.**

Maddi mədəniyyət abidələri Orta əsrlərin siyasi tarix, mədəniyyət, sənətkarlıq məsələlərinin tarixi-arxeoloji cəhətdən öyrənilməsində mühüm mənbələrdən sayılır. Bu baxımdan müxtəlif materiallar üzərindəki ərəb-fars-dilli kitabələrin araşdırılması, kitabələrdə əks olunan dil, tarix, terminologiya və toponimikaya aid faktların və abidələrin ornament–naxış yaradıcılığı baxımından sənətkarlıq xüsusiyyətlərinin təhlili aktualdır.

Maddi mədəniyyət nümunələri sırasında arxeoloji qazıntılardan tapılan parça fraqmentləri qədim tariximizin öyrənilməsində vacib mənbələrdən sayıla bilər. Parça nümunələri Mingəçevirdə, Bakıda- Şirvanşahlar sarayında, Xaraba Gilanda-qədim Kiran şəhərinin yerində aparılan qazıntılarda aşkar edilmişdir. Çox qədim zamanlardan Nil vadisində, Mesopotamiyada kətan və yundan parça istehsalı məlum idi. Misir, Assuriya, Babil və Suriyada parça istehsalı geniş yayılmışdı. Bu dövrlərdə həm ayrı-ayrı feodallara, həm də dövlətə məxsus sexlər fəaliyyət göstərirdi. Qədim Xaldda b.e. 4000 il əvvəl təsərrüfat hesabatlarına aid sənədlərdə sadə və zərif yunlu qoyunların saxlanılması barədə məlumatlar verilir. Eyni zamanda hökmdarlara və iri feodallara məxsus zərif yunlu qoyun sürüləri xüsusi saxlanılan çobanların nəzarətində otarılırdı. İlk dövrlərdə parçalar üzərində müxtəlif ornament və naxışlar – dairə, romb, kvadrat, üçbucaq və bitki motivləri toxunurdu. Pliniyə görə, parçaların müxtəlif rəngli saplarla toxunması Babildə tətbiq olunmuşdu. İpək və yun parçalar üzərində qızıl və gümüş saplarla naxış salmaq isə romalıların dövründən məşhurlaşmışdı (1, 16).

Mingəçevirdə eramızın V- VII əsrlərinə aid katakomba qəbirlərindən tapılan fraqmentin toxunmasında qızıl saplardan istifadə edilib. Şirvanşahlar sarayı kompleksində türbənin sərdabəsindəki uşaq qəbrindən tapılan ipək örtük üzərində nəbati naxış və ərəb dilində kitabə toxunmuşdur (2, 11). Bəzi tədqiqatçılar sözlə parçanın ayrılmaz vəhdətdə olduğunu qeyd edir, məhz toxunma parçaların Misir papirusunun, kağızın ixtira olunmasından çox əv-

vəl yazı üçün əsas material olduğunu göstərirlər. Çox yüzillər ərzində məktub, şeir, fəlsəfi traktatlar, saray etiketləri vəsaitlərinin yazılması üçün ipəkdən istifadə edilirdi. Mavanduedə e. ə. II əsrə aid sərdabədən Lao-Tszının mətnləri, həm də Çin təbabətinə aid dərslik yazılmış ipək parça aşkar edilmişdir (3).

İslam dininin ilk illərindən başlayaraq parçalar üzərində müxtəlif məzmunlu kitabələr toxumağa başlanılır. Sifarişlə toxunan belə parçalar "*tiraz*", onların toxunduğu sənətkarlıq sexləri isə *"dar ət-tiraz"* – "toxucu evi" adlanırdı. Əməvi xəlifələri əvvəllər Suriya və Misirdə Bizans imperatorları üçün hazırlanan ipək tirazlardan istifadə edirdilər. Tirazların kənarında olan yazılar yunan dilində toxunurdu; əməvilər buna diqqət vermirdilər. Rəvayətə görə, bir gün xəlifə Əbd əl-Məlik tiraz üzərindəki yazıların mənasını soruşur və xristianlığa aid olduğunu, yəni "ata, oğul və müqəddəs ruh adına" sözlərinin yazıldığını bildikdə, bundan sonra bütün tiraz kitabələrinin ərəb dilində olmasını və "La ilahə illəllah" ehkamının toxunmasını əmr edir. Parçalar üzərində xəlifələrin, onların varislərinin, sultanların və hakimlərin adlarının toxunması parçaların istehsal edildiyi yeri və onların dövrünü müəyyən etməyə imkan verir. VII-IX əsrlərdə bu sexlər istehsal sahəsində böyük rol oynayırdı. Parça istehsalı ilə məşğul olan sexlər iki növ idi: xüsusi və ümumi. Tiraz azad və açıq ticarət üçün nəzərdə tutulmurdu; belə parçalardan bayraq hazırlanırdı. Bununla yanaşı, ondan sərdabələrdə qəbir üstünə örtmək, pərdə, varlı əyanlara hədiyyə etmək üçün, sonralar isə paltar, boxça və çiyin örtükləri kimi istifadə olunmuşdur. Tiraz, xütbə və sikkə bir hökmdarlıq rəmzi sayılırdı (4).

Tarix elmləri doktoru Sara Aşurbəyli mənbələrin məlumatına əsaslanaraq yazır ki, XII-XV əsrlərdə Azərbaycan şəhərlərinə Çindən qızıl saplarla toxunmuş və qızıla bərabər tutulan ipək parçalar gətirilirdi. Azərbaycanın Bakı və digər şəhərlərinin feodal zümrəsi Şərq ölkələrindən gətirilən yun və ipək parçalardan istifadə edirdilər (5, 155, 255). Həmin müəllif XV-XVI əsrlərdə Şamaxı və Bakıya gələn hind tacirlərinin ədviyyatla yanaşı bahalı Kəşmir parçaları- qızıla bərabər tutulan "tirmə" gətirdiklərini qeyd edir. "Tirmə" qalıqları Şirvanşahlar sarayındakı XV əsrə aid türbənin sərdabəsində də aşkar edilmişdir (6, 42-45).

Orta əsrlərdə toxuculuq sənəti yüksək inkişaf etmiş sənətkarlıq sahələrindən biri olmuşdur. Arxeoloji qazıntılardan aşkar edilən kətan, yun, ipək saplardan toxunan quş təsvirli, nəbati naxışlı nümunələrin bəzisinin Çin və Hindistandan gətirildiyi qeyd olunsa da (5), əşyaların üzərindəki yazıların

öyrənilməsi onların bir çoxunun yerli istehsala məxsus olmasını sübut etməyə şərait yarada bilər. Yazılı mənbələrdə Azərbaycanda, o cümlədən Naxçıvan ərazisində ipək istehsalının geniş vüsət tapması ilə yanaşı parça toxunması haqqında məlumat verilir. Orta əsrlərdə toxuculuq sənəti Naxçıvanda əsas yerlərdən birini tuturdu (7,46-47). Övliya Çələbi öz "Səyahətnamə"sində Naxçıvanda 7 növ pambıq- zəği, münlayi, zəfərani, ləli, xas, bəyaz növlərinin əkildiyini yazır. Onun qeydinə görə, "buranın sənətkarları təcrübəli ustalardır. Qələmkari, bəhramguri parçaları və əl işi olan süfrələr üçün çit bütün dünyada məşhurdur " (8).

Naxçıvan Muxtar Respublikası muzeylərinin fondlarında üzərində kitabələr toxunan xalça, dərviş papaqları, canamaz və s. mühafizə edilir. 1913-cü ildə Qafqaz Tarix-Arxeologiya İnstitutunun Xaraba Gilanda apardığı qazıntıda aşkar edilən parça qalıqları Tiflisə- Qafqaz muzeyinə aparılmışdı (9, 204-207).

Ötən əsrin 70-ci illərinin sonunda Xaraba Gilan - qədim Kiran şəhər yerindəki türbənin sərdabəsində dəfn edilən qadın və uşaqlara məxsus pambıq, kətan və ipəkdən hazırlanmış yaylıq, köynək, şalvarlar və onların fraqmentləri aşkar edilib. Sənətşünas Gülsüm Əliyeva tapılan iki fraqment barədə məlumat verərək, şəkillərini çap etdirir. O, mənbələrin verdiyi məlumatlara istinad etmiş, parçaların materialını, toxunma texnikasını, dekorun xüsusiyyətlərini qeyd edərək, onların yerli istehsala məxsus olduğunu göstərmişdir. Tədqiqatçı buradan tapılmış ipək parçadan hazırlanan köynəkdəki naxışların Azərbaycanın XII-XIII əsr şirli keramika nümunələrində, daha bir naxışın Xaraba Gilandan tapılan və XV əsrə aid edilən qab fraqmentində rast gəlindiyini qeyd edir (10, 83-89). İndiyə qədər qədim toxuculuq nümunələri sənətkarlıq baxımından öyrənilsə də, onların üzərindəki kitabələrin araşdırılmasına təşəbbüs göstərilməyib.

Xaraba Gilan arxeoloji abidəsində aşkar edilən, hazırda Azərbaycan MEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında saxlanılan və çox nəfis şəkildə qızıl, gümüş saplarla naxışlanmış pambıq, yun və ipək parça fraqmentlərindən bir neçəsinin şəklini arxeoloq Bəhlul İbrahimli çap etdirmişdir (11, 392-400).

Həmin fraqmentlərdən biri sərdabədəki tabutun üzərinə salınan örtüyün qalığıdır. (Fraqmentlərin fotosunu bizə arxeoloq, tarix üzrə fəlsəfə doktoru B.İbrahimli təqdim etmişdir.)

***Fraqmentin ümumi təsviri:***

Parça fraqmentinin ölçüsü təxminən 40x35sm, yerliyi bugünkü görünüşündə açıq qəhvəyi rəngdədir. Toxunuşunda tünd qırmızı, göy, ağ və qara rəngli kətan iplikdən istifadə edilmişdir. Ornamentlər ilk baxışdan memarlıq ünsürlərinə bənzəyir. Kompozisiyanın əsas motivlərini həndəsi fiqurlar–üç ölçüdə olan dördbucaqlılar və haşiyə şəklində naxış təşkil edir.



Fraqmentin mərkəzində tünd qırmızı rəngli iplıklə (eni 4 sm) ziqzaq şəklində haşiyə naxışı toxunub. Kənar xətləri düz olan haşiyə, növbəli şəkildə, sağ və sol tərəflərə doğru çıxıntı kimi "əyilərək" üçbucaqlar əmələ gətirir. Fraqmentdə bunların sayı üçdür. Haşiyədən ayrılan üçbucaqlılara paralel olaraq və onun ölçüsündə boşluq yaranıb- sanki üçbucaq həmin sahədən kəsilib götürülmüş və əks tərəfə qoyulmuşdur. Hər bir üçbucaqlının davamı olaraq qara rəngli kiçik dördbucaqlı iri ölçülü dördbucaqlıya birləşir. Fraqmentdə üç ədəd belə həndəsi fiqur var. Boşluqlardan azca aralı orta ölçülü dördbucaqlı toxunub ki, bunların sayı üçdür.

Sadalanan həndəsi ornamentlərin kənarlarını bir düz xətt üzərində toxunan şaquli və üfiqi xətlərin kombinasiyasından yaranan saçaq motivi əhatə edir. Bu toxumaların rəngləri fərqlidir: böyük və kiçik dördbucaqlılar ətrafında firuzəyi-mavi, orta ölçülü dördbucaqlıda isə qara rəngdədir. Saçaqlar dördbucaqlılara birləşmir, onları bir-birindən ağ rəngli xətt ayırır. Böyük və kiçik dördbucaqlılar eyni rəngli saçaqlar vasitəsilə haşiyəyə birləşir. Lakin orta ölçülü bu həndəsi fiqurlar haşiyədən azca aralı toxunmuşdur.

Haşiyənin kənarı firuzəyi–mavi rəngli saçaq ornamenti ilə əhatələnib. Bu ornamentlər iki növdür: a) şaquli və üfqi xətlərin birləşməsindən yaranan və b) tac şəkilli. Tac şəkilli ornamentlər haşiyədən ayrılan üçbucaqlılarla boşluqlar arasında yan-yana və bir-birinə bitişən qövslər üzərindədir. Qövslər daxilinə nəbati naxış salınmışdır.

İri dördbucaqlı fiqurun haşiyədən ayrılan üçbucağa paralel bucağında quş, yaxud kəlbətin ağzına (və eyni zamanda haşiyədən sağ tərəfdəki dördbucaqlıda ərəb əlifbasının “ayn” hərfinin sözün əvvəlində yazılan şəklinə - ) oxşar element toxunub. Bu elementin daxilində qara rəngli dördbucaqlı kiçik ölçüdə təkrar edilir. Eyni element orta ölçülü dördbucaqlıda da var. Bu həndəsi fiqurun haşiyəyə paralel bucağındakı element quş lələyinə oxşadılmışdır.

Həndəsi fiqurların və haşiyənin daxilində müxtəlif ornament, təsvir və ərəb dilində kitabələr toxunmuşdur.

İri dördbucaqlıların hər birinin mərkəzində qara rəngli kvadrat daxilində ağ rəngli həndəsi ornament toxunub ki, bunlar da bir-birindən fərqlənir. Buradakı kvadratların kənar xətləri ağ rənglə əhatələnib. Kvadratların kənar xətləri boyunca kitabə toxunduğunu güman edirik. Bunlardan birinin açılışı mümkün olmuşdur. Bu ornamentin (fraqmentin sol yuxarı tərəfindəki dördbucaqlıda) oxşarının sənətşünas Rasim Əfəndiyev qəbir mənası verdiyini yazır (12, 16). Həndəsi fiqurlardan başqa burada insan təsvirləri də var. Dördbucaqlıların sağ və sol bucaqlarının hər birində onların sayı bir, yuxarı və aşağı bucaqlarında isə ikidir. Yan tərəflərin hər birinə paralel olaraq bir ədəd kitabə toxunub. İnsan təsvirləri və kitabələr ağ rənglidir. Tək halda təsvir edilən insan fiqurlarının yanındakı kiçik həndəsi elementlərin təkrarı bu dördbucaqlını haşiyəyə birləşdirən kiçik dördbucaqlıda və orta ölçülü dördbucaqlıların daxilində də hər birindən iki ədəd olmaqla təsvir edilmişdir.

***Kitabələr:***

Fraqmentdə, qeyd edildiyi kimi, ərəb dilində kitabələr toxunub. Haşiyədə fellər məsdər şəkilindədir. Əksər sözlərin və ➢□□ “qaf” hərfinin toxunuşunda güzgü simmetriyası üsulundan istifadə edilib. Bir sözdən ibarət kitabələrin toxunuşu *mutərriz* (naxışçı) tərəfindən çox ustalıqla seçilmişdir; belə ki, yazılışı şəkilcə eyni olan, yalnız hərfaltı və hərfüstü nöqtələrlə fərqlənən müxtəlif mənalı sözlər süjetin semantikasını açmağa kömək edir.

Mərkəzdəki haşiyədə altı cərgə söz, iki cərgə hərf, dörd cərgə qoşa insan üzü əks olunur. İki yerdə - birinci və dördüncü cərgələrdə sözlər düz xətt üzrə deyil, haşiyənin kənarında yuxarıdan aşağıya doğru istiqamətlənmişdir.

Beləliklə, on iki cərgədə toxunan kitabələrin oxunuşu və tərcüməsini aşağıdakı kimi ehtimal edirik:

***I cərgədə*** iki söz toxunmuşdur. Bu sözlərin toxunuşu elədir ki, onları bir neçə variantda oxumaq mümkündür:

a) haşiyənin kənarında yuxarıdan aşağıya doğru:

⧫❒☞⌫ - *"fitnətun"* – üsyan, qiyam.

Bu sözün yazılış istiqaməti, ola bilsin ki, baş verən hadisənin- döyüşün səbəbini xüsusi olaraq vurğulayır.

b) İkinci sözün aşağıdakı variantlarda oxunuşunu etimal edirik:

🕗❖✍ - *"dayrun"* - bədbəxtlik, fəlakət; zərər vurmaq;

🕗✍ - *"dıddun"*- müxalif, düşmən, rəqib

🕗⮳ -*" saddə"* – müqavimət, zərbə; geri oturtmaq, dəf etmək (düşməni), **məc. mənada:** öldürmək, qaçırtmaq;

🕗✍ - *"daddə"* , *"daddun*- rədd etmək, uzaqlaşdırmaq; qalib gəlmək

Burada ➲ - "*ləm"* və 🕗 - *"dəl"* hərflərinin tək yazılan şəkilləri toxunmuşdur. Bunların hansı məna kəsb etdiyi hələ dəqiq müəyyənləşdirilməmişdir. Beləliklə, birinci sətrin tərcüməsi belədir:

Üsyan, qiyam. Bədbəxtlik (üz verdi), (fəlakət baş verdi), mühafizə etmək (üçün) müqavimət (göstərildi).

Zərbə (vuruldu), dəf edildi (hücum), qalib gəlindi.

Digər variant: bütün sözləri yuxarıdan aşağıya doğru oxusaq :

❄⓿ -*"məssə"* –baş vermə (bədbəxtlik)

✧🕗🕔 -*"harabə"*-bədbəxtlik, qəm-kədər

✧🕗🕔 -*"harbun"*-döyüş, müharibə

✧🕗🕔 -*"harrubə"*- dağıtmaq, var-yoxdan çıxarmaq, boşaltmaq

✧🕗🕔 -*"haribə"*-xarabalığa çevrilmək

İkinci tərcümə variantı: (Bədbəxtlik) baş verdi. Döyüş (oldu). (Şəhər) dağıldı, (var-yoxdan çıxdı, boşaldı).

***II cərgə:***

Burada qoşa halda insan üzü təsvir edilmişdir. Bunlar elə toxunub ki, üzlərdə xaç şəkli yaranıb (qara rəngdə). Ola bilsin, bu, rəqibin müsəlman olmadığına işarədir. Üzün sağ tərəfində iki samit hərfdən ibarət yazı alınmışdır. Üzün sol tərəfi həmin yazının güzgü simmetriyası ilə əksindən ibarətdir. Bu, nöqtəli və nöqtəsiz olmaqla, eyni şəkildə yazılan, müxtəlif mənalı aşağıdakı sözlərdir:

a) 🕘🕐 -*"carra"*- çəkmək, cəlb etmək (nəyəsə), sövq etmək;

b) 🕘🕔 -*"hurrun*" –asılı olmamaq, azad, müstəqil;

*"harrun"* -tuşlamaq (silahı),;

c) 🕚🕛 -*"xarrun"*- çökmək, düşmək (diz üstə), zəifləmək, azalmaq, tənəzzül etmək, geriyə getmək;

Beləliklə: cəlb edildi (müharibəyə, döyüşə), azad (olmaq istədi), tuşladı (silahı), zəiflədi (düşmən), diz üstə çökdü, tənəzzül etdi.

***III cərgə:***

Burada da iki söz toxunub:

a) □❑⮉ -*"məllun"*- yorğun düşmək, yorulmaq; məhv etmək,

yaxud:

❑⌫ -*"fəllun"*- düşməni qırmaq,

❑⌫ - "*fəllə*" - gücünü zəiflətmək; qaçmaq, götürülmək, daban almaq;

❑⮘ -*"qallə-* azaldılmaq; ❑⮘ - *qallun"* - sayca az, azlıq,

❑⮘ -*"qıllun,* ❑⮘ - *qullun"* - titrəmə, əsmə, lərzə;

b) &⌖ -*" baqqə"* - tökmək, axıtmaq (qanını),

Lərzəyə, titrəməyə (saldılar (düşməni)), axıtdılar (qanını), yorğun düşdülər (düşmən), (sayca) az qaldılar, (düşmən) daban aldı, qaçdı, qırdılar (düşməni).

***IV cərgə:***

a) ⧫❖⯑□ *"təyhun"* - dərbədər düşmə, yoldan azma, səhv etmə, yanılmaq itmə, yox olma, məhv olma;

⧫❖⯑ - *"təyyəhə"* - düz yoldan çıxarmaq;

b) ⧫❖⯑ -*"təyhun"* - səhra, biyaban;

c) ☜❖🡐 -*"niyyətun"*- niyyətində olma, qərar vermək, uzaqlaşdırılmaq, rədd edilmək, qovulmaq, kənar edilmək.

Yoldan azdırdılar. Dərbədər düşdülər. Səhv etdilər, yanıldılar. Qovuldular.

***V cərgə*** **II** cərgə ilə eynidir.

***VI cərgə:*** təkrarı güzgü simmetriyası üsulu ilə toxunan *"qaf"* hərfi, ərəb əlifbasının iyirmi birinci hərfidir. Əbcəd hesabı ilə yüz rəqəmini bildirir. Bu yazının mənası hələlik aydınlaşdırılmayıb. Ola bilsin, düşmənin çoxluğuna işarədir.

**VII** cərgə **III** cərgə ilə eynidir.

**VIII** cərgə **II** və **V** cərgə ilə eynidir.

**IX** cərgə **I** cərgə ilə eynidir.

**X** cərgə **VI** cərgənin təkrarıdır.

**XI** cərgə **II**, **V**, **VIII** cərgələrin təkrarıdır.

**XII** cərgə **IV** cərgənin təkrarıdır.

Haşiyədən kənarda –böyük dördbucaqlılar daxilindəki söz dörd dəfə - iki dəfə düz, iki dəfə güzgü simmetriyası üsülu ilə toxunmuşdur.

➲⌖☞⋖ - "*qital* " - döyüş,

➲⌖☞⋖ - "*qəttal* " - "savaşda öldürülmüş" mənasındadır.

Orta ölçülü dördbucaqlılardakı kitabə ❑⋂ - *məllə* – darmadağın etmək və &ʒ⌖ -*"baqqə"* –tökmək (qanını) sözlərindən ibarətdir. Bu sözlər bitişik toxunmuşdur. Kitabə bu həndəsi fiqurların birində - haşiyədən sağ tərəfdə- yuxarıda düz toxunmuş, aşağıda və sol tərəfdəki dördbucaqlı fiqurda isə güzgü simmetriyası üsulu ilə yerinə yetirilmişdir.

Hər iki növ dördbucaqlı fiqurlar, fikrimizcə, şərtiləşdirilmiş (stilizə edilmiş) quş təsvirləridir. Quş təsviri qədim inamlara görə, rəmzi məna daşıyır; o, yerlə (insan) göy (ilahi) arasında bir vasitəçi, əlaqə yaradan hesab edilirdi. O, həm də canlıların və ruhların rəmzi sayılırdı. Misir papiruslarında vəfat edən şəxsin insan başlı quş timsalında təsvir edilməsinə rast gəlinir.

Böyük dördbucaqlıda toxunan insan təsvirlərinin üzü döyüş meydanına - torpağa doğru istiqamətlənib. Bəzi tədqiqatçılara görə, ölümdən sonra insan ruhu bədəni tərk edərkən torpağa doğru boylanır və torpaq ona əkin zəmisi şəklində görünür. Bu insanlar öz torpağı uğrunda şəhid olanlardır. Onların ruhu torpağa bağlıdır. Bu, qəhrəmanlıqla ölümün simvoludur. Dördbucaqlının və haşiyənin qırmızı rəngli iplə toxunması öz torpağı uğrunda vuruşan şəhidlərin qanına işarədir. Fiqurun (quşun) daxilində və ona bitişik kiçik dördbucaqlıda (əlaqələndirici element) toxunan ornament qəbir daşını bildirir. Quşun başı dimdiyi açıq halda təsvir edilmiş, ağzındakı qara rəngli ornament şəhidlərin azad olan ruhlarına işarə edir. Fiquru və döyüş meydanını əhatə edən saçaq toxumaları firuzəyi-mavi rənglidir ki, bu rəng günahsızlıq və nöqsansızlıq (paklıq) rəmzidir.

Orta ölçülü dördbucaqlı fiqurlar qara rənglidir. Onların böyük fiqurlar kimi döyüş meydanına - torpağa bağlılığı yoxdur. Bu stilizə edilmiş quş düşmən əsgərlərinin cəsədləridir. Bu quşun ağzında heç bir əlavə element toxunmayıb. Onların ruhu Allaha qovuşa bilmir. Bəzi inamlara görə təmiz ruhlar göydə, günahkarlar isə qaranlıqda (zülmətdə) qalır. Dördbucaqlıları əhatələyən saçaq elementi də qara rənglə toxunub.

Stilizə edilmiş quş təsvirlərinin bayrağa da bənzəri var. Lakin parçada toxunan kitabələrin məzmunu bu ehtimalı istisna edir. Fikrimizcə, bu fraqment şəhid tabutu üzərinə salınmaq üçün xüsusi sifarişlə hazırlanmış örtüyün qalığıdır. Onun hansı ölçüdə toxunduğu məlum deyil. Lakin təsvirlər və

verilən çox qısa şərhlər süjetin döyüş səhnəsini əks etdirdiyini göstərir. Dünya muzeylərinin fondlarında da digər Avropa xalqlarının müharibə mövzusuna həsr olunan toxuculuq məmulatları qorunur. Normanların İngiltərəni işğal etməsi XI əsrdə "Baye xalçası" adlanan 70 metrlik kətan lent üzərində toxunub. Burada da nəhəng tarixi mənzərənin hər bir süjeti qısa mətnlə şərh edilir. Elmi ədəbiyyatda, ayrı-ayrı kataloqlarda Xaraba Gilan fraqmentinin analoqunu tapmaq cəhdlərimiz hələlik nəticəsiz qalmışdır.

Sərdabədə dəfn edilmə qaydası, buraya qoyulan əşyalar, parça fraqmentləri, şəhidlərin yüksək zümrəyə mənsub olduğunu göstərir. Aparılan arxeoloji tədqiqatlara görə, Kiran şəhəri XVII əsrdə mövcud deyildi. Buna görə, sənətşünas G.Əliyevanın türbədən tapılan paltar və parça fraqmentlərinin XVII-XVIII əsrlərə aid etməsi tarixini türbə ətrafında ətraflı tədqiqatlar aparılmadan qəbul etmək olmur. Bəzən tiraz üzərində onun toxunduğu yer və il kiçik hərflərlə göstərilir, ustanın adı isə nadir hallarda toxunurdu. Xaraba Gilandan tapılan parça fraqmentindəki kitabələrin xətti də onun yuxarıda qeyd edilən tarixdən bir neçə yüz illər əvvələ aid olduğunu göstərir.

Bu fraqment ətrafında araşdırmalar davam edir. Digər yazılı qaynaqlara müraciət edilməklə bu barədə doğru və ətraflı məlumat almağa ümid edirik.

## ƏDƏBİYYAT

1. Соболев Н.Н. Очерки по истории украшения тканей. Москва-Ленинград, 1934.
2. Асланов Г. М., Голубкина Т.И., Садыхзаде Ш.Г. Золотые и серебряные предметы из археологических раскопок Азербайджана. Баку, 1966.
3. Демиденко Ю. Слова на ткани: путь к эгалитаризму. Теория моды. Одежда. Тело. "Культура", №21, 2011.
4. Corci Zeydan. Mədəniyyət-e islamiyyə tarixi. 1328 (ərəb əlifbası ilə).
5. Ашурбейли С. Б. История города Баку. Период средневековья. Азернешр, Баку, 1992.
6. Минкевич-Мустафаева Н.В. Гробница в усыпальнице Ширваншахов. Доклады Академии Наук Азербайджанской ССР. № 1, 1947.
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Elm, Bakı, 1977.
8.Челеби Эвлия . Книга путеществий. Москва, 1971.
9.Сысоев М. В. Нахичеванский край (Нах. ССР.) (Отчет о поездке летом 1927). Известия Азкомстариса, вып. 4, тетр. 2. Баку, 1929.
10.Алиева Гюльсум. Хараба Гилянские вышивки. Доклады АН Азербайджанской ССР. т. XXXVII , № 7, Баку, 1981.

11. İbrahimli B.İ. Orta taleli şəhərlər. Şəmkir. Arxeoloji irsi, tarixi və memarlığı. Birinci Respublika elmi- praktik konfransının materialları (28-29 noyabr 2007). Bakı, 2008.
12. Əfəndi Rasim. El sənəti örnəklərində emblem və rəmz mahiyyətli bəzəklər. Qobustan. Bakı, 1970, № 3.

## A CLOTH FRAQMENT WITH THE INSCRIPTION FOUND IN KHARABA GILAN

***Afag Guluzadeh***

***Summary***

**Keywords: Kharaba Gilan, a cloth fraqment, inscription, tiraz, semantics.**

On some cloth fraqments found during the archaeological excavations can be met the inscriptions in the Arabic language. This type of cloth woven on special order – tiraz is of great importance in the study of the history of the Middle Ages. The article deals with inscriptions on tiraz found from a tomb in Kharaba Gilan, and stored in the exposition of ANAS, History Museum.

## О ФРАГМЕНТЕ ТКАНИ С НАДПИСЬЮ, НАЙДЕННОЙ В ХАРАБА ГИЛАНЕ

***Афаг Гулузаде***

***Резюме***

**Ключевые слова: Хараба Гилан, фрагмент ткани, тираз, надпись, семантика.**

На некоторых фрагментах тканей, найденных при археологических раскопках в нашей республике, встречаются надписи на арабском языке. Большое значение в изучении средневековой истории и культуры имеют тиразы – ткани с надписью. В статье рассматривается тираз с надписью, найденный в склепе мавзолея в Хараба Гилане и сохраняемый в экспозиции Национального музея истории Азербайджана.

MARAQLI TAPINTILAR
INTERESTING EXPLORATIONS
ИНТЕРЕСНЫЕ НАХОДКИ

# ŞAMAXIDAN TAPILAN "DAŞ BABALAR" HAQQINDA

**Vəfa Quliyeva, Qənirə Pirquliyeva**
quliyeva_v@mail.ru, p_qanira@hotmail.com
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: daş bütlər, qadın və kişi obrazları, monqol, etnik, Şamaxı.**

Qala kəndində məskunlaşan bir qaçqın ailənin verdiyi məlumata görə Şamaxının Ərəbşalbaş (indiki inzibati ərazi bölgüsünə görə Qobustana aiddir) kəndində bir nəfərin həyətyanı sahəsində 2 ədəd maraqlı daş heykəllər tapılmışdır. Elmdə "daş babalar"adlanan bu nümunələr kişi və qadın obrazlarıdır. Hər iki daş heykəlləri ümumi vəziyyətinə görə müsbət qiymətləndirmək olar. Belə ki, hansısa bir sınıq, kəsik izləri qeydə alınmamışdır. Daş heykəllərin ümümi ölçüləri- uzunluğu 0,5-0,6 metr olaraq, enlik göstəriciləri antropomorf quruluşlarına görə ayrı-ayrıdır. Bununla belə, vizual olaraq en kəsiyi təxminən 0,3 metrə qədərdir. Heykəllər portret janrında olaraq, insan bədəninin yarıya qədər ölçülərini göstərir. Hər iki heykəlin realizm üslubunda olması, həmçinin obrazlarda mümkün olduğu qədər baş geyimlərinin detalları, saç düzümü, boyun bəzəyi və ümumi geyim detalları aydın olaraq seçilir. Antropoloji quruluşuna görə heykəllərin elmdə qəbul edilən şərqi- monqol tipdə olması, Altay-türk xalqlarına məxsus üz cizgilərini aydın olaraq seçmək mümkündür. Hər iki insan obrazı göz quruluşlarına, üçüncü tip tük- yəni bığ, saqqal, saçlarının quruluşu etibarilə, onların xüsusi düzüm nümunəsinə görə məhz monqol- türk xalqlarına məxsus quruluşda, çox nəfis olaraq, cızma və yonma üsulu ilə hazırlanmışdır. Heykəllər oturmuş vəziyyətdədirlər. Ayaq hissələri yoxdur. Həmin yerdə postament – yerə dikilmə üçün xüsusi düz hissə nəzərə çarpır. Qadın obrazının qol hissəsi assimetrik olaraq, sol qolu sağ boynuna tərəf uzanmış vəziyyətdədir. Onun bel nahiyəsinə qədər üst geyimi yoxdur. Sağ qolu yanına uzanmış şəkildədir. Beldən aşağı sol tərəfdə dairəvi formada kisə, yaxud kasaşəkilli qab

nümunəsi vardır. Bu element bel kəmərinə keçirilmiş şəkildədir.Qadının baş geyimi klassik olaraq alına tərəf irəli uzanmış şəkildə olaraq, hamar formada arxaya daranmış, yığılmış saçlar öndən görünür. Bu baş geyimi qadının boyun və qulaq hissəsini tam olaraq örtmüşdür. Bu səbəbdən də mümkün olan boyun bəzəyi və yaxud sırğaları görünmür. Bel nahiyəsindəki kəmər hissəsi cızılmış, ensiz formadadır. Eyni hündürlükdə olan kişi heykəlinin baş nahiiyəsi üz hissəsi uzunsov olaraq boyundan irəli çıxarılmış vəziyyətdə olaraq, daha çox sinəyə tərəf yönəlmiş şəkildədir. Qaş , bığ hissələri nazik və daha çox üçbucaq formadadır. Dodaqlar nazik olaraq alt çənədə azacıq saqqal görünüşü alt dodağın aşağı hissəsində görünür. Baş geyimi qalın enlikdə olaraq alın nahiyəsindən bir qədər hündür yerdən görünür və saçların bütövlükdə örtülməsini əks etdirir. Geyimi əsasən üst yaxalıq şəklində olmasına baxmayaraq alt köynəyinin boğazının yaxa qatlanması seçilir. Obrazın qolları yanındadır və xüsusi bir element bu hissədə yoxdur. Üst geyiminin yaxa qatlandığı yerdə kəsik-kəsik bəzək elementi görünür. Eyni kəsiklənmiş bəzək elementi baş geyiminin alın hissəsində də mövcuddur. Cızma üsulu ilə hazırlanan bu bəzək elementi yüksək geyim mədəniyyətinin göstəricisidir. Bu obrazın sol yan hissəsində ərəb əlifbasında ayrı-ayrı hərflər birləşmə qaydasına uyğun olmayaraq cızılmışdı.Hərflərin yazı üslubuna görə onların sonradan əlavə edilməsini ehtimal etmək olar.Bu hərflər ərəb dilinin qramatikasına uyğun olmayaraq “nun”, 2 dəfə “sin” və yenidən “nun” hərfini göstərir.Yazı üslubuna görə bu müasir zamana aiddir.



Bu cür daş bütlər ilk dəfə Monqolustanın cənub-şərqində ki Dariqanq bölgəsində aşkar edilmişdir. Bura coğrafi məkan bölgüsünə görə Qobi-Altay aymaklığına (oymağına, yaylağına, obasına) daxildir (1.c.29-35;4. c.49-50). Elmdə bu tip daş bütlər tapıldığı şərqi Monqolustan ərazisinə uyğun olaraq Şərqi-monqol tipi adlanır. Günümüzə qədər aşkar edilən bu tip daş babalar bir çox ikonoqrafik elementlərinə görə cəmi 48 ədəddir (3;5). Əsasən Avrasiya məkanının şərq hissələrindən

başlayaraq Qafqazın şimalına qədər yayımışdır.Azərbaycan ərazisində bu cür bütlərə ilk dəfə rast gəlirik. Oxşar bütlərin hazırlanma texnologiyası yerli əhəng daşları üzərində bəzi bəzək elementlərinin gipsdən ayrı hazırlanaraq yapışdırılmış şəkildədir. Bununla belə saxlanma vəziyyətinə görə bu elementlər demək olar ki, salamat qalmışdır.

Beləliklə, apardığımız araşdırmalara və xüsusi analogiyalar qrupuna görə bu "daş baba" adlanan heykəllər antropoloji tipinə görə monqol- türk xalqlarına aid olması dəqiqləşir. Bu cür tipli daş heykəllər əsasən , Avrasiya məkanında geniş arealda yayılaraq, ölkəmiz üçün nadir tapıntılar sırasındadır. Belə daş heykəllər daha çox dağətəyi yerlərdə kurqanların üzərində və yaxınlığında yerləşdirilərək qoruyucu funksiyanı daşımaqları barədə elmi mülahizələr mövcuddur. İkinci mülahizəyə görə belə "daş babalar" əsasən bütpərəstlərə aid olan məbədlərdə yerləşdirilərək, qurbangahın vacib elementi olmuşlar. Monqol türklərinin Azərbaycana yürüşü XIII əsrin əvvəllərinə aiddir (2:c.29-39;5.c.67-89). Bununla belə ölkəmizə qıpçaqların hücümları haqqında tarixi məlimatlar vardır.Qıpçaqlarla (bəzi ədəbiyyatda onları polovetslər adlandırırlar) yerli türk tayfaları arasında münaqişələrin olması məlumdur.Ehtimal ki, Şirvanın qədim paytaxt şəhərlərindən olan Şamaxının dağlıq ərazisində yerləşən kənddə tapılan bu bütlər məhz monqol-türk tayfaları tərəfindən hazırlanmış və çoxallahlığın bir nümunəsi olan bütpərəstliyin sitayiş yerlərində müəyyən zamanlarda istifadə edilmişdir. Bu cür "daş baba" adlanan heykəllərin tarixi XIII-XIV əsrlərə aiddir. Monqolların ilk yürüşləri zaman onlar öz dinlərini-bütpərəstlik, totemizm, fetişizmi saxlamışlar. Konkret olaraq, Azərbaycanın da daxil olduğu Hülakilər dövləti yarandıqda monqolların hakim dairələri müəyyən siyasi və iqtisadi səbəblərdən islam dinini qəbul etmişlər.Bununla belə görünür ki, işğal etdikləri dağlıq ərazilərdə məskunlaşdırdıqları monqol döyüşçüləri öz dinlərini bacardıqları qədər qorumağa nail olmuşlar.Adıçəkilən ərazidə aparılacaq arxeoloji qazıntılar ehtimallarımızın dəqiqləşməsinə,



bununla da tariximizin monqol dövrünün daha dərindən öyrənilməsinə, xüsusilə həmin dövrdə əhalinin etnik tərkibinin və dini dünyagörüşlərin araşdırılmasına müəyyən qədər xidmət etmiş olar.

## ƏDƏBİYYAT

1. Казакевич В.А. Намогильные статуи в Дариганге. //Материалы МОНК, вып.5.Ленинград,1930, с.35
2. Кызласов Л.Р.О назначении древнетюркских изваяний, изображающих людей. //Советская археология, Москва,1964, № 2.с.27-39
3. Кубарев В. Д. Древнетюркские изваяние Алтая. Новосибирск, 1984
4.Кляшторный С.Г., Лубо-Лесниченко Е.И. Древние изваяния в Гоби.// Искусство и культура Монголии и Центральной Азии: Тезисы докладов. Москва, 1981, с.49-50
5.Евтюхова Л. А. Каменные изваяния Южной Сибири и Монголии. МИА, Москва, 1976, №24.

## THE "STONE IDOLS" OF SHAMAKHI

***Vafa Guliyeva, Ganira Pirgulieva***

***Summary***

**Keywords: stone statues, female and malefigures, Mongolethnic, Shamakhi.**

The article is about the unique "stonewoman"- female and malefigures found for the first time in Azerbaijan in one of mountain village of Shamakhi. The date of their manufacturing as well as the path of the authors of these stone figures have been alrea.

## О «КАМЕННЫХ БАБ» ИЗ ШЕМАХИ

***Вафа Гулиева, Ганира Пиргулиева***

***Резюме***

**Ключевые слова: каменные статуи, женские и мужские образы, монгол, этнический, Шемаха.**

На территории Азербайджана в одном горном селении Шемахинского района найдены «каменные бабы» - женские и мужские образы. Установлено время изготовления этих памятников и пути проникновения их в нашу страну.

ELMİ TARİXİ
SCIENTIFIC HISTORY
ИСТОРИЯ НАУКИ

# МАМЕДАЛИ ГУСЕЙНОВ – ОСНОВАТЕЛЬ ПАЛЕОЛИТОВЕДЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Азад Зейналов**
**azad2007@mail.ru**
(Институт археологии и этнографии НАНА)

**Ключевые слова: Мамедали Гусейнов, палеолит, азыхантроп, куручайская культура, Азых, Таглар, Дамджылы, Дашсалахлы.**



Мамедали Мурад оглы Гусейнов родился 3 апреля 1922 года в селе Молла Джафарлы Газахского района Азербайджана и там же получил свое начальное образование. Поэт в душе, любящий и глубоко знающий народный фольклор, национальную музыку и литературу, порой сам писал стихи. Возможно, в силу этого, его рассказы были в равной степени интересны слушателям независимо от того, говорил ли он о музыке, литературе, народном творчестве или науке.

Планы юноши, только-только переступившего порог совершеннолетия, были нарушены войной. Три года, вплоть до окончания войны, он служил в боевых частях советской армии на различных фронтах. С честью выполнив долг перед родиной, Мамедали Гусейнов продолжил образование на историческом факультете Азербайджанского государственного университета,

который успешно закончил в 1951 году. С этого времени жизнь М.М. Гусейнова была связана с наукой.

Несмотря на то, что к середине XX века археологическая наука в Азербайджане была достаточно продвинута, период древнекаменного века, охватывающий самый большой период истории оставался "белым пятном". Начав научную деятельность младшим научным сотрудником в Музее истории Азербайджана в 1951 году, М.М. Гусейнов ставит себе целью исследования этого периода.

Возможно, не случайно, первые поиски палеолита, предпринятые вместе с русским ученым С.Н.Замятниным, после краткосрочной поездки в Маразинский и Шемахинский районы начались в родном М.М. Гусейнову Газахском районе, где и была открыта первая в Азербайджане палеолитическая стоянка Дамджылы на горе Авейдаг, за которой последовало открытие там же, среднепалеолитической пещерной стоянки Дашсалахлы.

В 1960 году М.М. Гусейнов, успешно защитив в Тбилиси кандидатскую диссертацию "Палеолитические пещерные стоянки на горе Авейдаг", вошел в Азербайджанскую науку как первый ученый палеолитовед.

С 1971 года М.М. Гусейнов возглавил отдел археологии каменного века Института истории Академии наук Азербайджана, а с 1976 года он руководит и кафедрой археологии и этнографии Азербайджанского государственного университета. В 80-х годах прошлого века на кафедре, по его инициативе и непосредственном участии, создается музей-кабинет археологии и этнографии. В 1987 году он получает звание профессора. На протяжении многих лет он руководит полевыми практическими занятиями студентов. Участие в полевых экспедициях, возглавляемых М.М. Гусейновым, оставляют незабываемые впечатления у студентов исторического факультета.

Открыв в 1953 году первую палеолитическую стоянку в Азербайджане – пещеру Дамджылы, Мамедали Гусейнов не только заложил основу палеолитоведения в Азербайджане, но и на протяжении последующих 40 лет, был вдохновителем и организатором науки, изучающей древнейшее прошлое нашей страны.

Если представить себе историю открытий палеолитических стоянок в Азербайджане в виде графика, то взору предстанет ровная линия, периодически с высоко вверх уходящим острым углом – это годы, ког-

да были сделаны открытия не просто корректирующие общепринятые представления о заселении области ранними формами людей, их развитии и миграционных путях, а кардинально меняющие эти представления и большая их часть так или иначе связана с Мамедали Гусейновым.

Одним из таких значимых событий безусловно можно считать открытие в 1960 году двух опорных пещерных стоянок Азых и Таглар. Об одном из которых, пещере Азых, научные дискуссии не умолкают до сих пор.

Исследование палеолитической пещерной стоянки Азых в жизни М.М. Гусейнова занимает особое место. Осуществляя общее руководство проблемой изучения палеолита в Азербайджане, Мамедали Гусейнов значительную часть своей научной жизни посвящает изучению палеолитического памятника пещере Азых. И это вовсе не голословная оценка научной жизни ученого. Это была борьба за отстаивание своих идей и оценок, которые он не побоялся представить научному миру.

Исследование палеолитической пещерной стоянки Азых, не только, вполне заслуженно, возвело памятник в ранг уникального в мире, но позволило М.М. Гусейнову, выдвинуть очень смелые для того времени научные гипотезы, подтвердившиеся только спустя десятилетия.

Если просто по годам перечислять его биографию, то итогом его научной деятельности в изучении древнекаменного века в Азербайджане можно считать успешно защищенную в 1985 году, в столице Украины в Киеве, докторскую диссертацию "Древний палеолит Азербайджана". Но на самом деле это была, редкая в научном мире в период СССР, настоящая защита своей научной позиции и научных выводов. Перед Ученым Советом по защите диссертаций лежали два труда: докторская диссертация М.М.Гусейнова "Древний палеолит Азербайджана" и отрицательный отзыв на 11 страницах ведущей организации.

Одним из оппонентов Гусейнова был такой корифей палеолитоведения как Павел Иосифович Борисковский, высоко оценивший научный труд Гусейнова. Однако не только это и скорее не столько это, сколько выступление Гусейнова сыграло положительную роль. Владение темой, грамотная русская речь, удивившая некоторых, и контроль над аудиторией (безусловно, как результат многолетних чтений лекций в Азербайджанском Государственном Университете как на родном

азербайджанском, так и на русском языках), покорили и убедили в научной обоснованности изложенных позиций присутствовавших на защите.

Азых действительно уникальный памятник, в одном пещерном комплексе иллюстрирующий различные этапы палеолита от олдована до разных ступеней ашеля и раннего мустье на протяжении более 1 млн лет.

Представление чуть ли не каждой находки в Азыхе можно начинать словам "впервые". В их числе впервые М.М. Гусейновым и никем другим была выделена новая культура и введена в научный оборот словосочетание "куручайская культура". И это было не голословное понятие, а научно обоснованное и детально охарактеризованное выделение новой культуры в палеолите, характеризующейся, в частности, наличием крупных, весом до 4-5 кг, двуручных двусторонних чопперов, впервые обнаруженных в Азыхе и нигде ранее не встречающихся.

Для специалистов первостепенный интерес представлял, конечно же, каменный инвентарь нижних VII-X слоев – собственно куручайской культуры. Перед М.М. Гусейновым стояла достаточно сложная задача доказать преднамеренность обработки этих артефактов, а сомневающихся, не зависимо от причин (политических, завистливых, действительно ранее не видящих подобного и прочих) было предостаточно. Задача была сложной, так как, в силу ограниченной доступности артефактов такой древности широкому кругу специалистов палеолитоведов на постсоветском пространстве, они нередко интерпретировались как случайные эолиты. Слишком эти предметы были аморфны, грубы и для того, чтобы увидеть в них привычные для археологов устойчивые типы и закономерности обработки необходимо было время. И оно пришло, сегодня они признаны в мире большинством специалистов.

Впервые в Азыхе М.М. Гусейновым была обнаружена древнейшая на постсоветском пространстве антропологическая находка возрастом около 400000 лет. Фрагмент правой ветви нижней челюсти ископаемого гоминида, был обнаружен 23 июня 1968 года в V среднеашельском слое Азыха. Находка была детально исследована Д.В.Гаджиевым и в соавторстве с М.М. Гусейновым получила название "азыхантроп". В ашельских слоях пещеры были обнаружены остатки нескольких очагов различных размеров, каменная кладка, оберегающая от ветра,

"тайник" с черепами пещерных медведей – все это позволило М.М. Гусейнову установить физический тип ашельца, охарактеризовать его хозяйственную жизнь и возможные идеологические представления обитателей пещеры.

Оценивая возраст первого этапа заселения пещеры Азых в 1.2 млн лет с уже приобретенными навыками изготовления каменных орудий, М.М. Гусейнов вполне обоснованно предположил, что эти навыки были приобретены ранними формами гоминидов в долине реки Куручай, задолго до заселения пещеры. Не менее важным было научное предвидение ученого, предсказавшего будущие открытия в области палеолита.

Почти 30 лет назад М.М. Гусейновым, в книге "Древний палеолит Азербайджана", была высказана гипотеза о том, что не только долина реки Куручай, но и Южный Кавказ в целом был обжит ранними видами рода Homo уже 2 млн лет назад, задолго до заселения пещеры Азых, т.е был частью пространства антропогенеза.

Вплоть до конца XX века, т.е. на протяжении 40 лет Азых сохранял за собой статус древнейшего свидетельства заселения людьми региона более 1 млн. лет назад. Открытие на рубеже XX-XXI веков раннепалеолитической стоянки, с археологическими и антропологическими находками, в Дманиси (Грузия), возрастом 1,8 млн лет, не только подтвердило гипотезу М.М. Гусейнова, но и привлекло внимание ученых мира к Кавказскому региону, в контексте исследования раннего палеолита.

Открытия не заставили себя долго ждать. Памятники с архаичными раннепалеолитическими индустриями, возрастом более 1 млн лет, были открыты на Северном берегу Таманского полуострова (Богатыри), в Дагестане (Айникаб, Мухкай и др.).

Волна интереса к раннему палеолиту не обошла стороной и Азербайджан. В 2012 году Гянджа-Газахским отрядом палеолитической археологической экспедиции Института археологии и этнографии НАНА, были открыты два раннепалеолитических местонахождения с остатками раннечетвертичной фауны на северном берегу Шамкирского водохранилища и южном берегу Мингячевирского водохранилища – местонахождение Гараджа. В 2013 году на местонахождении Гараджа, было собрано около сотни артефактов раннепалеолитического облика на границе апшеронского и бакинского ярусов. Впервые за пределами

Азыха, в Гарадже, были найдены выделенные М.М. Гусейновым в 1979 году орудия куручайской культуры – крупные двуручные чопперы - гигантолиты.

Обнаружение сухопутной фауны и раннепалеолитических индустрий на границе апшеронского и бакинского ярусов не только подтвердило гипотезу М.М. Гусейнова, обоснованную более четверти века назад, но и, достаточно веский аргумент, позволяющий считать доисторический Азербайджан частью пространства антропогенеза – в его широком понимании.

Мамедали Мурад оглы Гусейнова не стало в 1994 году. Автор нескольких монографий и десятков научных статей, ушел в расцвете жизненных и научных сил. Сегодня дело М.М. Гусейнова продолжают его ученики и возможно это его самое главное научное достижение – основание палеолитической школы в Азербайджане.

## Основные научные публикации М.М.Гусейнова

1. Şorsu dərəsində tapılmış daş dövrünə aid ilk materiallar // Azərbaycan SSR EA-nın Məruzələri, 1955, XI c., № 1, s. 55-69
2. Изучение каменного века в Азербайджане // Труды Музея истории Азербайджана АН Азерб. ССР, 1957, т. II, с. 42.
3. Daşsalaxlı mağarasında mustye düşərgəsi // Azərbaycan SSR EA-nın Xəbərləri. İçtimai elmlər seriyası, 1959, № 6, s. 17-31
4. Avey dağında daş dövrü mağarası // Azərbaycan SSR EA-nın Məruzələri, 1959, XV c., № 11, s. 1071-1076
5. Азыхская пещера – крупный карст и древнейшая стоянка Азербайджана // ДАН Азерб.ССР, 1963, т. XIX, №11, с 75-80
6. Первая для СССР находка ашельского человека (Азербайджан, Азыхская пещера) // Ученые записки Азгосмединститута, 1970, т.31, с. 13-20. - В соавт. с Д.В. Гаджиевым.
7. Uzaq daş düvrü. Bakı: Gənclik, 1973, 71 s.
8. О тайнике азыхантропов в ашеле // Ученые записки АГУ им. С.М. Кирова. Серия истории и философии, 1973, № 8, с. 12-16.
9. О палеолитической стоянке в пещере Таглар / Материальная культура в Азербайджане. Баку, 1973, т. VII, с. 11-19
10. Очаги азыхантропов Баку-хазарского (миндель-рисс) возраста // Ученые записки АГУ им. С.М. Кирова. Серия истории и философии, 1974, № 1, с. 54-63
11. Azərbaycan arxeoloqiyası (daş dövrü). Bakı: ADU-nun nəşri, 1975, 165 səh.

12. Краткие результаты комплексных исследований Азыхской древнепалеолитической стоянки // Изв. АН Азерб. ССР. Серия наук о земле, 1979, № 3, с. 10-16. - В соавт. с Д.В. Гаджиевым, А.В. Мамедовым, Н.Ш. Шириновым.
13. Гусейнов М.М. Ранние стадии заселения человека в пещере Азых // Ученые записки АГУ им. С.М. Кирова. Серия истории и философии, 1979, № 4, с. 70-72
14. Мустьерская стоянка Дашсалахлы // Изв. АН Азерб. ССР. Серия истории, философии и права, 1982, № 2, с. 76-80. - В соавт. с А.К. Джафаровым.
15. Древний палеолит Азербайджана. Баку: Элм, 1985, 72 с.
16. Qazma paleolit düşərgəsi // Azərbaycan SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1991, № 1, s. 78-85. - Ə.Q. Cəfərov və A.Ə. Zeynalovla birlikdə.
17. Древний палеолит Азербайджана. Баку, Текнур, 2010, 247 с.

## MƏMMƏDƏLİ HÜSEYNOV – AZƏRBAYCANDA PALEOLİTŞÜNASLIĞIN BANİSİ

*Azad Zeynalov*

### *Xülasə*

**Açar sözlər: Məmmədəli Hüseynov, paleolit, azıxantrop, quruçay mədəniyyəti, Azıx, Tağlar, Damcılı, Daşsalaxlı**

Məmmədəli Murad oğlu Hüseynov 1922-ci ilin aprelin 3-də Qazax rayonunun Molla Cəfərli kəndində anadan olmuş və həmin kənddə ilk təhsilini almışdır. Üç il Böyük Vətən müharibəsi cəbhələrində vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirdikdən sonra, təhsilini Azərbaycan Dövlət Universitetinin Tarix fakultəsində davam edir və 1951-ci ildə onu müvəffəqiyyətlə bitirir. O vaxtdan M.M.Hüseynovun həyatı elmə bağlanır.

XX əsrin ortalarında Azərbaycanda arxeologiya elminin kifayət qədər inkişaf etməsinə baxmayaraq, tarixin ən böyük dövrünü əhatə edən qədim daş dövrü "ağ ləkə" olaraq qalmışdı. 1951-ci ildə M.M.Hüseynov Azərbacan tarix muzeyinə elmi işçi vəzifəsinə qəbul olunur və məhz bu dövrü tədqiq etməyi qarşısına məqsəd qoyur.

1960-cı ildə Tbilisidə "Aveydağ paleolit düşərgələri" adlı namizədlik dissertasiyasını müdafiə edən M.M.Hüseynov Azərbaycan elminə ilk paleolitşünas alim kimi daxil olur.

1953-cü ildə Damcılı mağarasını aşkar edərək, M.M.Hüseynov nəinki Azərbaycanda paleolitşünaslığın özəyini qoydu, hətta bundan sonra 40 il ərzində Azərbaycanda qədim daş dövrünü öyrənən elmin təşkilatçısı və ruhlandırıcısı oldu.

Məmmədəli Hüseynovun ən vacib elmi nailiyyətlərindən biri Azıx və Tağlar mağaralarının kəşfi idi. Azıx mağarasındakı hər bir tapıntı haqqında "ilk dəfə" sözləri ilə başlamaq olar. Onların içində ilk dəfə məhz Məmmədəli Hüseynov "quruçay mədəniyyəti" terminini elmi dövriyyə daxil etmişdir.

Bir neçə monoqrafiya və onlarla elmi məqalələrin müəllifi olan Məmmədəli Hüseynov 1994-cü ildə, həyatının və elmi yaradıcılığının çiçəkləndiyi bir vaxtda, dünyasını dəyişdi. Bu gün M.M.Hüseynovun işini onun yetirmələri davam etdirir və güman ki, Azərbaycanda paleolit məktəbinin əsasını qoyması – elə onun ən böyük nəaliyyətidir.

## MAMEDALI HUSEYNOV-THE FOUNDER OF THE PALEOLITHIC ARCHEOLOGY IN AZEBAIJAN

***Azad Zeynalov***

***Summary***

**Keywords : Mamedali Huseynov, Paleolithic, the Kuruchay culture, Azykh, Taglar, Damjili, Dashsalakhly.**

Mamedali Murad ogly Huseynov was born on April 3, 1922 in Azerbaijan’s Gazakh region’s village Molla Jafarly where he received his primary education. The plans of a youngster, who had just become an adult, were interrupted by war. He served for battle units of the Soviet Army for three years until the war ended. Having fulfilled his duty before the motherland with honors, Mamedali Huseynov continued his education at the Azerbaijani State University’s Faculty of History that he successfully graduated from in 1951. Since then, the life of M. M. Huseynov was linked to science.

Though the archeology was rather advanced in Azerbaijan in the middle of the 20th century, the Old Stone Age that covers the largest period of history remained a “white spot”. Having started his scientific career as junior research officer at the Museum of History of Azerbaijan in 1951, M. M. Huseynov aimed to investigate the said period.

In 1960, having defended his candidate’s thesis “Paleolithic Sites of Caves at Mountain Aveydag” in Tbilisi, M. M. Huseynov entered the Azerbaijani science as the first Paleolithic archeologist.

Having discovered the first Paleolithic site in Azerbaijan - the cave Damjili in 1953 - Mamedali not only laid the basis of the Paleolithic archeology in Azerbaijan but also remained an inspirer, organizer of science investigating the ancient past of our country over the next 40 years.

One of significant achievements in the scientific practice of M. M. Huseynov was, beyond any doubts, the discovery of two key sites of caves Azykh and Taglar in 1960. As for one of them - the cave Azykh - research discussions have still been underway.

Hardly every finding in Azykh can be described by the word combination "for the first time ever." Like no one else, M. M. Huseynov singled out a new culture and put the word combination "Kuruchay culture" into scientific turnover.

Mamedali Murad ogly Huseynov passed away in 1994. The author of several monographs and dozens of research articles, he left at the prosperity of his vital and scientific strength. Today, the practice of M. M. Huseynov is continued by his pupils so it seems that his main scientific achievement is the foundation of the Paleolithic school in Azerbaijan.

# TƏLƏBƏLƏRƏ KÖMƏK
# FOR STUDENTS
# В ПОМОЩЬ СТУДЕНТАМ

## ARXEOLOJİ LÜĞƏTİN TƏRTİBİNƏ DAİR
## (bölmə: Dəfn adətləri və qəbirlər)

**Tarix Dostiyev**
**dostiyev_tarikh@yahoo.com**
(Bakı Dövlət Universiteti)

*Azərbaycan arxeoloqlarının tədqiqatlarında qədim dövrün qəbir abidələrinin və dəfn adətlərinin öyrənilməsi mühüm yer tutur. Arxeoloji ədəbiyyatda bu mövzu ilə bağlı xeyli istilah formalaşıb və onların izahını jurnalımızın bu sayında oxucuların diqqətinə çatdırırıq.*

**Axirət** - (ərəb mənşəli) Dini etiqatlara görə insanların ruhunun öldükdən sonra düşdüyü əbədi dünya.

**Antropoloji analiz** - salamat qalmış skelet və ya sümüklər əsasında dəfn olunanın cinsinin, yaşının, irqinin və s. xüsusiyyətlərinin təyin olunması

**Antropoloji tiplər** - antropogenez prosesində üç mərhələ müəyyənləşdirilib: arxantroplar (homo erektus, pitekantrop, sinontrop), paleoantroplar (neandartal adamı) və neoantroplar (müasir fiziki tipli insan).

**Arxantroplar** – (yunanca: archaios –qədim, antthropos-insan) qazıntı halında tapılan ən qədim insanlar. Zincantrop, pitekantrop, sinantrop, atlantrop, Heydelberq adamı arxantropların nümayəndələridirlər.

**Azıxantrop** - Azıx adamı. Azıx mağarasında V mədəni təbəqədən tapılmış alt çənə sümüyünün mənsub olduğu, 350-400 min il bundan əvvəl yaşamış insana verilən ad.

**Bal-bal** - Qədim türk xatirə abidələrinin və kurqanların şərq tərəfində şaquli basdırılmış daşlar. Bal-balların semantikası haqqında yekdil fikir yoxdur. Bəzi tədqiqatçılar onların dəfn olunanın öldürdüyü adamların sayını bildirdiyini vurğuluyurlar.

**Başdaşı** - Qəbrin üzərində, baştərəfdə ucaldılan daşdan nişangah. Adətən, üzərinə epitafiya həkk olunub.

**Büt** - Müqəddəsləşdirilərək sitayiş obyektinə çevrilmiş maddi cism.

**Çiy kərpic sərdabə** - Qafqaz Albaniyasında antik dövrdə mövcud olmuş qəbir tikililərindən biri. Adətən, qrup halında rast gəlinir. Torpaqda qazılmış qəbir quyusunda çiy kərpicdən sərdabə elə inşa olunurdu ki, onun dam örtüyü yerin səviyyəsindən aşağıda qalsın. Arxeoloji qazıntılarla çiy kərpicdən hörülmüş sərdabələrin memarlıq baxımından 18 tipi qeydə alınıb. Göy-göl rayonunda, Muğan düzündə və Mingəçevirdə çiy kərpic sərdabalərə rast gəlinib.

**Daxma** - Zərdüştlikdə sükut qülləsi. Zərdüşt dininə görə torpaq müqəddəs olduğundan ölünün basdırılmasına yol verilmirdi. Ölünün sümükləri vəhşi quşların köməyi ilə təmizlənirdi. Bunun üçün xüsusi dəfn abidəsi –daxma adlandırılan sükut qülləsi tikilirdi. Adətən, daxma planda dördkünc və ya oval biçimli o qədər böyük olmayan binadan ibarətdir.

**Daş qoçlar** - Orta əsrlərə aid qəbirüstü abidələr. Qoç heykəllərindən ibarət məzar daşları Naxçıvan-Zəngəzur, Borçalı, Gəncə-Qazax, Laçın-Kəlbəcər, Gədəbəy, Qarabağ, Lerik-Yardımlı bölgələrində və Cənubi Azərbaycanda qeyda alınmışdır. Daşdan yonulmuş qoç heykəllərin dəfn mərasimi ilə əlaqəli istifadəsi adəti türk tayfalarında qədimdən məlumdur.

Azərbaycan ərazisində qeydə alınan orta əsr qəbirüstü daş qoç heykəlləri qaraqoyunlu və ağqoyunlu tayfaları ilə əlaqələndirilir.

**Daş qutu qəbirləri** - Azərbaycanın dağ və dağətəyi ərazilərində tunc dövründə geniş yayılmış dəfn abidəsi. Daş qutu qəbirlərdə dəfn sonrakı dövrlərdə də davam etdirilmişdir. Düzbucaq biçimdə monolit daş lövhələrdən qurularaq üstünə sal daş qoyulan daş qutu qəbirlərdə tək və kollektiv dəfinə rast gəlinir.

**Dəfn** - (ing. Burial, rus. погребение) Ölünü basdırma, torpağa təslim etmə.

**Dəfn adəti** - (ing. Burial rite, rus. погребальный обряд) Ölüləri basdırmaqla əlaqəli, insanların ölənə və ölüm hadisəsinə münasibətlərini özündə ehtiva edən adətlər toplusu. Dəfn adətinin ilk dəfə orta paleolitdə meydana çıxdığı arxeoloji tədqiqatlarla müəyyənləşdirilmişdir. İraqda, Şanidar düşərgəsində döşəmə altında 60 min il bundan əvvəl dəfn olunmuş insanın qəbri aşkarlanmışdır.

**Dolmen** - (breton dilində tol –stol, men –daş) Tunc və erkən dəmir dövrünə aid edilən qəbirüstü abidə.Şaquli vəziyyətdə qoyulmuş monolit daşların üstü eyni tipli sal daşla örtülməklə düzəldilirdi. Ön daşda dairəvi və ya oval deşik açılırdı. Sal daşlar kifayət qədər ağırdır. Bəzən onların hər birinin çəkisi onlarla tondur. Əksər hallarda ölü oturdulmuş vəziyyətdə əmək alətləri, silahları və bəzək əşyaları birlikdə basdırılırdı. Dolmenlər geniş bir ərazidə - Avropa, Asiya və Şimali Afrikanın dəniz sahili boyu ərazilərdə yayılmışdır.

**Dolmenvari sərdabə** - son tunc və erkən dəmir dövrü qəbirstanlıqlarında rast gəlinən qəbir abidələri. İri monolit qaya daşlardan dördkünc biçimdə qurularaq üzəri eyni formalı daşla örtülmüş tikili. Bəzən iki kameralı olurdu. Bəziləri kromlexlə əhatələnmişdir. Arxeoloji baxışdan ilk dəfə olaraq Jak de Morqan XIX əsrin sonunda Lerik rayonunda tədqiq etmişdir. Qəbir avadanlığının zənginliyi dolmenvari sərdabələ-

rin qəbilə, tayfa başçılarına və nüfuzlu qəbilə üzvlərinə mənsubluğunu ehtimal etməyə əsas verir.

**Dromos** - qəbir kamerasına aparan dəhlizli keçid.

**Ehsan** - (ərəb mənşəli) Ölmüş adamın xatirəsinə süfrə açılması, yemək verilməsi.

**Epitafiya** - (yunan mənşəli) Qəbirüstü nişangahda, baş daşında və ya sənduqə üzərində kitabə.

**Əmanət qəbir** - Müsəlmanlarda müvəqqəti dəfn. Müqəddəs yerlərdə (Məşhəd, Kərbala və s. ) dəfn olunmasının vəsiyyət etmiş mərhumun sümükləri ətdən tam təmizlənməsinə qədər müvəqqəti dəfn olunması adəti. Azərbaycanda XX əsrin əvvəlləridək bu adət mövcud olub.Arxeoloji qazıntılar zamanı orta əsrlərə aid əmanət qəbir Bakıda, İçərişəhərdə aşkarlanıb.

**Əmir Teymur ruhu** - arxeoloji legenda (əsatir). Əsatirin yaranması 1941-ci ildə Səmərqənddə Əmir Teymurun sərdabəsinin arxeoloji qazıntısı ilə SSRİ-nin II Dünya müharibəsinə cəlb olunmasının eyni vaxta təsadüf etməsilə bağlıdır. Əsatirə görə müharibə ona görə başlayıb ki, Səmərqənddə Əmir Teymurun sərdabəsi açılıb və oradan müharibə ruhu çıxıb. Arxeoloji qazıntılar zamanı kip bağlanmış tabut 19 iyun 1941-ci ildə açılarkən ətirli maddələrin buxarlanması ilə ətrafa kəskin qoxu yayılmış, sərdabənin içərisini bürümüşdü. Bu hadisə və iki gündən sonra Müharibənin başlanması "Əmir Teymur ruhu" haqqında əfsanəyə əsas olmuşdur.

**Geomaqnit kəşfiyyat** - həssas proton maqnitölçülərin köməyi ilə aparılır. Bu kəşfiyyat qədimdə hərarətə məruz qalmış sahələri, eləcə də qazılmış quyu, çuxur, xəndəklərin, qədim yolların izlərini aşkarlamağa imkan verir.

**Govurqala sarkofaqları** – Qarabağda, Govurqalada aparılan arxeoloji qazıntılardan aşkarlanmış daş tabutlar. Sarkofaqlarda ölü

xristian adəti ilə, arxasıüstə uzadılmış vəziyyətdə, kəlləsi qərbə istiqamətlənmiş vəziyyətdə dəfn edilmişdir.

**Günbəd** - bax. Türbə

**Xaçdaş** - Xristian qəbirlərdə baş tərəfdə ucaldılan nişangah. Adətən üst tərəfində xaç təsviri yonulub. Azərbaycan ərazisində alban –xristian məzarlıqlarında xaç daşlar qeydə alınıb.

**İmamzadə** - (ərəbcə imam, farsca zadə sözlərindən) İmamların, övliyaların və onların nəslindən olanların dəfn olunduqları yer, ziyarətgah.

**İnqumasiya** – (ing. inhumation, rus. ингумация) – ölünün torpağa basdırılması adəti. İnqumasiya torpaqda qazılmış qəbir quyusunda, daş qutuda, katakombada, təknədə, kərtmədə və ya sərdabədə icra oluna bilərdi. Dəfn adətindən asılı olaraq ölü arxasıüstə uzadılmış, bükülü və ya oturdulmuş vəziyyətdə torpağa təslim edilirdi.

**Kafur** - (ərəb mənşəlidir) Kafur ağacının kitrəsindən hazırlanan təbabətdə, eləcə də müsəlman dəfn ayinində işlədilən, kəskin və spesifik qoxulu maddə .

**Katakomb** – (son latın sözü olan catacumba- yeraltı sərdəbə sözündən alınıb) ölünün dəfni üçün yeraltı tikili. İlk əvvəllər Romada Müqəddəs Sebastyan kilsəsinin altında 1578-ci ildə aşkarlanmış qəbirlər qalereyasını adlandırmaq üçün işlədilib. Qafqazda ən qədim katakomb qəbirlər erkən tunc dövrünə aid edilir. Antik və erkən orta əsrlərdə Qafqaz Albaniyasında geniş yayılmış qəbir tiplərindən biridir.

**Kenotaf** - (yunanca kenotaphion –boş qəbir) Ölünün dəfn olunmadığı boş qəbir. Azərbaycanda, Ön Asiyada, Yunanıstanda, Qədim Misirdə və digər ölkələrdə ölünün dəfn olunmadığı qəbir. Bəzən kentaf qəbirlərdə zəngin avadanlığa rast

gəlinir. Kenotaf qəbirlər qədimdə hansısa səbəbdən – müharibədə həlak olma, qərib yerdə ölmə və s. qəbilə qəbirstanlığında dəfn oluna bilməyənlər üçün qazılırdı.

**Kəfən** - (ərəb mənşəli) müsəlman dəfn adətinə əsasən meyidin sarındığı ağ parça.

**Kəllənin deformasiyası** – insanda kəllə formasının dəyişilməsi. Tunc dövründən məlum olan, son antik və erkən orta əsrlərdə kəllənin süni deformasiyası, xüsusulə köçəri tayfalar arasında geniş yayılmışdı. Süni deformasiyalı kəllələr arxeoloji qazıntılar zamanı Mingəçevirin katakomb qəbirlərindən aşkarlanıb.

**Kərtmə qəbir** - qəbir quyusunda ağacı kərtmək, diş-oyuq açmaqla inşa olunan kamerada ölünün dəfn edildiyi qəbirlər. Azərbaycanda antik dövrdə yayılmış qəbir tiplərindən biri. Keçən əsrdə Mingəçevir qazıntılarında aşkarlanıb.

**Kərtmə qəbirlər mədəniyyəti** - Şərqi Avropanın düzən və meşə zolağında son tunc-erkən dəmir dövrünə aid arxeoloji mədəniyyət. Bu mədəniyyətin daşıyıcıları ölülərini qəbir quyusunda və ya üstündə quraşdırılmış kərtmə tikililərdə dəfn edirdilər. Bu mədəniyyətin daşıyıcıları kimmer və skiflərin formalaşmasında mühüm rol oynayıb.

**Kiçik kurqan** - Ağcabədi rayonunda dəmir dövrünə aid qəbir abidəsi. Diametri 15m, hündürlüyü 50 sm olmuş bu kurqanın arxeoloji qazıntısı nəticəsində qəbir quyusunda insan skeleti ilə yanaşı at kəlləsi üzə çıxarılmış, zəngin qəbir avadanlığı – qara və boz cilalı saxsı qablar, at əsləhəsi, ox ucluğu, müxtəlif tipli muncuqlar tapılmışdır.

**Kollektiv dəfn** - (ing. collective tomb, rus. коллективное захоренение) kurqan, sərdabə və ya bu qəbildən olan digər qəbir abidələrində uzun müddət davam etmiş ölübasdırma prosesi.

**Kremasiya** - (ing. cremation, rus. кремация) Ölüyandırma. Tunc dövründə geniş yayılmış dəfn növü. Bu dəfn adətinin müxtəlif növ və variantları məlumdur.

**Kromlex** - (ing. cromlech, rus. кромлех) arxeoloji ədəbiyyatda kurqanı dövrələyən daş dairəni bildirir.

**Kurqan** - (ing. Burial mound, rus. Курган) qəbir üzərində torpaq, ağac və ya daşdan yarımkürəvi, konusvarı formada qəbirüstü örtük, süni təpə. Kurqanlarda dəfn adəti neolitin final mərhələsində və eneolit dövründə meydana çıxmış orta əsrlərədək davam etmişdir. Azərbaycanda kurqanların ilk nümunələri son eneolit dövründən məlumdur.Tunc və erkən dəmir dövrlərində geniş yayılmışdı. Kurqanlar müxtəlif böyüklükdə və formada ucaldılırdı. Kurqan örtüyünün altında qəbir kamerası sərdabə, katakomba, daş qutu, kərtmə və digər formada olur. Kurqanlarda tək və ya kollektiv dəfnə rast gəlinir.

**Küp qəbri** - (ing. Jar burial, rus. кувшинное погребение) Ölünün küpdə yerləşdirilərək dəfn edilməsi. Erkən nümunələri eneolit dövründən məlumdur.Tunc dövründə Misirdə, Aralıq dənizi sahili regionda, Anadoluda yayılmışdı. Qafqaz Albaniyasında mövcud olmuş qəbir tiplərindən biri. Antik dövrdə xüsusilə geniş yayılmışdı. Antik dövrdə küpdə dəfn adətinin kütləvi tətbiqi hətta arxeoloji ədəbiyyatda ayrıca bir mədəniyyətin - küp qəbirləri mədəniyyətinin müəyyənləşdirilməsinə səbəb olmuşdur. Küplərdə dəfn adəti Albaniyada erkən orta əsrdə məhdud halda İslamın yayılmasına qədər davam etdirilmişdir .

**Meqalit tikililər** – (yunan mənşəli: meqas – böyük, litos –daş) İri sal daşlardan qurulmuş qəbir və ya dəfn mərasimi ilə əlaqəli abidələr. Buraya dolmen, menhir, sərdabə, daş qutu, kromlex daxildir.

**Menhir** - (ing. Menhir, rus. менгир) Şaquli yerləşdirilmiş, tək, hündür daş. Dəfn abidəsi olması ehtimal edilir.

**Məqbərə** - (ərəb mənşəli) qəbir üzərində inşa olunmuş xatirə tikilisi. (bax; türbə, sərdabə)

**Məzar -** bax: qəbir.

**Mumiya** - (ing. mummy, rus. мумия)-dəfn adətinə müvafiq olaraq vəfat etmiş insanın və ya heyvanın bədəninin balzamlaşdırılması (?).

**Neandertal adamı** – 250000-35000 il bundan öncə Avropa, Asiya və Afrikada yaşamış qədim insanların adı. Bu tip insanların qalıqları ilk dəfə Almaniyada Neandertal vadisində tapıldığından belə adlandırılmışdır. Arxeoloji cəhətdən neandertal adamların ilk nümayəndələri orta və son aşel mədəniyyəti, son nümayəndələri isə mustye mədəniyyətinin yaradıcılarıdır. Antropogenes prosesində neandertal adamın roluna münasibət elmi ədəbiyyatda birmənalı deyil. Bəziləri neandertalların homosapiensin meydana çıxmasında rolunu qəbul etdiyi halda, digərləri inkar edir.

**Nekropol** - (yunanca nekros – ölü, polis – şəhər) qəbirstanlıq mənasını verir və əsasən şəhər qəbirstanlıqlarını ifadə etmək üçün işlədilir.

**Oğuz zağası** – yerli əhalinin üzərində daşdan yonulmuş at heykəli olan qəbirlərə verdiyi ad. Gəncə, Şəmkir, Tovuz, Gedabəy, Laçın və digər rayonlardakı son, orta və yeni dövr qəbirstanlıqlarda rast gəlinir. Qəbirüstü nişangah olaraq daş at heykəllərin ucaldılması yerli əhalinin dəfn adətləri ilə bağlıdır. At ilə qədim dəfn adəti transformasiya olunaraq qəbirüstü daş heykəllər formasında özünü əks etdirir. Qədimdə olduğu kimi orta əsrlərdə at ölünün ruhunun cənnətə çatdırılması ideyasını təcəssüm etdirir.

**Qəbir** - (ing. Grave, rus. могила ) Ölünü basdırmaq üçün xüsusi qaydada qazılmış quyu.

**Qəbir avadanlığı** – (ing. Grave goods, rus. погребальный инвентарь) Ölü ilə birlikdə qəbrə qoyulmuş əşyalar.

**Qəbir qutusu** - (ing. cinerary urn, rus. погребальная урна) kremasiyadan sonra dəfn üçün ölünün külünün yerləşdirildiyi qutu.

**Qurbangah** - Tunc və erkən dəmir dövrlərində kurqanlarda və sərdabə tipli qəbir abidələrində rast gəlinir. Yaşayış evlərinə bitişik təsərrüfat tikilisini xatırladır və adətən burada içərisində ərzaq ehtiyatları saxlanılan müxtəlif çeşidli gil qablar qoyulur.

**Sarkofaq** - (ing. Sarkophage, rus. Саркофаг) yunan mənşəli istilah olub daş tabuda deyilir.

**Sənduqə-** (ərəb mənşəli) müsəlman qəbirstanlığında qəbirin üzərində qoyulmuş sinə daşı. Sənduqələr adətən daşdan sandıqca formasında hazırlanır, üzəri oyma naxışlar, quran ayələri və epitafiyadan ibarət kitabə ilə bəzədilibdir.

**Sallama qəbir**- (ing. Joint burial ground, rus. Впускное погребение) Kurqan örtüklərində sonradan qazılmış qəbir.

**Sərdabə** - (ing. Crypt, rus. Склеп) Bir və ya neçə ölünün dəfn edildiyi, üstündə tikili ucaldığı qəbir.

**Sapma qəbir** - qəbir quyusunun bir yanında ölünün yerləşdirilməsi üçün oyuq düzəldilməsi və dəfndən sonra həmin oyuq daşla və digər inşaat materialı ilə hörülü idi. Azərbaycanın bəzi bölgələrində son orta əsrlərə qədər bu ənənə davam edib.

**Tabut** - (ərəb mənşəli) Cənazəni qoymaq üçün iri qutu.

**Təknə qəbir** - Antik dövrdə Albaniyada mövcud olmuş qəbir tiplərindən biri. Təknə qəbir istilahını ilk dəfə Saleh Qaziyev işlətmişdir. Bu qəbirlərin fərqləndirici xüsusiyyəti ölünün düzbucaq və ya oval formada saxsı təknəyəbənzər tabutda dəfn edilməsidir. Bəzi saxsı tabutların yan tərəflərində tutmaq üçün dəstəyi vardı. Skelet təknədə bükülü vəziyyətdə sol və ya sağ böyrü üstü yerləşib.Tabut dördkünc və ya oval biçimdə qazılmış qəbir quyusunda yerləşdirilirdi. Qəbir avadanlığı əsasən saxsı tabutun ətrafına qoyulurdu, yalnız kiçik əşyalar tabut içərisində yerləşdirilirdi. Təknə qəbir tipi ilk dəfə 1938-ci ildə Y.A.Paxomov tərəfindən İsmayıllı rayonunda aşkarlanıb. Sonradan bu tip qəbirlər İsmayıllı rayonu ilə bərabər Qəbələ və Mingəçevirdə də aşkarlanıb.

**Torpaq qəbir** - Nişansız, yerüstü əlaməti bilinməyən ən bəsit, xronoloji baxımdan ən qədim qəbir tipi. Azərbaycanın bütün bölgələrində qədim torpaq qəbirləri qeydə alınıb. Onlar mezolitdən son orta əsrlərədək geniş xronoloji çərçivəyə malikdir.

**Zümürxan sarkofaqı** – Bərdə rayonunun eyniadlı kəndində aşkarlanmış IX-X əsrlərə aid daş sarkofaq.

## ƏDƏBİYYAT:


1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. Bakı, "Şərq-Qərb", 2007.
2. Брей У., Трамп В. Археологический словарь. Москва, Прогресс, 1990, 368 с.
3. Матюшин Г.Н. Археологический словарь. Москва, Просвещение, АО «Учеб. лит.», 1996, 304 с.
4. Smith J.W. Foundations of Archaeology. New-York, 1976.

# XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR
# CHRONICLES, REVIEWS, INFORMATIONS
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ




**4-Cü Avroasiya Arxeoloji Konfransi (11-13 oktyabr 2012-ci il ABŞ-İthaka)** 11-13 oktyabr 2012-ci il tarixdə Amerika Birləşmiş Ştatlarının İthaka şəhərində Cornell Universitetinin təşkilatçılığı ilə «4-cü Avroasiya Arxeoloji konfransı» keçirilmişdir. Konfrans ənənəvi olaraq hər üç ildən bir ABŞ-da keçirilir. Üç gün ərzində 8 iclasda 52 məruzə dinlənilmişdir. Azərbaycan arxeoloqlarının ilk dəfə iştirak etdiyi bu konfransda Azərbaycan arxeologiyasının aktual problemlərinə həsr olunmuş 4 məruzə dinlənilmişdir.

Məruzələrdən ikisi azərbaycanlı mütəxəssislər, ikisi isə Amerika Birləşmiş Ştatlarından olan və Azərbaycan ərazisində birgə tədqiqatlar aparan arxeoloqlar tərəfindən edilmişdir.

Konfransın «Texnologiyalar və əhəmiyyətlilik» bölməsində Susannah Fishman «Oğlanqala keramikasının petroqrafik təhlili» adlı məruzə ilə çıxış etmişdir. Məruzədə 2008-ci ildən Naxçıvan MR ərazisindəki Oğlanqala abidəsində L.Ristvet, V.Baxşəliyev və S.Aşurovun rəhbərliyi ilə aparılan Azərbaycan-Amerika birgə arxeoloji qazıntıları zamanı əldə olunmuş keramika məmulatı geniş təhlil olundu. Qeyd etmək lazımdır ki, S.Fishmanın araşdırmaları Azərbaycan ərazisində indiyədək aparılmış arxeoloji qazıntılar zamanı əldə olunmuş keramika məmulatının petroqrafik təhlilinə həsr olunmuş ilk tədqiqatdır.

«Yeni abidələr, yeni tədqiqatlar» bölümündə Azərbaycan abidələri ilə bağlı üç məruzə dinlənilmişdir. Hilary Gopnik «Oğlanqalanın III dövrə aid yarımçıq sarayı» haqqında məruzə etdi. Bu məruzədədə Naxçıvan ərazisindəki Oğlanqalada aparılan birgə tədqiqatlar haqqında geniş məlumat verildi. Məruzədə Oğlanqalada məskunlaşmanın e.ə.II minilliyin sonlarından başlandığını və artıq e.ə. I minilliyin əvvəllərindən şəhər kimi formalaşdığı

vurğulanmışdır. Uzun zaman güclü qonşu dövlətlərin hücumuna davam gətirən Oğlanqalada tikilməkdə olan sarayın yarımçıq qalmasının səbəbinin isə yunan, roma basqınları olduğu ehtimal olunur. Oğlanqalada təmizlənmiş küp qəbirdən e.ə.I əsrə aid Roma imperatoru Avqustun adına zərb olunmuş gümüş sikkələrin tapılmasıda bunu təsdiq edir.

Milli Azərbaycan Tarix Muzeyinin əməkdaşı Səidə Həmzəbəyovanın məruzəsi «Azərbaycan Tarix Muzeyinin sualtı arxeoloji tədqiqatlar kolleksiyası»na həsr olunmuşdur. Uzun illər Xəzər akvatoriyasında aparılan sualtı arxeoloji tədqiqatlar zamanı əldə olunmuş materialların təhlili geniş marağa səbəb oldu. Çünki sualtı arxeoloji tədqiqatlar hazırda arxeoloqların diqqət mərkəzindədir.

S.Aşurov, F.Hüseynov və S.Hüseynovanın birgə məruzəsi «Naxçıvanın erkən tunc dövrü kompleksləri»nə həsr olunmuşdur. Erkən tunc dövründə Şimali Qafqazdan Suriya-Fələstinədək geniş bir ərazidə Kür-Araz arxeoloji mədəniyyəti yayılmışdır. Hələ ötən əsrin ortalarından tədqiq olunan bu arxeoloji mədəniyyət üçün qara cilalı, yarımşar formalı qulplarla təchiz olunmuş saxsı qablar, xüsusi formalı ocaq qurğuları xarakterikdir. Lakin bu günədək bu mədəniyyətin ilkin yaranma dövrü, tarixi çərçivəsi kimi mühüm problemlər həll edilməmiş olaraq qalır.

Naxçıvan ərazisindəki I Kültəpədə aparılmış tədqiqatlar nəinki Kür-Araz mədəniyyətinin müəyyənləşdirilməsində, həmçinin tunc dövrünün xronologiyasını hazırlamaqda etalon abidə olmuşdur. Son illər Naxçıvan ərazisində İlk tunc dövrünün II Kültəpə, I Maxta, Ovçulartəpəsi, Aşağı Daşarx kimi abədələrində aparılmış geniş tədqiqatlar Kür-Araz mədə-



niyyətinin meydana gəlməsinin ən qədim tarixini və sonrakı inkişaf pillələrini müəyyən etməyə imkan vermişdir.

I Kültəpənin 8.5 m dərinlikdən götürülmüş kömür analizi e.ə 2930+-90 ili göstərmişdir. II Kültəpənin üst qatlarından alınan analiz 2561-2346; alt qatlarından alınan analiz isə 3335-2093 tarixini göstərir. I Maxtadan alınan analiz isə 3316-2931 tarixini göstərir. Bu tarixi I Maxtadan əldə olunmuş «tokins»lərdə təsdiq edir. Bu tip «tokins»lərdən qonşu ərazilərdə e.ə.3200 ilə qədər istifadə olunmuşdur. I Maxtada analizin götürüldüyü təbəqədən altda ən azından 2,5 m-lik təbəqə olduğunu nəzərə alsaq abidədə erkən tunc dövrünün e.ə.IV minilliyin birinci yarısından formalaşdığını söyləmək olar.

Ovçulartəpəsinin eneolit keramikasının tədqiqi göstərir ki, bəzi qabların gilinin tərkibində bitki qarışıqları, saman və narın qum mövcuddur. Gilin tərkibində xırda qumun olması daha çox erkən tunc dövrünün əlamətidir. Digər tərəfdən bəzi qabların, xüsusən də kasayabənzər qabların forması erkən tunc dövrünün kasalarını xatırladır. I Kültəpədə eneolit dövrünə aid olan qabların üstündəki şiş yapmaların əvəzinə Ovçulartəpəsindəki qablarda primitiv yarımşar formalı qulplara təsadüf olunur ki, bu da əvvəlki eneolit mədəniyyətinin əsasında Kür-Araz mədəniyyətinin yaranmasına işarə vuran vacib dəlildir.

Kür-Araz mədəniyyətinin erkən mərhələsinin tarixləndirilməsində Ovçulartəpəsi abidəsi xüsusi rol oynayır. Ovçulartəpəsində aşkar edilən və son eneolit dövrünə aid evin döşəməsi boyu səpələnmiş Kür-Araz mədəniyyətinə aid keramika nümunələri əldə olunmuşdur. Bu keramika nümunələrinə cilalanmış qırmızı-qara tipli küpün bir hissəsi, boşqab fraqmentləri və Kür-Araz mədəniyyətinə xas bir neçə tipik saxsı qablar daxildir.

Bu tapıntıların tarixi stratiqrafik və radiokarbon üsulu ilə müəyyənləşdirilib. Kür-Araz mədəniyyətinə xas keramika son eneolit dövrünə aid iki tikinti təbəqəsinin arasında aşkar edilib.

Yuxarı və aşağı döşəmələrdən alının iki radiokarbon analiz eyni zaman çərçivəsini göstərir – eramızdan əvvəl 4230-3940-cı illər. Bu tarix Kür-Araz mədəniyyətinə məxsus tapıntılar üçün “terminus ante quem” təşkil edir – bir sözlə onların hansı dövrdən öncəyə aid olduğuna işarədir.

Kür-Araz mədəniyyətinin Qafqazda və ətraf ərazilərdə aşkar edilən ən erkən nümunələri, yəni e.ə.V minilliyin sonuna aid edilənləri məhz bu tapıntılardır.

Tapıntılar eneolit və Kür-Araz icmalarının regional səviyyədə birgə mövcudluğunu təsdiq etsə də, onların eyni ərazidə yaşamadığını deməyə

imkan verir. Ovçular təpəsində e.ə.V-ci minilliyin sonuna aid olan heç bir Kür-Araz evinə rast gəlinməyib. Məhz bu səbəbdən yalnız hər iki icmanın birgə mövcudluqlarından danışmaq mümkündür.

Yaxın Şərqin yüksək inkişaf səviyyəsinə çatmış tayfaları ilə Naxçıvan ərazisində yaşayan tayfaların mədəni-iqtisadi əlaqələri nəticəsində Kür-Araz mədəniyyəti e.ə. III minilliyin ikinci yarısında öz inkişafının kulminasiya nöqtəsinə çatmışdır.

ABŞ-da keçirilmiş «4-cü Avroasiya Arxeoloji konfransı» Azərbaycan abidələrini beynəlxalq elmi ictimaiyyətə çatdırmaqda və Azərbaycanda son illərdə aparılan geniş arxeoloji tədqiqatları təbliğ etməkdə yaxşı vasitə olmuşdur. Konfrans zamanı bir sıra tanınmış arxeoloqlarla müzakirələr aparılmış və gələcək elmi əlaqələrin perspektivi müzakirə edilmişdir.

**Sevinc Hüseynova**
**AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu**

**«Azərbaycanin Qədim Şəhər Mədəniyyəti Dünya Urbanizasiya Kontekstində» Mövzusunda Beynəlxalq Elmi Konfrans (6-10 noyabr 2012, Azərbaycan, Qəbələ şəhəri, «Qafqaz Sport Hotel»)** AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu ilə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının birgə təşkil etdiyi bu konfrans 6-10 noyabr 2012-ci ildə Azərbaycanın Qəbələ şəhərində «Qafqaz Sport Hotel»də keçirilmişdir.




Belə mövzuda konfransın keçirilməsi üçün Qəbələ şəhərinin seçilməsi təsadüfi deyildir. Qəbələ Şimali Azərbaycan ərazisində e.ə. IV əsrdə yaranan tarixdə Qafqaz Albaniyası kimi tanınan ilk müstəqil dövlətin 800 ilə yaxın dövr ərzində paytaxtı, sonralar isə XVIII əsrin ortalarına qədər Azərbaycanın mühüm əyalət şəhərlərindən biri olmuşdur.

Bu şəhərin adı ilk dəfə Qafqaz Albaniyasının başlıca şəhəri kimi b.e. I əsrinin ortalarında məşhur Roma alimi Böyük Plininin ensiklopedik “Təbii tarix” əsərində çəkilmişdir.

Hazırkı Qəbələ rayonunun Çuxur-Qəbələ kəndi yaxınlığında yerləşən bu qədim şəhərin xarabalıqları hələ XIX əsrin 20-30-cu illərindən başlayaraq Azərbaycanın qədim tarixi ilə maraqlanan bütün tədqiqatçıların diqqətini cəlb etməyə başlamışdır.

Qəbələdə 1926, 1944-1945-ci illərdə kəşfiyyat qazıntıları, 1959-1990-cu illərdə stasionar qazıntılar aparılmışdır. 14 illik fasilədən sonra 2005-ci ildən isə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sponsorluğu ilə orada daha geniş miqyasda qazıntılar aparılır. Bu qazıntılara 2009-cu ildən Koreya Respublikasının müxtəlif universitet və elmi müəssisələrinin böyük bir qrup arxeoloqları da qoşulmuşdur.

Qəbələ şəhəri xarabalıqlarında uzun illər ərzində aparılan qazıntılar təkcə Azərbaycanın deyil, bütün Qafqazın iki min ildən çox dövrü əhatə edən tarixinin bir sıra mühüm problemlərini, o cümlədən bu regionda şəhər mədəniyyətinin yaranmasını, onun inkişaf mərhələlərini daha dərindən öyrənməyə, Albaniya dövlətinin yaranması dövrünü dəqiqləşdirməyə imkan vermişdir. Buna görə də Qəbələdə aparılan arxeoloji qazıntılar təkcə Azərbaycanın deyil, digər ölkələrində tədqiqatçılarının diqqətinin cəlb edir.

Qəbələdə keçirilən elmi konfransda ABŞ, Almaniya, Azərbaycan, Gürcüstan, İran, Koreya, Qazaxıstan, Rusiya (Moskva, Sankt-Peterburq, Maxaçkala), Türkiyə və Ukraynadan alimlər, Koreya Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Çoi, Qəbələ bölgəsindən millət vəkili Fəttah Heydərov, Azərbaycan Milli Elmlər Akademiyasının rəhbər işçiləri, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının əməkdaşları, Qəbələ rayonunun İcra hakimiyyətinin və ictimai təşkilatlarının nümayəndələri iştirak edirdilər.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimova konfransı açaraq qeyd etdi ki, 2008-ci ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident fondundan əlavə vəsaitin ayırması Azərbaycanda arxeologiya elminin inkişafına güclü təkan vermişdir. Respublikamızın demək olar ki bütün bölgələrində arxeoloji qazıntılar aparılaraq, paleolit dövründən başlayaraq son orta əsrlər dövrünə qədər ki abidələr öyrənilir. Qazıntılar göstərmişdir ki Azərbaycan dünyada qədim şəhər mədəniyyətinin yarandığı ölkələrdən biri olmuşdur.

Konfransın açılış iclasında AMEA-nın prezidenti akademik Mahmud Kərimov, Millət Vəkili Fəttah Heydarov, AMEA-nın birinci vitse-prezidenti akademik Arif Həşimov, humanitar və ictimai elmlər üzrə vitse-prezidenti akademik Nailə Vəlixanlı, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniy-

yət Mübadiləsi Assosiasiyasının sədri Ruhəngiz xanım Heydərova, Koreya Respublikasının Fövqəladə və səlahiyyətli səfiri cənab Çoi, Rusiya Elmlər Akademiyasının müxbir üzvü Rauf Munçayev, AMEA-nın akademiki Teymur Bünyadov, Qazaxıstan Milli Elmlər Akademiyasının müxbir üzvü Bayırjan Baytanayev, Türkiyə Egey Universitetinin professoru Yüksel Sayan, REA Dağıstan Elmi Mərkəzinin professoru Ömər Davudov, Tbilisi Dövlət Universiteti Arxeologiya İnstitutun direktoru professor Vaxtang Liçeli çıxış edərək konfrans iştirakçılarını salamlayaraq konfransa uğurlar arzuladılar. Onlar bu konfransın arxeologiya elminin inkişafına təkan verəcəyinə, müxtəlif ölkələrin alimləri arasında elmi əlaqələrin genişlənməsinə səbəb olacağına inandıqlarını bildirdilər.

AMEA-nın vitse prezidenti akademik Nailə Vəlixanlı və AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutun direktoru, tarix elmlər doktoru Maisə Rəhimovanın sədrliyi ilə keçirilən konfransın plenar iclasında ümumiyyətlə ən qədim zamanlardan başlayaraq tarixin müxtəlif dövrlərində şəhərlərin yaranması, onların cəmiyyətin sosial-iqtisadi inkişafı, sinifli cəmiyyət və dövlətin yaranması ilə əlaqələrinə, hər dövrün şəhərlərinin özünə məxsus xüsusiyyətlərinə həsr olunan məruzələr dinlənildi.

Plenar iclasda Rusiya Elmlər Akademiyasının müxbir üzvü, professor, dünya şöhrətli arxeoloq, həmyerlimiz Rauf Munçayevlə, AMEA-nın Arxeologiya və Etnoqrafiya institutun elmi işlər üzrə direktor müavini Nəcəf Müseyiblinin «Mesopotamiya və Şərqi Qafqaz: protoşəhər mədəniyyətinin yaranması, inkişafı» mövzusunda məruzəsi maraqla dinlənildi. Məruzədə qədim cəmiyyətlərdə şəhərlərin yaranması, onların inkişaf mərhələlərinə tədqiqatçıların çoxdan fikir verməsi qeyd olunur. Belə kontekstdə Qafqazda bu prosesin nə vaxt başlanması böyük maraq doğurur. Məruzədə Azərbaycanda son dövrlərdə tədqiq olunan Leylatəpə mədəniyyəti abidələrinin Rauf Munçayevin rəhbərliyi ilə Mesopotamiyanın Uruk mədəniyyəti dövrü abidələri və Şərqi Suriyada I Tel Xazna abidəsində aparılan qazıntıların nəticələri ilə müqayisəsi verilirdi. Bu dövr dünyada ən qədim mədəniyyətin beşiyi sayılan Mesopotamiyada ilk şəhərlərin yaranması dövrüdür.

İlyas Babayev (Azərbaycan), Yulon Qaqoşidze (Gürcüstan), Florian Knaussun (Almaniya) məruzələri «Cənubi Qafqazda Əhəmənilər dövrü inzibati mərkəzi (satrap iqamətgahı)» mövzusunda idi. Məruzə 2006-cı ildən başlayaraq Azərbaycanda Şəmkir rayonunun Qaracəmirli kəndin yaxınlığında aparılan arxeoloji qazıntıların nəticələrinə həsr olunmuşdur. Beynəlxalq arxeoloji ekspedisiyasının apardığı qazıntılar nəticəsində orada eramız-

dan əvvəl V-IV əsrlərə aid şəhər tipli böyük yaşayış yerinin olduğu müəyyənləşdirilmiş və bu yaşayış yerində saray qalıqları aşkar edilmişdir. Bu yaşayış yeri geniş sahəni əhatə edir və orda çox böyük ictimai binaların qalıqları izlənir. Orada aşkar edilən sarayın qalıqları əsas bina, propleya və hasarla əhatə olunan həyəti ilə birlikdə 20 ha yaxın ərazidə yerləşir. Sarayın 12 sütunu olan portiki, 675 kv. m. sahəsi olan böyük çox sütunlu zalı, digər sütunlu zalları, uzun koridorları olmuşdur. Bu tikintiləri ancaq e.ə. 550-330-cı illərdə mövcud olan Əhəmənilər imperiyasının mərkəzi şəhərləri Pasarqad, Suz və Persopoldakı tikintilərlə müqayisə etmək olar.

Professor Ömər Davudovun (Maxaçkala, Rusiya) məruzəsi «Dağıstanın alban dövrü məişət abidələrinin müdafiə tikililərinə» həsr olunmuşdu. Məruzədə göstərilirdi ki Dağıstanda bu dövrə aid yaşayış yerləri üçün strateji cəhətdən əlverişli yerlər seçilirdi. Məruzədə bu ərazidə həmin dövrə aid aşkar edilən yaşayış yerlərinin müdafiə istehkamlarının xüsusiyyətləri, digər yaşayış yerləri, onlarda aparılan arxeoloji qazıntıların nəticələri haqqında ətraflı məlumat verilirdi.

Bu plenar iclasda Cənubi Koreya arxeoloqlarının da iki məruzəsi dinlənildi. Yuxarıda göstərildiyi kimi Koreya arxeoloqları 2009-cu ildən Qəbələdə aparılan qazıntılara qoşulmuşlar. Onların iştirakı ilə Qəbələnin Səlbir sahəsində çox geniş sahədə qazıntılar aparılır. Orada şəhərin müdafiə divarları, son antik və ilk orta əsrlər dövrünə aid tikinti qalıqları, şəhərin su təchizatı xətləri, qəbir abidələri aşkar olunmuşdur. Professorlar Y.Seonbok, Kim Congilin (Seul, Cənubi Koreya) məruzələri «Qəbələ-Səlbir sahəsində tikinti qalıqlarının öyrənilməsi» mövzusunda idi. Məruzədə göstərilirdi ki, onların 2009-cu ildən Səlbir sahəsində apardıqları qazıntılar zaman ilk öncə şəhər yerində mədəni təbəqənin stratiqrafiyasına fikir verilmişdir. Orada antik və ilk orta əsrlər dövrünə aid təbəqələr öyrənilmişdir. Qazıntılar zaman tikintilərin quruşlu onların tikinti materialları tədqiq olunmuşdur. Orada quyular, təndirlər, su xətləri, divarlar aşkar edilmişdir.

Professor Kvon Ohyoung, S. Jeongyong (Cənubi Koreya) məruzələri «Səlbirin qala divarlarının strukturu və dövrü» mövzusunda idi.

AMEA-nın müxbir üzvü professor Vəli Əliyevin məruzəsi «Azərbaycanın qədim qala şəhərləri» mövzusunda idi. Məruzədə e.ə II-I minilliklərdə Ön Asiya ,Yaxın və Orta Şərqdə baş verən sosial-iqtisad dəyişikliklərdən və həmin dövrdə Azərbaycan ərazisində də ilk şəhər mədəniyyətinin yaranmasından bəhs olunurdu. Məruzədə müəllifin özü tərəfindən Naxçıvanda apardığı qazıntıların nəticələri işıqlandırılırdı.

Konfransın plenar və seksiyaların iclasında oxunan məruzələrin bir neçəsi ümumiyyətlə qədim şəhər mədəniyyətinin yaranması məsələlərinə həsr olunmuşdu.

Bu məruzələrdən biri AMEA-nın müxbir üzvü, professor İlyas Babayevin «Qədim cəmiyyətlərdə şəhərlər. Qədim Azərbaycanda şəhər mədəniyyətinin yaranması» mövzusuna həsr olunmuşdu

Məruzədə şəhərlərin yaranmasının sinfi cəmiyyət və dövlətin yaranması ilə sıx bağlı olması, qədim cəmiyyətlərdə sosial-iqtisadi sahədə baş verən bu böyük keyfiyyət dəyişikliyinin uzun müddətli inkişafın nəticəsi olduğu göstərilirdi. Məruzədə qədim şəhərlərin digər yaşayış yerlərindən fərqi, onların əlamətləri, Azərbaycanda qədim şəhər mədəniyyətinin yaranması prosesi işıqlandırılırdı.

Konfransda dinlənilən digər məruzələrində bir neçəsi qədim şəhər mədəniyyətini yaranması prosesinə həsr olunmuşdu. Bunlardan professor Qüdrət İsmayılzadənin(Azərbaycan) «Azərbaycanda Urbanizasiya prosesinin ilkin mərhələsi», professor Abbas Seyidovun (Azərbaycan) «E.ə III-I minilliklərdə Naxçıvan ərazisində erkən şəhər mədəniyyəti», professor Hidayət Cəfərov və Diana Cəfərovanın (Azərbaycan) «Qədim Qarabağda protoşəhər mədəniyyəti izləri», Loren Ristvet (ABŞ), Vəli Bəxşəliyev (Azərbaycan), Səfər Aşurov (Azərbaycan) «E.ə I minilliyin şəhər yeri: Oğlanqalada arxeoloji tədqiqatlar 2008-2011», Kristian Piller, Birgül Ogütun (Almaniya) «Xəzər dənizinin cənub regionunda tunc dövrü şəhərlərin inkişafı», Natalia Burdonun (Ukrayna) «Tripoli yaşayış yerlərində dini inanc izləri», Bəhrəm Ajorlonun (İran) «Təbrizin arxeologiyası. Qədim Azərbaycan şəhərinin mənşəyi», Tükəzban Göyüşovanın (Azərbaycan) «Gədəbəy rayonunda siklopik tikililərdə aparılmış son tədqiqatlar», Faiq Babayevin (Azərbaycan) «Şimali Azərbaycanda e.ə VII-IV əsrlərə aid yaşayış yerləri», məruzələrini göstərmək olar: Qundula Mehnertin (Almaniya) «Cənubi Qafqazda Skif tapıntıları və Əhəmənilərin təsiri» mövzusunda məruzəsi də müəyyən dərəcədə bu problemlə bağlı idi. Halle universitetinin əməkdaşı olan Qundula Mehnert bir neçə il bizim Şəmkirin Qaracəmirli kəndi yaxınlığında apardığımız qazıntılarda iştirak etmişdir.

Professor Vaxtang Liçelinin (Gürcüstan), məruzəsidə «Əhəmənilər və e.ə V- IV əsrlərdə Cənubi Qafqazda yaşayış yerlərinin inkişaf tendesiyası» mövzusuna aid idi.

Yuxarıda adları çəkilənlərdən əlavə qədim Qəbələ şəhəri qazıntılarına bir neçə digər məruzələr də həsr olunmuşdu Onlardan Qəbələdə 1959-cu

ildən qazıntılar aparan İlyas Babayevin «Qafqaz Albaniyasının paytaxt şəhəri Qəbələdə aparılan qazıntıların ümumi nəticələri», İradə Nəcəfova və Əli Rəcəblinin (Azərbaycan) «Qəbələdə aşkar edilmiş Roma pullarına dair», Arçil Balaxvansevin (Moskva. Rusiya) «Ellin dövrü Qəbələsi Qərb və Şərq arasındakı ticarət yolları üstündə, (numizmatik materiallar əsasında)», Emil İskəndərovun «Antik Albaniya və İberiya tikintilərinin bəzi ümumi xüsusiyyətləri», Ceyhun Eminli (Azərbaycan) «Səlbir son antik-erkən orta əsr yaşayış yeri (2010-2011-ci il qazıntıları əsasında)», Qafar Cəbiyevin (Azərbaycan) «Qalada (Qəbələ) arxeoloji tədqiqatlar», Robert Mobilinin (Azərbaycan) «Udi etnoqrafik materialları qədim Qəbələnin arxeoloji tədqiqində bir mənbə kimi», Mübariz Xəlilovun «Ptolimey Qəbələsi (Xa-baba) », Natiq Alışov (Azərbaycan) «Qəbələ rayonunda Kilsəli təpə xristian dövrü abidəsində arxeoloji tədqiqatlar» məruzələrini qeyd etmək olar. Təvəkkül Əliyevin (Azərbaycan) «Qalatəpə şəhər məskənində yeni arxeoloji tədqiqatlar», Sevda Süleymanovanın (Azərbaycan) «Şimali –Qərbi Albani-yanın məbəd mərkəzləri və şəhərlər» məruzələri də Qafqaz Albaniyasının şəhərləri probleminə həsr olunmuşdur.

Konfransda dinlənilən bir sıra məruzələr orta əsr şəhərlərinə həsr olunmuşdur.

Onlardan biri tarix elmləri doktoru Arif Məmmədovun «Bərdə şə-hərinin yaranması dövrü haqqında» mövzusundadır. Məruzənin xülasəsi rus dilində nəşr olunduğu üçün konfrans dövründə onu oxuyan xarici iştirakçılar və bəzi sonra oxuyanlar mənə telefonla müraciət edib məruzədəki bəzi qəribə məlumatlara münasibətimi soruşublar. Əlbəttə hər bir mütəxəssisin öz müstəqil fikri ola bilər. Ancaq bu zaman faktlar olduğu kimi verilməlidir. Məruzədə Herodotun Qarabağın Qarqar qəbirlərinin Troyanın müdafiəsində iştirakı haqqında məlumat verməsi, amazonkaların Anadolunun Kim şəhərində e.ə X əsrdə kəsilmiş pulunun Bərdədə tapılması kimi məlumatlar qəribə səslənir. Belə ki, Troya müharibəsi e.ə XIII əsrin sonunda olub. Bu müharibə e.ə VII əsrdə əvvəlki əfsanələr əsasında yazılan Homerin adı ilə əlaqələndirilən «Iliadə» poemasında təsvir olmuşdur.

Nə bu poemada, nə də e.ə V əsrin ortalarında Herodotun yazdığı «Tarix 9 kitabda» əsərində Qarabağ qarqarlarının adı çəkilmir. Pula gəlincə e.ə X əsrdə dünyanın heç yerində hələ pul zərb olunmamışdır. İlk pullar dünyada e.ə VII-VI əsrlərdə zərb olunub. Azərbaycan ərazisində isə aşkar edilən ən qədim pullar Makedoniyalı Aleksandra (e.ə 336-323-cü illər) məxsusdur.

Bu məsələ ilə əlaqədar mənə çoxlu müraciətlər olunduğu üçün çox qısa məlumat verməli oldum.

Orta əsr şəhərlərinə həsr olunan digər məruzələr aşağıdakılardır: professor Tarix Dostiyev (Azərbaycan) Orta əsr Azərbaycanında şəhər mədəniyyətinin inkişafının xüsusiyyətləri», Tarix Dostiyev, Rəşid Bəşirov «Şəmkir şəhərində IX əsr monumental binanın arxeoloji tədqiqi», Qoşqar Qoşqarlı, Vaqif Əsədov, Təranə Babayeva (Azərbaycan) «Orta əsr Şabran şəhərinin arxeoloji tədqiqində yeni mərhələ», Yüksel Sayan (Türkiyə) «Azərbaycanın orta əsr şəhərlərinin Türkiyə arxeologiyasında rolu», Turan Gökçe (Türkiyə) «Övliya Çelebinin Qədim Azərbaycan şəhərlərinin təsvirinə baxış. Təbriz şəhərinin əsasında», Bayırjan Baytanayev (Qazaxıstan), «Orta əsr İspicab-Sayram (şəhərinin və bölgənin təşəkkülü) », Akif Quliyev (Azərbaycan), «Gülüstan qalası şirvanşahların iqamətgahı», Ayman Dosimbayeva (Qazaxıstan), «Qazax çölü əhalisinin mədəniyyət sistemində şəhər və çöl», Abuzər Ələkbərov (Azərbaycan), «Bir daha Muğan şəhəri haqqında», Şirzad Əhmədov, Lamiyə Əhmədova (Azərbaycan), «Şamaxı şəhəri antik və orta əsrlərdə», Bəxtiyar Cəlilov (Azərbaycan), «Faxralı orta əsr yaşayış yeri», Müzəffər Hüseynov (Azərbaycan), «Qıraq Kəsəmənli orta əsr yaşayış yeri», Xaqani Əhmədov (Azərbaycan), «Şeyx Baba Xanagahı», Elmira Abbasova (Azərbaycan), «Qəbələ-Qala ərazisində aşkar olunmuş metalişləmə məmulatları», Səidə Həmzəbəyova, «Şərqşünas alim V.F.Minorskinin əsərlərində Azərbaycanın qədim şəhərləri haqqında məlumat».

Konfransa dinlənilən aşağıda sadalanan məruzələr Azərbaycan şəhərlərinin memarlıq abidələrinə həsr olunmuşdur. Cəfər Qiyasi (Azərbaycan), «Səfəvilər dövrü şəhərlərinin baş meydanları haqqında», Gülçöhrə Məmmədova, «Qafqaz Albaniyasında şəhərsalma mədəniyyəti», Rizvan Qaraqabaqlı, «Azərbaycan antik dövr memarlığı (e.ə IV-III ərslər)», Rəna Əmənzadə, «Azərbaycanın orta əsr şəhərlərinin memarlığı».

Konfransda bütün məruzələr böyük maraqla dinlənilmiş və müzakirə olunmuşdur. Konfrans iştirakçıları Qəbələnin qədim şəhər yerində olaraq orada aparılan qazıntılarla, arxeoloji ekspedisiyanın yeni bazasında arxeoloji tapıntılar nümayiş olunan böyük sərgi-muzeylə, Qəbələ rayon diyarşünaslıq muzeyi ilə müasir Qəbələ şəhərinin sənaye müəssisələri və rayon təbiətinin görməli yerləri ilə tanış olmuşlar.

Konfransda təqdim olunan məruzələrin geniş xülasələri kitab şəkilində nəşr olunaraq iştirakçılara paylanmışdır.

**İlyas Babayev**

**AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu**

# «Azərbaycan Arxeologiyası» jurnalı təbrik edir:

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
“Antik dövr arxeologiyası” şöbəsinin aparıcı
Elmi işçisi, “Azərbaycan Arxeologiyası”
jurnalının redaktor müavini ,
tarix üzrə fəlsəfə doktoru

## B’hlul Ìmran o]lu Ìbrahimliy’

Hörmətli həmkarımız, Bəhlul müəllim!

“Azərbaycan Arxeologiyası” jurnalının Redaksiya heyəti Sizi, Naxçıvan diyarının arxeoloji abidələrinin yorulmaz tədqiqatçısını, Azərbaycanın tanınmış arxeoloqunu, səmimi və qayğıkeş insanı anadan olmanızın 60 illik yubileyi münasibəti ilə təbrik edir,Sizə möhkəm can sağlığı, böyük arxeoloji kəşflər və sevinc dolu uzun illər arzulayırıq.